**BEŞİNCİ ÇAĞIRIŞ**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**NÖVBƏDƏNKƏNAR**
**X SESSİYASI İCLASININ**

# PROTOKOLU № 70

*Milli Məclisin iclas salonu.*
*12 iyun 2018-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***O.Əsədov*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 105 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.05 dəq.) |
| İştirak edir | 96 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**İdris İsayev**, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.

* * *

**Gündüz Sadıxov**, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Kriminalistik Tədqiqatlar İdarəsinin rəisi.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Konstitusiya Qanunu (ikinci səsvermə).

2. Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

3. “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

4. “Azərbaycan Respublikası Hökuməti ilə Hindistan Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasportlara malik şəxslərin viza tələbindən azad edilməsi haqqında” Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

5. “Dərc olunmuş əsərlərin kor, görmə qüsurlu və ya çap məhsullarını oxumaqla bağlı başqa əlilliyi olan şəxslər üçün əlçatanlığını asanlaşdırmağa dair Mərakeş Müqaviləsi”nə qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

6. “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

7. “Sərhəd qoşunları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

8. “Azərbaycan Respublikasının dövlət sərhədi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

9. “Mülki müdafiə haqqında” Azərbaycan Respublika-

sının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

10. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

11. "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

12. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

13. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

14. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

15. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

16. Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

17. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

18. Azərbaycan Respublikasının Ağsu, Astara, Goranboy, Göygöl, Xaçmaz, Xızı, Qazax, Quba, Qusar, Masallı, Oğuz, Saatlı, Samux, Şəmkir və Yevlax rayonlarının bəzi

ərazi vahidlərinin adlarının dəyişdirilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

19. "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

20. "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

21. Məşğulluq haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

22. Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

23. Uşaqların zərərli informasiyadan qorunması haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**1. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan**

**Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Konstitusiya Qanunu (ikinci səsvermə).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**2. Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Kamran Nəbizadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**3. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Kamran Nəbizadə, Fazil Mustafa, Vahid Əhmədov, Musa Quliyev, Fəzail Ağamalı, Valeh Ələsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**4. "Azərbaycan Respublikası Hökuməti ilə Hindistan Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasportlara malik şəxslərin viza tələbindən azad edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**5. "Dərc olunmuş əsərlərin kor, görmə qüsurlu və ya çap məhsullarını oxumaqla bağlı başqa əlilliyi olan şəxslər üçün əlçatanlığını asanlaşdırmağa dair Məra-**

**keş Müqaviləsi"nə qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Hadi Rəcəbli, Aytən Mustafazadə, Musa Quliyev, Rafael Hüseynov, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**6. "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyafət Əsgərov, Tahir Kərimli, Siyavuş Novruzov, Aydın Mirzəzadə, Fazil Mustafa

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**7. "Sərhəd qoşunları haqqında" Azərbaycan Res-**

**publikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**8. "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**9. "Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**10. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**11. "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**12. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**14. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**15. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**16. Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Hadi Rəcəbli, Fazil Mustafa, Musa Quliyev

**Təklif:** Qanun qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 13.37 dəq.)

| | |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**17. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, İsa Həbibbəyli, Ziyafət Əsgərov, Vahid Əhmədov, Sona Əliyeva, Hikmət Məmmədov, Siyavuş Novruzov, Qənirə Paşayeva, Aqil Abbas, Elşad Həsənov, Asim Mollazadə, Çingiz Qənizadə, Məlahət İbrahimqızı, Elşən Musayev, Şəmsəddin Hacıyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.59 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**18. Azərbaycan Respublikasının Ağsu, Astara, Goranboy, Göygöl, Xaçmaz, Xızı, Qazax, Quba, Qusar, Masallı, Oğuz, Saatlı, Samux, Şəmkir və Yevlax rayonlarının bəzi ərazi vahidlərinin adlarının dəyişdirilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Arif Rəhimzadə, Ziyafət Əsgərov, Fazil Mustafa, Rafael Hüseynov, Siyavuş Novruzov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.19 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**19. "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ülvi Quliyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.21 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**20. "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ülvi Quliyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.24 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**21. Məşğulluq haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Hadi Rəcəbli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.32 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihənin adı, preambulası, 1–27-ci maddələri qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.33 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**Təklif:** 28–37-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.33 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.34 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**22. Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.36 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihənin adı, preambulası, 1–11-ci maddələri qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.36 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** 12–21-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.37 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.37 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**23. Uşaqların zərərli informasiyadan qorunması haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Aqiyə Naxçıvanlı, Musa Quliyev, Qənirə Paşayeva, Valeh Ələsgərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.57 dəq.) |
| Lehinə | 82 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 83 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri** **O.ƏSƏDOV**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*12 iyun 2018-ci il. Saat 12.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***Oqtay Əsədov*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli millət vəkilləri! Növbədənkənar sessiyanı açıq elan edirəm.

*(Azərbaycan Respublikasının Dövlət himni səslənir.)*

**Sədrlik edən.** Hörmətli millət vəkilləri, xahiş edirəm, qeydiyyatdan keçək.

| **Qeydiyyat** | (saat 12.05 dəq.) |
|---|---|
| İştirak edir | 96 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasımıza başlaya bilərik.

Hörmətli millət vəkilləri, gündəliyimizdə 23 məsələ var. 13-cü məsələ gündəlikdən çıxarılıb. 22 məsələdir. Xahiş edirəm, gündəliyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 97 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik təsdiq edildi.

Gündəliyin 1-ci məsələsi "Normativ hüquqi aktlar haqqında" Qanunda dəyişikliklər edilməsi haqqındadır. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, cənab Sədr. Hörmətli həmkarlar, əslində, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunu 6 ay keçdikdən sonra yenidən səsverməyə çıxarılır. Sizə qısaca xatırlatmaq istəyirəm ki, "Normativ hüquqi aktlar haqqında" Qanuna edilən dəyişikliyin mənası ondan ibarət idi ki, Milli Məclisin iş rejiminə, praktikasına uyğun olaraq hökumətlərarası, dövlətlərarası müqavilələrə, qanunların uyğunlaşdırılması məqsədi ilə hazırlanmış layihələrə, ad və digər rəqəm dəyişiklikləri nəzərdə tutulan qanun layihələrinə bir oxunuşda, digər qanun layihələrinə isə üç oxunuşda baxılır. Bu, məhz millət vəkillərinin və parlamentin təklifi idi, o zaman nəzərə alınmış, qəbul olunmuşdu. İndi isə 6 ay keçib və Konstitusiya qanunu olduğuna görə yenidən səsə qoyulmalıdır. Mən səsvermədə diqqətli olmağınızı rica edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Xahiş edirəm, Konstitusiya qanununun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 2-ci və 3-cü məsələlər 1 zərflə gəlib. 2-ci məsələ Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında qanun layihəsinin üçüncü oxunuşudur. Buyursun Kamran Nəbizadə.

**K.Nəbizadə,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi sədrinin müavini.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında qanun layihəsi iyunun 4-də komitəmizin iclasında müzakirə olunmuşdur və Milli Məclisin plenar iclasında üçüncü oxunuşda baxılmağa tövsiyə edilmişdir. Layihənin üçüncü oxunuşunun hazırlanması zamanı millət vəkilləri və mütəxəssislər tərəfindən ikinci oxunuşda verilən təkliflərə komitədə baxılmışdır və onlara müvafiq münasibət bildirilmişdir. Millət vəkilləri redaktə xarakterli təkliflərini vermişdi və bu təkliflər nəzərə alınacaq. Qanun layihəsi üçüncü oxunuş üçün səsə qoyulmağa tam hazırdır. Diqqətinizə görə çox sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 3-cü məsələ "Ətraf mühitin mühafizəsi haqqında" Qanunda dəyişikliklər edilməsi barədədir. Buyursun Kamran Nəbizadə.

**K.Nəbizadə.** Hörmətli Oqtay müəllim, hörmətli millət vəkilləri! Müzakirənizə təqdim olunan qanun layihəsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim edilmişdir. Layihə komitəmizin martın 29-da keçirilən iclasında müvafiq dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının təmsilçilərinin iştirakı ilə müzakirə olunmuş və baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir.

"Ətraf mühitin mühafizəsi haqqında" Qanuna təklif olunan dəyişikliklər qüvvədə olan "Lisenziyalar və icazələr haqqında" və "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" qanunlara və bu gün üçüncü oxunuşda qəbul olunan Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında qanun layihəsinə uyğunlaşdırma məqsədi daşıyır. Sözügedən uyğunlaşmanı təmin etmək üçün "Ətraf mühitin mühafizəsi haqqında" Qanunun bir çox maddələrinə əlavə və düzəlişlər edilməsi, yeni maddələrin əlavə olunması təklif edilir. Belə ki, qanunun "Anlayışlar" adlanan 1-ci maddəsində ekoloji ekspertiza ilə bağlı yeni anlayışlar verilir. Eyni zamanda, bu maddə aşağıdakı məzmunda yeni müddəa ilə tamamlanır.

"Bu Qanunda istifadə olunan digər anlayışlar "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunları və başqa normativ hüquqi aktlar ilə müəyyən edilmiş mənaları verir".

Qüvvədə olan qanunun 13-cü maddəsində beynəlxalq hüquqdan və sahə ilə əlaqəli digər qanunların tələblərin-

dən irəli gələn müvafiq dəyişikliklər edilir. Qanun layihəsində mövcud qanunun 11, 51, 52, 55 və 57-ci maddələri tamamilə yeni redaksiyada verilib. Belə ki, 11-ci maddənin təklif olunan yeni redaksiyası aşağıdakı kimidir:

"Təbiətdən istifadə sahəsində "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq lisenziya və ya icazə tələb olunduqda müvafiq fəaliyyət növləri və ya hərəkətlər lisenziya və ya icazə alındıqdan sonra həyata keçirilir.

Təbiətdən istifadə sahəsində lisenziya və icazə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "bir pəncərə" prinsipi əsasında verilir".

Qanunun 51-ci maddəsi "Ekoloji ekspertizanın məqsəd və vəzifələri" adı ilə, 52-ci maddəsi isə "Dövlət ekoloji ekspertizasına dair tələblər" başlığı ilə yeni redaksiyada verilir. 52-ci maddənin mətni isə "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanunun tələblərinə uyğunlaşdırılır. Qüvvədə olan qanunun 53-cü maddəsinin əsas prinsipləri sözügedən 52-ci maddənin yeni redaksiyasında daha ətraflı və predmetli verildiyindən həmin 53-cü maddə ləğv olunmuşdur. Eyni zamanda, mövcud qanunun 54, 55 və 56-cı maddələri yeni redaksiyada verilib və bu maddələr qəbul etdiyimiz "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanunun mətni ilə uzlaşır. Dövlət ekoloji ekspertizası rəyinin verilməsinin çərçivə qaydalarını müəyyən edən 57-ci maddə və ictimai ekoloji ekspertizanı tənzimləyən 58-ci maddə ictimai ekoloji ekspertizaya dair tələbləri müəyyənləşdirən maddə kimi yeni redaksiyada verilir. Qüvvədə olan qanuna "İctimai ekoloji ekspertiza sahəsində ictimai ekoloji

ekspertizanın təşkilatçılarının vəzifələri və hüquqları" adlı 58-1-ci maddə əlavə olunur. Təklif olunan əlavə və dəyişikliklərin bəziləri qanunun digər maddələri ilə ziddiyyət təşkil etdiyindən 14-cü və 53-cü maddələrin mətnləri bütövlüklə, bəzi maddələrin isə ayrı-ayrı bəndləri ləğv edilir.

Hörmətli millət vəkilləri, sənəddən göründüyü kimi, təklif olunan dəyişikliklər yeni qəbul etdiyimiz "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanunun uyğunlaşdırılmasının təmin olunmasına, ölkənin ətraf mühit sahəsində qanunvericiliyinin daha da təkmilləşdirilməsinə xidmət edir. Qanun layihəsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Fazil Mustafa.

**F.Mustafa.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Qanunla bağlı qısa fikrimi bildirmədən öncə bir məsələyə toxunmaq istəyirəm. Bu gün bizim deputat həmkarımız Yevda Abramovun 70 yaşı tamam olur. Ölkə Prezidenti də onun əməyini yüksək qiymətləndirib. Mən onu təbrik edirəm, can sağlığı arzulayıram. Allah şəfa versin. Biz uzun illərdir parlamentdə çalışmışıq. O, Xocalı soyqırımının tanınmasında, Azərbaycan problemlərinin dünyaya çatdırılmasında böyük işlər görübdür. Həqiqətən də ən fədakar azərbaycanlılardan biri kimi fəaliyyətini qiymətləndirmək mümkündür.

İkincisi, qanunla bağlı qısa iradım var. Dövlət ekoloji ekspertizasının rəy bildirməsi vacibdir. Qanunda əsas məqsədlərdən biri ictimai iştirakçılığın təmin olunmasıdır, amma burada nəzərdə tutulan ictimai iştirakçılıq sırf formal xarakter daşıyır. 58-ci maddəyə diqqət etsəniz, görərsiniz ki, ictimai təşkilatlar ictimai ekoloji ekspertizanın keçirilməsinə 5 gün qalmış dövlət qurumuna müraciət edirlər. Ekoloji ekspertiza obyektləri "Dövlət sirri haq-

qında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət sirri təşkil edən məlumatlara və qanunla qorunan digər məlumatlara aid edildikdə ictimai ekoloji ekspertizanın keçirilməsinə yol verilmir.

Burada dövlət sirrini başa düşdük, qanunla qadağan edilən, yaxud qorunan digər məlumatlar kateqoriyasına istənilən məsələni salmaq olar və ictimai ekspertizanı bura buraxmamaq olar. Bizim məqsədimiz ictimai iştirakçılıq olduğundan əgər ictimai ekspertizanı keçirənlərin tələbi olarsa, birinci növbədə dövlət ekoloji ekspertizasının rəyinə ictimai ekspertizanın rəyi də əlavə edilsin. Yəni onu stimullaşdırmaq üçün vətəndaşa, müəssisəyə, hüquqi şəxsə istənilən məsələ ilə bağlı dövlət ekspertizasının rəyi veriləndə onun yanında həm də ictimai ekspertiza olsun. Çünki onlar bir-birindən fərqlənə bilər və qiymətləndirmədə dövlət ekspertizası, ola bilər ki, dövlətin marağından çıxış edir, lakin vətəndaşın marağına uyğun olmayan qeyri-obyektiv qərar da çıxara bilər. Heç olmasa, ictimai ekspertiza vasitəsi ilə vətəndaşın və ya hüquqi şəxsin mənafeyinə zidd qərar olanda onu aşkarlamaq mümkün ola bilsin. Ona görə də mən hesab edirəm ki, 5 gün ərzində yazılı müraciətə, məlumatlandırmaya da gərək yoxdur. Birbaşa müraciət edirsə, ona mütləq lazımi şərait, yəni texniki informasiya və sair yaradılmalıdır. Bu, qanunda yoxdur. Bunu qeyd etməliyik ki, ictimai iştirakçılığın bir effekti olsun.

Dəfələrlə burada səsləndirdik, Oqtay müəllim, Siz də yaxşı bilirsiniz ki, qanun qəbul elədik, kimsə əhəmiyyət vermədi, çox az sayda nazirliklərdə ictimai şuralar var, lakin icra hakimiyyətlərinin, demək olar ki, böyük əksəriyyətində yaradılmadı. Qəbul etdiyimiz qanunun həm də işləməsində maraqlıyıqsa, bu amilləri indidən nəzərə al-

mağa çalışmalıyıq ki, gələcəkdə ekologiya ilə bağlı məsələlərdə ictimaiyyətin fəallığını təmin edə bilək. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov.

**V.Əhmədov.** Çox sağ olun, cənab Sədr. Hörmətli millət vəkilləri, mən də səhər Yevda müəllimi təbrik etdim. Oqtay müəllim, hamınıza, bütün millət vəkillərinə salamlarını çatdırır. Sağlamlığı normaldır, hazırda evdə istirahət edir. Yəqin ki, yaxın vaxtlarda işə çıxacaq.

Qanunla əlaqədar olaraq onu qeyd etmək istəyirəm ki, ümumiyyətlə, bu qanunda edilən dəyişikliklər çox ciddidir və bununla bağlı ekologiya və təbii sərvətlər nazirinin üzərinə, mən deyərdim ki, çox böyük məsuliyyət düşür. Burada Fazil müəllim qeyd etdi, dövlət ekoloji ekspertizası ilə bərabər ictimai ekoloji ekspertizanın tövsiyə xarakteri daşıması yenə də bir balaca sual doğurur. Ona görə də mən belə hesab edirəm ki, ümumiyyətlə, ictimai ekoloji ekspertizanın keçirilməsi hazırda çox vacibdir. Amma bunun tövsiyə xarakterli olub-olmaması ilə əlaqədar yəqin ki, bir az fikirləşmək lazımdır.

İkincisi, son vaxtlar Azərbaycanda ekologiya ilə bağlı problemlər həddən artıq çoxdur. Mən bir sıra maddələrlə əlaqədar öz fikrimi bildirmək istəyirəm. Birincisi, 52.4-cü maddədə yazılıb ki, dövlət ekoloji ekspertizasının obyektləri barədə ekoloji ekspertiza rəyi olmadan sənaye və ərzaq məhsullarının istehsalı, işlərin, xidmətlərin yerinə yetirilməsi və ya Azərbaycan Respublikasının ərazisinə gətirilməsi qadağandır. Mən bunu təsəvvür edə bilmirəm ki, bu ekspertiza nə cür həyata keçirilir. Yəni dövlət ekoloji ekspertizası bu qədər işin öhdəsindən necə gələcək? Hətta digər, 54.3-cü maddədə də idxal və ixrac əməliyyatlarının hamısının ekoloji ekspertizadan keçiril-

məsi nəzərdə tutulur. Hətta avadanlığın da, qeyri-avadanlığın da, yəni bütün bunların hamısının ekspertizadan keçirilməsi, əlbəttə, müəyyən suallar doğura bilər.

57.2-ci maddə. Dövlət ekoloji ekspertizasının rəyinin 5 il müddətinə verilməsi. Niyə 5 il? Bunu 10 ilə də, daimi də götürmək olar. Mənə elə gəlir ki, bu maddəyə də baxmağa ehtiyac var.

Ümumiyyətlə, mən ekologiya ilə bağlı bir neçə məsələyə toxunmaq istəyirəm. Oqtay müəllim, son vaxtlar Azərbaycanda ekologiya ilə əlaqədar ciddi problemlər yaşanmaqdadır. Elə Bakı şəhərinin özündə müəyyən qədər ağacların qırılması, binaların tikilməsi və sair, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müəyyən cərimələrin tətbiqinə baxmayaraq, yenə də davam etdirilir.

Son vaxtlar, xüsusilə Göyçayda körpünün aşması ilə bağlı baş verən hadisələr və ya keçən 2017-ci ildə Qubada hələ karxanalardan çınqılların daşınması ilə əlaqədar Vəlvələ çayı üzərində 2 körpü uçdu və təzədən tikilməyə başlandı. Yəni çınqılların daşınması üçün lisenziyalar kimlər tərəfindən və necə verilir? Bu lisenziyalar nə üçün rayon icra hakimiyyəti tərəfindən verilir, axı cavabdeh Ekologiya və Təbii Sərvətlər Nazirliyidir. Mənə elə gəlir ki, bu məsələlərə diqqət yetirmək lazımdır, çünki çox ciddi problemlər yaranır. Əgər keçən il Meliorasiya və Su Təsərrüfatı Komitəsi Vəlvələ çayının ətrafında bir bənd tikməsə idi, o kənd tamamilə silinib gedəcəkdi. Çox təəssüf. Hesab edirəm ki, ümumiyyətlə, bu qanun layihəsi çox perspektivli bir qanundur, onu qəbul etmək lazımdır. Ona səs verəcəyəm və millət vəkillərini səs verməyə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vahid müəllim də çıxış etdi, ona cavab verməyə borcluyam. Siz hamınız bilirsiniz ki,

Milli Məclisin rəhbərliyi bütün millət vəkillərinə həmişə diqqətli olub. Biz bu gün Yevda müəllimi dəvət eləmişdik, onu təbrik etdik, parlamentin fəxri medalını da, cənab Prezidentin təltifinin əmrini də verdik. Bu, həmişə bizim diqqətimizdədir. Elə bundan iki gün qabaq İmamverdi İsmayılovun 60 yaşını təbrik elədik. Bunları həmişə diqqətdə saxlayırıq. Biz bunu demirik, çünki hamınız bilirsiniz. Buyursun Musa Quliyev.

**M.Quliyev**. Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Mən də bu qanuna edilən əlavə və dəyişiklikləri dəstəkləyirəm və hesab edirəm ki, yerində, zəruri əlavə və dəyişikliklərdir və Azərbaycan təbiətinin mühafizəsi, ekologiyanın qorunması üçün çox lazımlı və beynəlxalq standartlara uyğun tələblərdir. Eyni zamanda, bu layihədə vətəndaş cəmiyyətinin, əhalinin ictimai ekspertizada iştirakını da müsbət hal kimi qiymətləndirirəm və düşünürəm ki, ümumiyyətlə, təbiətin qorunmasında, icra hakimiyyəti orqanlarının öz funksiyalarını yerinə yetirməsində, qanunların icrasında vətəndaşların, ictimai təşkilatların və ictimai birliklərin nəzarət funksiyasının artırılması bütövlükdə dövlətimizin vətəndaş cəmiyyəti qurmaq siyasətinə uyğundur və cəmiyyət-dövlət münasibətlərinin tənzimlənməsi üçün möhkəm hüquqi zəmin yaradır.

Eyni zamanda, bu qanunun 58.3-cü maddəsi ilə bağlı fikrimi söyləmək istəyirəm. Burada "ictimai ekoloji ekspertiza dövlət ekoloji ekspertizasından əvvəl və ya onunla eyni vaxtda aparılır" fikrini mən anlamıram. İctimai ekoloji ekspertiza dövlət ekspertizasından sonra aparılsa, nə ziyanı var? Əgər əvvəl və onunla bir dövrdə aparılırsa, ictimai ekspertizanın rəyi nə dərəcədə nəzərə alınacaqdır? Bu da qanunda öz əksini tapmalıdır. Mən hesab edirəm, dövlət ekspertizasından sonra aparılmasına

da imkan yaratmaq lazımdır. Bəlkə cəmiyyət, toplum, həmin yerdə yaşayan əhali ekspertizanın nəticələrindən razı deyil? Burada əhalinin istəmədiyi məqamlar var və bu məqamlar da cəmiyyət tərəfindən ortaya çıxarılmalıdır və ictimailəşməlidir.

Eyni zamanda, bu qanun layihəsindən istifadə edərək məni narahat edən ekologiya və ətraf mühitin çirklənməsi ilə bağlı bir sıra məsələləri diqqətə çatdırmaq istəyirəm. Ümumiyyətlə, ətraf mühitin mühafizəsinin ən yaxşı yolu onu çirkləndirməməkdir. Bundan ötrü də bizim istər vətəndaşlarımız, istərsə də müvafiq icra hakimiyyəti orqanı həmişə fəal olmalıdır.

Azərbaycana gələn turistlərin sayı ildən-ilə artır, Bakı şəhərimiz gözəlləşir, Bakı bulvarı dünyanın ən gözəl bulvarlarından birinə çevrilib. Bunlar bizi sevindirir. Biz də tez-tez Bakı bulvarında oluruq və vətəndaşlarımızla görüşürük. Onlar Xəzər dənizinin Bakı bulvarı hissəsində kanalizasiya probleminin hələ də həll edilməməsi ilə bağlı şikayət edirlər. Üzr istəyirəm, oradan elə üfunət iyi gəlir ki, adam xarici vətəndaşlardan utanır. Ona görə də müvafiq qurumlara səslənirəm ki, bu problemin həllinin vaxtı çoxdan gəlib çatmışdır.

Eyni zamanda, Milli Məclisdə məişət tullantılarının çeşidlənməsi ilə bağlı dəfələrlə deyilib, bildiyim qədər, normativ hüquqi aktlar da qəbul olunub. Dünyanın hər yerində məişət tullantıları 3–4 çeşidə ayrılır, yəni quru, polietilen və yaş tullantılar fərqli qutulara yığılır. Bizdə isə hamısı bir-birinə qarışdırılır və sonra onların emal olunması, basdırılması və sair şəkildə zərərsizləşdirilməsi də müəyyən problemlər yaradır.

Eyni zamanda, Bakı şəhərində məişət tullantıları daşıyan maşınlara da fikir vermək lazımdır. Bəzən 60-cı

illərdən qalmış, köhnə kolxozlarda işləyən lapetlər də məişət tullantıları daşıyır, onlar bəzən küçələrə tökülür, şəhərin də görkəmini pozur, insanlarda da mənfi ovqat yaradır. Hesab edirəm ki, bunlar haqqında da Bakı Şəhər İcra Hakimiyyəti və müvafiq qurumlar tədbir görməlidirlər. Bütövlükdə isə qanuna səs verəcəyəm və deputat həmkarlarımızı da səs verməyə dəvət edirəm. Sağ olun.

**Sədrlik edən**. Sağ olun. Fəzail Ağamalı.

**F.Ağamalı**. Təşəkkür edirəm, hörmətli cənab Sədr. Oqtay müəllim, mən həm Sizə, həm də hörmətli millət vəkillərinə qoşularaq Yevda müəllimi və İmamverdi müəllimi yubileyləri münasibəti ilə təbrik edirəm, onlara can sağlığı arzulayıram. Əminəm ki, onlar bundan sonra da Azərbaycan dövlətçiliyinə sədaqətlə xidmət edəcəklər.

Təqdim edilmiş qanun layihəsi kifayət qədər təkmildir. Mən bunu dəstəkləyirəm, müdafiə edirəm və düşünürəm ki, ölkədə ətraf mühiti mühafizə etmək, ekoloji vəziyyəti yaxşılaşdırmaq üçün belə qanun layihəsinin qəbuluna ciddi ehtiyac var, bunun sərtləşdirilməsi, ümidvaram ki, respublikamızda ətraf mühitin qorunmasına, heç şübhəsiz ki, öz töhfəsini verəcəkdir. Mən əminəm ki, belə də olacaqdır.

Hörmətli cənab Sədr, bununla bərabər, mən burada dəyərli həmkarım Musa Quliyevin söylədiyi fikri əlavə məlumatlar vermədən tamamilə dəstəkləyirəm. Söhbət deyilən ərazidə Xəzər dənizinin çirklənməsi ilə bağlı hər birimizi narahat edən məsələdən gedir. Bakı bu gün dünyanın inkişaf etmiş gözəl şəhərlərindən biridir. Burada turizm getdikcə inkişaf edir və hər il Azərbaycana, Bakıya dünyanın müxtəlif yerlərindən çox sayda turist gəlir. Bulvar tərəfdə, dənizdə həmin bu vəziyyəti görmək acınacaqlıdır. Açığını deyim ki, çox xoşagəlməz mənzərədir. Təkcə onun görkəmi deyil, eyni zamanda, onun ətrafa

yaymış olduğu pis qoxu da insanları dənizkənarı parkdan uzaqlaşdırır, bu, birmənalıdır. Ona görə də bu məsələ ilə əlaqədar sərt tədbirlər görülməlidir. Mən də bununla bağlı müvafiq icra strukturlarına çağırışlar edirəm ki, tədbirlər görülsün. Bir neçə il bundan öncə mən bu məsələni qaldıranda dənizkənarı parkın rəhbərliyi həmin problemə diqqət yetirməyə cəlb olundu, bir həftə, on gün nəzarət artırıldı, xüsusi gəmilərlə təmizləndi, lakin yenə də vəziyyət eynidir. Bu, aradan qaldırılmalıdır.

İkincisi, bu gün meqapolis kimi Bakının nəfəsi artıq daralmaqdadır. Şəhər hədsiz dərəcədə yüklənib, yeni-yeni binalar tikilir. Bundan əlavə, texniki cəhətdən nasaz olan maşınlar da var. Bakı şəhərində onların fəaliyyətinə qadağalar qoyulmalıdır, bu da sərtləşdirilməlidir.

Nəhayət, qanun layihəsinin 10-cu maddəsində sifarişçilər tərəfindən dövlət ekoloji ekspertizasının keçirilməsi üçün müvafiq icra hakimiyyəti orqanlarına veriləcək sənədlərin sayı 13 ədəddir. Cənablar, bu çox deyilmi? Mənə elə gəlir ki, bunun da üzərində düşünməyə dəyər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun, təşəkkür edirəm. Valeh Ələsgərov.

**V.Ələsgərov,** *Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Təşəkkür edirəm, cənab Sədr. Hörmətli deputatlarımızın yadına salmaq istəyirəm ki, müzakirə etdiyimiz qanun layihəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bir məktubu ilə Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında qanun layihəsi ilə birlikdə təqdim olunmuşdur. Nəyə görə biz müzakirə etdiyimiz qanun layihəsinə "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanun üçüncü oxunuşda qəbul olunandan sonra

bu əlavələri, dəyişiklikləri edirik? Çünki “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Qanunun tələblərini bu qanunda nəzərə almalıyıq. Səbəb ondan ibarətdir ki, 1999-cu ildə, mən yox idim, amma deputatlarımızın əksəriyyəti bu binada Espoo konvensiyasını, ətraf mühitə təsirin qiymətləndirilməsi məsələsini əhatə edən konvensiyanı təsdiq elədi, ona qoşulduq, nəticə olaraq “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Qanunu qəbul etdik və “Ətraf mühitin mühafizəsi haqqında” Qanuna bugünkü əlavələri və dəyişiklikləri etməli olduq. Bu, təbii bir prosesdir. Əmin ola bilərsiniz ki, bu gün təsdiq edəcəyimiz əlavələr və dəyişikliklər ən yüksək standartlara əsasən yoxlanılmış, öz təsdiqini tapmış, standartlara uyğun hazırlanmışdır.

Ekoloji qanunların, tələblərin, standartların yerinə yetirilməsi məsələsində, mənim fikrimcə, ən böyük problem bu gün olan ödəmələrdə, cəzadadır. Bu yaxınlarda oxuyuram ki, hansısa mal ferması və tikinti materialları istehsal edən müəssisə tullantı sularını Ceyranbatana axıdır. Cəriməsi 6550 manat oldu, 6500 manatı milyonlarla pul qazanan iki qurum ödədi, onlar yenə də buna davam edəcəklər. Dünya təcrübəsi göstərir ki, cəzalar adekvat olmasa, bu qanunlar pozulacaq. Mən yeni nazirimizə də demişəm, fikrimcə, ödəmələrin miqdarı o qədər yüksək olmalıdır ki, bu qanunu pozmaq istəyən qurum, ya da şəxs bunun iqtisadi-maliyyə nəticəsi necə olacağını min dəfə fikirləşsin. Biz bunu eləməsək, vəziyyət dəyişməyəcək. Qanunda bütün tələblər var, amma ödəmənin miqdarı o qədər aşağıdır ki, kimsə bu tələbləri yerinə yetirmir. Yadınıza salın, bir neçə il bundan qabaq Meksika körfəzində kəşfiyyat quyusu qazılanda hadisə baş verdi, neft dağıldı, qaz yandı və sair. O şirkət milyardlarla ödəmələr

etdi, çökmə səviyyəsinə gəlib çıxdı. Əks halda, qanunları, əlbəttə, pozacaqlar. Cəzası elə olmalıdır ki, qanun pozulmasın. Xahiş edirəm, bu əlavə və dəyişikliklərə səs verək, qəbul edək. Çox sağ olun.

**Sədrlik edən**. Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti, 4-cü məsələ – “Azərbaycan Respublikası Hökuməti ilə Hindistan Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasportlara malik şəxslərin viza tələblərindən azad edilməsi haqqında” Sazişin təsdiq edilməsi barədə. Buyursun Səməd Seyidov.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, Oqtay müəllim. Doğrudan da, çox vacib, əhəmiyyətli bir qanun layihəsidir. Biz bunun kimi qanun layihələrini parlamentimizdə dəfələrlə müzakirə etmişik, təsdiq etmişik və demək olar ki, dünyanın bütün qitələri ilə bu cür əlaqələr artıq mövcuddur. Xüsusən Avropa ilə, Avropanın, demək olar, bütün ölkələri ilə həm diplomatik, həm də xidməti pasportlarla vizadan azad olunma rejimi artıq fəaliyyətdədir və işləyir. Azərbaycan artıq Şərqlə də münasibətlərini çox yüksək səviyyədə təşkil edir və Şərq

ölkələri içərisində Hindistan hazırda ən yüksələn, ən inkişaf edən ölkələrdən biridir, dünyanın iqtisadiyyatına təkan verən və nömrə birlər sırasında dayanan ölkələrdəndir. Ona görə biz belə bir sazişə, diplomatik və xidməti pasportların sahiblərinin viza rejimindən azad olunması ilə bağlı qanun layihəsinə müsbət münasibət bildiririk və hörmətli həmkarlarımdan da bu qanun layihəsinə müsbət münasibət bildirmələrini xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən**. Başqa təklif yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 5-ci məsələsi “Dərc olunmuş əsərlərin kor, görmə qüsurlu və ya çap məhsullarını oxumaqla bağlı başqa əlilliyi olan şəxslər üçün əlçatanlığını asanlaşdırmağa dair Mərakeş Müqaviləsi”nə qoşulmaq haqqında qanun layihəsidir. Buyursun Hadi Rəcəbli.

**H.Rəcəbli,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Hörmətli cənab Sədr, hörmətli deputat həmkarlarım! Cənab Sədrin səsləndirdiyi bu sənəd 1980-ci il mayın 9-da Mərakeşdə qəbul olunub  və sonradan 2013-cü il  iyunun 27-də ona bir sıra əlavələr və dəyişikliklər edilib. Bir neçə

gün bundan öncə bizim qəbul etdiyimiz qanunlardan birinin ayrıca bir müddəası məhz bu problemlərə həsr olunmuşdu. Bu, olduqca önəmli bir sənəddir. Layihə sizə paylanılıb, möhtərəm Prezidentimizin imzası ilə gəlib, deputat həmkarlarımı bu sənədə, bu müqaviləyə səs verməyə dəvət edirəm. Sağ olun.

**Sədrlik edən**. Sağ olun. Aytən Mustafazadə.

**A.Mustafazadə**. Təşəkkür edirəm, cənab Sədr. Doğrudan da, bu, çox vacib, mühüm bir sənəddir. Görmə qüsurlu şəxslər üçün müyəssər formatda əsərlərin dərc edilməsinə və mübadiləsi imkanlarının genişləndirilməsinə ciddi zərurət duyulur. Bu baxımdan sənədin əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Belə ki, həmin müqavilə görmə  qüsurlu insanlar üçün Brayl çapı, böyük qabarıq şrift, rəqəmsal audio və digər uyğun formatda əsərlərin daha çox olmasına təminat verir. Ona görə də Azərbaycanın həmin müqaviləyə qoşulması təqdirəlayiqdir və əlilliyi olan şəxslərin hüquqlarının təminatı istiqamətində irəliyə doğru atılmış mühüm addım kimi qiymətləndirilə bilər.

Gözdən əlil tələbələrin internetdən istifadə edə bilmələri üçün gələcəkdə bütün universitetlərdə Brayl əlifbası və səsli proqramlarla təchiz olunmuş kompüter laboratoriyaları da yaranar.

“Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində kitabxana işi sahəsində dövlətin vəzifələri sırasına aşağıdakı redaksiyada yeni bənd əlavə edilə bilər:

“Dövlət kitabxanalarının əlillərə maneəsiz müyəssər olması üçün zəruri şəraitin yaradılması”. Bu qanunun 22-ci maddəsi aşağıdakı məzmunda ikinci abzasla tamamlana bilərdi:

“Kitabxanaların və kitabxana xidmətlərinin əlillər üçün müyəssərliyi şərtləri əlillərin sosial müdafiəsinə dair qanunvericiliyə uyğun olaraq təmin edilir. Görmə qüsuru olan insanlar müxtəlif informasiya daşıyıcılarını və xüsusi olaraq əlillər üçün müyəssər formatda sənədlərin surətlərini əldə etmək hüququna malikdirlər”.

Misal üçün, Avstraliyada gözdən əlil insanlar üçün işıqforda xüsusi qurğu quraşdırılıb. Bu qurğu yaşıl işıq yanarkən səs siqnalı verir. Bu, çox maraqlı məsələdir, metroda platformanın kənarına yarım metr qalmış xüsusi qabarıq zolaq inşa olunub və gözdən əlil ora çatan kimi bilir ki, artıq platformanın qırağına yaxınlaşır. Təbii ki, biz bu konvensiyaya qoşulsaq, işlər çoxdur, təkliflər də çox olacaq. Mən bu iki məsələni nümunə kimi gətirdim ki, bununla bağlı çox zəruri, faydalı işlər görülə bilər. Təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun. Musa Quliyev.

**M.Quliyev**. Çox sağ olun, hörmətli cənab Sədr. Hörmətli millət vəkilləri, mən yaxşı başa düşürəm ki, qəbul olunmuş müqavilələrin mətnində heç bir dəyişiklik eləmək olmaz. Bunu ya qəbul edirik, ya da etmirik. Mənim təklifim tərcümə ilə bağlıdır. Hörmətli Oqtay müəllim, bu müqavilənin həm adında, həm də mətnində “kor” sözü işlədilir, biz “Əlillərin hüquqları haqqında” Beynəlxalq Konvensiyaya qoşulmuşuq və “Əlillərin hüquqları haqqında” Qanun da qəbul etmişik. Bu cür ifadələr adətən ayrı-seçkilik salan ifadələr sayılır. Əgər imkan varsa, məsləhətdirsə, həm tərcümə mətninin adında, həm də bütün mətndə “kor” sözünün “görmə qabiliyyətini itirmiş şəxslər” sözləri ilə əvəz olunmasını təklif edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun. Rafael Hüseynov.

**R.Hüseynov,** *Milli Məclisin Mədəniyyət komitəsinin sədri.*

Şübhəsiz ki, təməlində humanist dəyərlər dayanan bu müqavilə də, bu qanun layihəsi də təqdirəlayiqdir və ona müsbət münasibət bildirəcəyik. Amma mətnlə əlaqədar bir neçə düşüncəmi bölüşmək istəyirəm. Əvvəlcə onu deyim ki, bu müqavilənin əvvəlində verilmiş bəyanatlar son dərəcə əhəmiyyətlidir. Çünki Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi bir daha vurğulanır və Azərbaycanın Dağlıq Qarabağdan kənardakı 7 rayonunu məhz Ermənistan Respublikasının zəbt etdiyi ayrıca göstərilir. Onlar təqdirəlayiqdir. Lakin elə bu mətnin əvvəlində verilmiş o bəyanatların ingilis və Azərbaycan variantları ilə əlaqədar bəzi düşüncələrimi bölüşmək istəyirəm. Onu da deyim ki, bu düşüncələr həmin mətnlərin çərçivəsindən bir az kənara çıxır.

Ümumiyyətlə, son dövrlərdə bizim diplomatik, beynəlxalq mətnlərdə olan bəzi üslub xətaları qeyri-dəqiqliklər haqqında fikir yürütməyə yönəldir. Bir məşhur ifadə var ki, "dil diplomata fikirlərini ifadə etmək üçün deyil, düşüncələrini gizlətmək üçün verilib". Əlbəttə, bu, məcazi mənada deyilmiş bir ifadədir və fəlsəfəsi ondan ibarətdir ki, diplomat danışdığı dilin bütün imkanlarından maksimal dərəcədə istifadə edə bilməlidir. O, hansı dildə danışırsa, yazırsa, o dilin bütün nüanslarını fikrini daha dəqiq ifadə etmək üçün yönəltməlidir.

Buradakı mətndə bəzi məqamlar var ki, onlar istər-istəməz narahatlıq yaradır. Çünki Azərbaycanın xarici siyasət sahəsində kifayət qədər kadr potensialı var, kifayət qədər zəngin bir əhatəyə malikdir. Mənim xatirimdədir ki, 1993, 1994, 1995-ci illərdə böyük lider Heydər Əliyev Azərbaycanın xarici siyasətini, bu siyasəti gerçəkləş-

dirəcək kadr şəbəkəsini formalaşdırarkən nə qədər kasadlıq var idi. Dilləri bilən diplomatlar, bu sahədə çalışacaq mütəxəssislər yox idi. İndi bizim çox zəngin bir diplomat şəbəkəmiz var, onlar dilləri bilirlər, həm o dillərdə, həm də ana dilində diplomatik düşüncələrini çox dəqiq, sərrast ifadə edirlər. Amma yenə də təəssüflər ki, bu sahədə bizim ana dilində olan beynəlxalq mətnlərimizdə, tərcümələrdə, xüsusən beynəlxalq müqavilələrin tərcümələrində qeyri-səlis, Azərbaycan dilinin ruhu nöqteyi-nəzərindən sərrast olmayan ifadələrə rast gəlinir. Elə bu mətndə də belə məqamlar yer almaqdadır. Mən əvvəl daha "məşhurundan" başlayım. Burada ingiliscə bəyanatın mətnində verilib: "The Nagorno-Karabakh region of the Republic of Azerbaijan and its seven districts surrounding that region". Bu, Azərbaycan dilinə "Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və ona bitişik 7 rayonu" kimi tərcümə olunub. Zahirən hər şey yerindədir. Lakin originala fikir verin, ingiliscə mətndə "region" sözü iki dəfə təkrarlanır və bu da təsadüfi deyil. Çünki ermənilər Dağlıq Qarabağ ətrafında hansı isə ərazi iddiaları, mübahisəli fikirləri ortaya ata bilərlər, amma Dağlıq Qarabağ regionundan kənardakı 7 rayon ilə bağlı heç bir söhbət mübahisə mövzusu ola bilməz. Bu, tam işğaldır, burada başqa söhbət yoxdur. Ona görə bu, hər dəfə dəqiq vurğulanmalıdır və ona görə də tərcümə, əslində, belə, yəni ingiliscə mətndəki kimi olmalıdır: "Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun bu regiona bitişik 7 rayonu". Çünki indi verilmiş mətndən belə bir təəssürat yarana bilər ki, o 7 bitişik rayon Qarabağ regionunun özünə aiddir. Hərçənd biz həqiqəti bilirik. Amma elə originala, ingilis mətninə uyğun olaraq dəqiq verəndə, "Azərbaycan Respublikasının Dağlıq Qara-

bağ regionu və onun bu regiona bitişik 7 rayonu” kimi tərcümə edəndə hər şey yerində və dəqiq olur.

Digər bir məqam. Yenə də ayrı-ayrı sözlərin sərrast ifadəsi xüsusən diplomatik mətnlərdə çox vacibdir. Burada da müəyyən qeyri-dəqiqlik var. Bu nədən ibarətdir? “The Republic of Azerbaijan declares that it is unable to guarantee the implementation of the provisions of the Marrakesh Treaty”.

İndi bunun Azərbaycan dilinə tərcüməsini oxuyaq: “Azərbaycan Respublikası bəyan edir ki, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərdə...”, aradakı o hissələri ötürürəm, cümlənin xəbər hissəsinə gəlirəm, “...işğalın nəticələri tam aradan qaldırılanadək təlimat vermək iqtidarında deyildir”. İqtidar və imkan fərqli mənalara malik sözlərdir. İqtidar gücün, yaxud gücsüzlüyün ifadəsi, imkan isə şəraitin sənə yaratdığı müəyyən məhdudiyyətlər deməkdir. Burada Azərbaycanın gücsüzlüyündən, iqtidarsızlığından söhbət gedə bilməz və bir mətnin içərisinə bizim özümüzü alçaldacaq bir ifadəni də salmamalıyıq. Burada mətnin dəqiq tərcüməsi belə olmalıdır, mən aradakı artıq hissələri otürürəm, çünki məqsəd bu ifadənin dəqiqliyini göstərməkdir: “Azərbaycan Respublikası bəyan edir ki, onun Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində Mərakeş müqaviləsinin müddəalarının həyata keçirilməsinə həmin ərazilər işğaldan azad olunanadək və işğalın nəticələri tam aradan qaldırılanadək təminat vermək imkanı yoxdur”. Yəni ki, Azərbaycanın ona görə təminat vermək imkanı yoxdur ki, bu işğal mövcuddur, yoxsa Azərbaycanın faktiki olaraq, əgər real situasiyanı nəzərə almasaq, bu nəticələri aradan götürməyə, əlbəttə ki, iqtidarı, gücü çatır. Ona görə bu qəbil mətnlərdə, düşünürəm ki, söhbət yalnız konkret bir

neçə cümləlik müqavilənin əvvəlindəki bəyanatlardan da getmir, ümumiyyətlə, Xarici İşlər Nazirliyində hazırlanan istənilən beynəlxalq səviyyəli mətnlərdə ingilis və Azərbaycan dillərinin tam autentikliyi Azərbaycan dilinin sərrastlığı, dəqiq ifadəsi nöqteyi-nəzərindən həmişə təmin edilməlidir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Səməd Seyidov.

**S.Seyidov.** Çox sağ olun, Oqtay müəllim. Tam səmimi deməliyəm ki, mən Rafael müəllimin qaldırdığı məsələ ilə tam razıyam. Doğrudan da, biz mövcud tərcümələrdə bəzi məsələləri görürük. Ancaq bir məsələni qeyd etmək istəyirəm. Hörmətli həmkarlarımda hansı isə başqa bir fikir formalaşmasın. Hər hansı tərcümə zamanı baş vermiş belə uyğunsuzluq mövcuddursa, ingilis variantı əsas götürülür. Bütün beynəlxalq sazişlərdə Birləşmiş Millətlər Təşkilatında saxlanılan ingilis variantı əsas götürülür. Autentiklik təmin edilməlidir. Hansı isə terminlər uyğun gələ bilər, hansı isə terminlər uyğun gəlməz. Rafael müəllimin dediyi məsələlər həqiqətə uyğundur. Tərcümə səlis, düzgün edilsə, Azərbaycan dilində tam öz əksini tapsa, çox gözəl olar. Biz Milli Məclisdə bu istiqamətdə dəfələrlə sözümüzü demişik ki, Xarici İşlər Nazirliyində buna ciddi fikir versinlər. Ancaq sazişin özünün mahiyyətində, özünün, belə deyək, implementasiyasında, həyata keçirilməsində ingilis variantı əsas kimi götürülür. Ona görə burada narahatlığa səbəb yoxdur. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əgər başqa təkliflər yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti, 6-cı məsələ "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədədir. Buyursun Ziyafət Əsgərov.

**Z.Əsgərov,** *Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Cənab Sədr, 6-cı məsələdən 11-ci məsələyə qədər olan qanun layihələrinin mahiyyəti, demək olar ki, bir-birinə uyğundur. İcazə versəniz, mən onları bir yerdə məruzə edərdim, səsverməni ayrıca keçirərik. 6–11-ci məsələlər bizim komitədə müzakirə olunub.

"Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklərin təklif edilməsində məqsəd məxfi məlumatların, o cümlədən dövlət sirri təşkil edən məlumatların və onların daşıyıcılarının məxfiləşdirilməsi, məxfiləşdirilmiş məlumatların, o cümlədən dövlət sirri təşkil edən məlumatların məxfiliyinin qorunması, məxfiliyin açılması qaydası və ya vəzifəli şəxsin və ya vətəndaşın dövlət sirri ilə işləməyə icazə verilməsi üçün müvafiq orqan və ya onun vəzifəli şəxsi tərəfindən təkrar yoxlama aparılmasına hüquqi əsasların yaradılmasıdır. Deməli, biz bu qanun layihəsi ilə edilən dəyişiklikləri qruplaşdırsaq, burada həm mahiyyəti üzrə, həm redaktə xarakterli, həm də texniki xarakterli dəyişikliklər var.

Mən mahiyyəti üzrə əsas bir dəyişikliyi diqqətinizə

çatdırmaq istəyirəm. Söhbət 13.3-cü maddədən gedir. Belə ki, “Məlumatın məxfilik müddəti onun məxfiləşdirildiyi gündən hesablanır. Bu müddət məxfi məlumatlar üçün 10 ildən, tam məxfi məlumatlar üçün 20 ildən, xüsusi əhəmiyyətli məlumatlar üçün 30 ildən, məxfilik dərəcəsindən asılı olmayaraq, şəxsin kəşfiyyat, əks-kəşfiyyat, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların əməkdaşı olmasını və ya bu orqanlarla konfidensial əsaslarla əməkdaşlıq edən, yaxud əməkdaşlıq etmiş şəxslərin şəxsiyyətini müəyyən etməyə imkan verən məlumatlar üçün 75 ildən çox olmamalıdır. Bu müddət müvafiq icra hakimiyyəti orqanının rəyi ilə uzadıla bilər”. Bax, bu, mahiyyəti üzrə edilən əsas dəyişiklikdir. Digər maddələrdə də dəyişikliklər var. Amma həmin dəyişikliklər mahiyyəti üzrə edilən bu dəyişiklikdən törəmə dəyişikliklərdir.

Sonra, burada “Sərhəd qoşunları haqqında” Qanuna əlavələr və dəyişikliklər nəzərdə tutulub. Hörmətli deputatlar, bildiyiniz kimi, biz 2016-cı il sentyabr ayının 26-da referendum keçirdik və Konstitusiyaya əlavələr və dəyişikliklər etdik. Bu cür əlavə və dəyişikliklər edilmiş maddələrdən biri də Azərbaycan Respublikası Konstitusiyasının 9-cu maddəsi idi. Həmin maddənin mətnində belə bir fikir var ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarətdir. Bilirsiniz ki, biz keçən il buna uyğun olaraq “Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Qanun qəbul etdik və bu Qanundan irəli gələrək artıq  müxtəlif hərbi qanunvericilik aktlarında dəyişikliklər edirik.

Qanunvericilik sistemində mövcud olan uyğunsuzluqların aradan qaldırılması məqsədi ilə “Sərhəd qoşunları haqqında” və “Azərbaycan Respublikasının dövlət sərhədi

haqqında" qanunlarda dəyişikliklər edilməsi barədə qanun layihələri müzakirənizə çıxarılmışdır. Burada respublikanın dövlət sərhədinin mühafizəsini və toxunulmazlığını təmin edən orqanları ümumiləşdirən yeni anlayışdan – "sərhəd mühafizə orqanları" ifadəsindən istifadə edilir. "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Əsasnaməsinin strukturunun və hərbi qulluqçularının və işçilərinin ümumi say tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 12 dekabr tarixli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 iyun tarixli Fərmanı əsasında Dövlət Sərhəd Xidmətinin vahid sisteminə daxil olan qurumların dairəsi müəyyən edilməklə "Sərhəd Qoşunları" və "Dövlət Sərhəd Xidməti" anlayışları fərqləndirilmişdir. Sərhəd mühafizə orqanlarının beynəlxalq əməkdaşlığı ilə bağlı məsələlər təkmilləşdirilmiş variantda təqdim edilmişdir.

9-cu maddə də yenidən işlənilmiş, dövlət sərhəd rejiminin təmin edilməsi məsələlərinin həlli və sərhəd münaqişələrinin nizamlanması üçün Azərbaycan Respublikasının sərhəd nümayəndələrinin həmsərhəd dövlətlərin sərhəd nümayəndələri ilə qarşılıqlı fəaliyyət həyata keçirməsi müəyyən edilmişdir.

Qanun layihəsinə sahil nəzarəti bölməsi ilə bağlı yeni 23-1-ci maddə əlavə olunmuşdur. Burada sahil nəzarəti bölməsinin sərhəd sularında sərhədboyu rejimə (üzmə vasitələrinin qeydiyyata alınması, onların yanalma körpülərindən dəniz və digər sututarların sularına çıxma və qayıtma qaydalarına) əməl olunmasına nəzarət müəyyən edilmiş, sahil nəzarəti bölməsinə sıra nömrəsinin verilməsi və Dövlət Sərhəd Xidməti tərəfindən müəyyən edilən istiqamətlər üzrə sahil nəzarəti bölməsinin tərkibin-

də texniki-müşahidə məntəqələrinin yaradılması göstərilmişdir.

Sərhəd mühafizə orqanlarının şəxsi heyəti və komplektləşdirilməsi ilə əlaqədar məsələlər Qanunun qüvvədə olan redaksiyasından fərqli yeni redaksiyada verilmişdir. Qanun layihəsində olduğu kimi, bu sənəddə də qeyd olunmuşdur ki, sərhəd mühafizə orqanları Azərbaycan Respublikasının dövlət büdcəsindən ayrıca maddə ilə müvafiq quruma ayrılmış vəsait hesabına maliyyələşdirilir. Həmçinin layihədə sərhəd mühafizə orqanları üçün yaşayış evlərinin, sosial-mədəni və xüsusi obyektlərin tikintisi üçün vəsaitin də ayrıca nəzərdə tutulması müəyyən edilmişdir.

Digər bir qanun layihəsi Azərbaycan Respublikasının dövlət sərhədi ilə bağlıdır. Mən artıq qeyd etdim, "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin Əsasnaməsinin, strukturunun və hərbi qulluqçularının və işçilərinin ümumi say tərkibinin təsdiq edilməsi haqqında" möhtərəm cənab Prezidentin 2012-ci il 12 dekabr tarixli Fərmanında dəyişiklik edilib. Onun 2017-ci il 5 iyun tarixli Fərmanı ilə burada da "Sərhəd Qoşunları" və "Dövlət Sərhəd Xidməti" anlayışları fərqləndirilmişdir.

"Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununda ərazi sularına verilən anlayışın qüsurlu olması səbəbindən həmin anlayışın tərkib hissəsi olan ilk abzas yenidən işlənilmişdir. O anlayış artıq sizə paylanan qanun layihəsində var, mən təkrar etmək istəmirəm.

Sərhəd mühafizə orqanları tərəfindən həyata keçirilən sahil mühafizəsi işinin keyfiyyətinin artırılması məqsədi ilə sərhədboyu zonanın, habelə dəniz sahilinə bitişik inzibati ərazi vahidlərinin ərazisində olan üzmə vasitələrinin

sərhəd mühafizə orqanlarında qeydiyyata alınması ilə bağlı prosedurlar dəqiqləşdirilmişdir. Belə ki, hazırda qüvvədə olan maddədə müvafiq prosedurlar qarışıq olduğundan yenidən işlənilmiş və göstərilmişdir ki, Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanında (Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Dövlət Dəniz Administrasiyası və Fövqəladə Hallar Nazirliyi) qeydiyyata alınmış balıqçılıq, ovçuluq, elmi tədqiqat, idman gəmiləri, mühərrikli və mühərriksiz digər üzmə vasitələri sərhədboyu zonanın, habelə dəniz sahilinə bitişik ərazi vahidlərinin ərazisində olduqda, sərhəd mühafizə orqanlarının ən yaxın bölmələrində qeydiyyata alınmalıdır.

Əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən dövlət sərhədi ilə əlaqədar xüsusi əməliyyatlar barədə müvafiq icra hakimiyyəti orqanına, yəni Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə qabaqcadan məlumat verilməsi tələbi müəyyən edilmişdir. Yeri gəlmişkən, bu qanun layihələrində də Dövlət Sərhəd Xidməti artıq müvafiq icra hakimiyyəti orqanı kimi təsbit edilmişdir.

Digər qanun layihəsi. “Mülki müdafiə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi nəzərdə tutulur. Bu Qanunda dəyişiklik edilməsi də, – mən artıq qeyd etdim, – “Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Qanunun qəbul edilməsi ilə bağlıdır. Birbaşa, konkret olaraq göstərilir ki, mülki müdafiə qüvvələrinin fəaliyyətinə ümumi nəzarəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, yəni ölkə Prezidenti həyata keçirir. Mülki müdafiə qüvvələrinin fəaliyyətinə idarədaxili nəzarəti mülki müdafiə qüvvələrinin komandanlığı və müvafiq icra hakimiyyəti orqanının

rəhbəri həyata keçirir. Eyni zamanda, prokurorluq orqanları mülki müdafiə qüvvələrində qanunların icrasına nəzarəti qanunla müəyyən edilmiş qaydada və hallarda həyata keçirirlər.

Eyni zamanda, digər iki qanunda – "Siyasi partiyalar haqqında" və "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanunlarda dəyişikliklər nəzərdə tutulur. Hər iki qanunda Azərbaycan Respublikasının Silahlı Qüvvələrində qeyri-hökumət təşkilatlarının yaradılması və fəaliyyəti qadağandır. Hesab edirəm, bu da tamamilə təbiidir. Eyni zamanda, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində siyasi partiyaların yaradılması və fəaliyyəti qadağandır. Bax, dəyişikliklərin mahiyyəti bundan ibarətdir və hesab edirəm ki, Azərbaycan ordusunun gücləndirilməsi, dövlət sirri təşkil edən məlumatların məxfiliyinin, eyni zamanda, etibarlılığının daha da təkmilləşdirilməsi və dövlət sərhədlərimizin daha mükəmməl surətdə qorunması baxımından bu cür hüquqi aktların qəbul edilməsi və təkmilləşdirilməsi olduqca vacibdir. Ona görə də sizi bu qanun layihələrinə müsbət münasibət bildirməyə dəvət edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Ziyafət müəllim. Buyursun Tahir Kərimli.

**T.Kərimli.** Təşəkkür edirəm. Hörmətli Oqtay müəllim, hörmətli deputatlar! Demək, Ziyafət müəllimin qeyd etdiyi kimi, bu, çox zəruridir, mahiyyətinə etirazım yoxdur. Mən də bütün qanun layihələrinə səs verəcəyəm. Ancaq parlament təcrübəsində iki şeyə istinad edərək bir təklif irəli sürmək istəyirəm. Bu da 7-ci və 8-ci məsələlərlə bağlıdır. Məsələlər ondan ibarətdir ki, 1990-cı illərin əvvəllərində bizim dövlət qəzetində bəzən qanunlar fərmanlardan sonra dərc olunardı. Biz rəhbərliyə müraciət

etdik və bu uyğunsuzluq aradan qalxdı, yəni qanunun üstün normativ akt olması öz təsdiqini tapdı.

Eyni zamanda, hörmətli Oqtay müəllim, 2016-cı ilin mart ayında "Kitabxana işi haqqında" Qanun müzakirə olunurdu. Orada yazılmışdı ki, bu Qanun Milli Elmlər Akademiyasının Əsasnaməsinə uyğunlaşdırmaq məqsədi daşıyır. O zaman biz yenə sizə müraciət etdik və Siz parlamentin aparatına tapşırdınız. Haqlı olaraq irad tutdunuz ki, doğrudan da, qanun necə əsasnaməyə uyğunlaşdırıla bilər? Ona görə mən bu iki təcrübədən çıxış edirəm. Qanunyaratma normasında xüsusən də qanunvericilik təşəbbüsü hüququna malik orqanlardan istərdim ki, bir qədər daha dürüst olaq. Bu nədən ibarətdir? İndi biz bu qanunu, qanuna dəyişiklikləri təsdiq edirik. Bilirik ki, 2017-ci il iyunun 5-də cənab Prezidentin müvafiq fərmanı çıxıb. Bir ildən sonra deyirik ki, "Sərhəd qoşunları haqqında", "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" qanunlarımız bu fərmana uyğun gəlmədiyinə görə, uyğunsuzluq yarandığına görə həmin qanunlarda dəyişiklik edirik. Amma görün, vəziyyət nədən ibarətdir. "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 2.6-cı maddəsində birbaşa qeyd edilir ki, fərmanlar qanuna müvafiq olmalıdır və əgər belə olarsa, qanunlar tətbiq edilir, əgər uyğunsuzluq, ziddiyyət varsa...

Eyni zamanda, Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin IV hissəsində birbaşa qeyd edilir ki, fərmanlar qanuna uyğun olmalıdır. 1 il keçib, fərmanlar tətbiq edilirsə, ya tətbiq olunmursa, o deyilənlər üçün qəbul olunub. Tətbiq olunan fərmanlar qanunlara uyğun deyil.

Ona görə mən xahiş edirəm, bunu hamı nəzərə alsın, birinci növbədə təməl müddəa kimi. Yəni fərmanlar qanunlara uyğun olmalıdır, dəyişikliklər edilməlidir. Həmişə

çalışmalıyıq ki, qanunlara dəyişiklik qəbul edək. Əgər bu problemlər, bu məsələlər vardırsa, birinci, qanunda dəyişiklik edək və ondan sonra fərmanları qəbul edəndə onların qanuna uyğunluğunu göstərək. Bu, həm prosedur baxımından, həm də adını çəkdiyim Konstitusiya Qanununa uyğunluq baxımından çox doğrudur.

Ümumiyyətlə, bu məsələyə diqqət etmək lazımdır, çünki, hörmətli Oqtay müəllim, burada da bir neçə eyni səpkidə məsələlər var. Yəni görürük, dəfələrlə olub ki, biz qanunu sərəncamlara, fərmanlara uyğunlaşdırırıq. Zəhmət çəkək, qanunda müvafiq dəyişiklik edək, o bazanı yaradaq və ondan sonra isə qanuna uyğun olaraq fərman və sərəncamlara dəyişiklik edək. Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov.** Təşəkkür edirəm. Hörmətli Sədr, 10-cu və 11-ci məsələlər bizim komitədə də müzakirə edilib və Milli Məclisin gündəliyinə təqdim olunubdur. Mən, əsasən, 11-ci məsələ ilə əlaqədar öz fikirlərimi bildirmək istəyirəm.

Mən hesab edirəm ki, "Siyasi partiyalar haqqında" Qanunun bəzi müddəalarında geniş dəyişikliklər etməyin artıq vaxtı çatıb. Bu qanun siyasi partiyaların hazırkı fəaliyyətini, digər istiqamətlərini özündə ehtiva edibdir. Lakin burada – 8-ci maddədə siyasi partiyada üzvlük haqqında məlumat, yəni göstəriş var. Bunları müəyyən hissələrə bölsək, ədalətlidir, təbii ki, bu, belə olmalıdır. Amma bəzi hissələri qeyri-müəyyəndir. Mən bunları sizin diqqətinizə çatdırmaq istəyirəm. Burada silahlı qüvvələr nəzərdə tutulur. Təbii ki, silahlı qüvvələrdə xidmət edənlər hər hansı siyasi partiyanın üzvü ola bilməz, bu, qanunda da göstərilir. İnsan hüquqları üzrə müvəkkilin (ombuds-

man) təşkilatı təsisatının texniki heyətini, məhkəmələri, hakimləri və sair çıxmaq şərti ilə, prokurorluq orqanları, daxili işlər orqanları və sair siyasi partiyaların üzvü ola bilməzlər. Lakin burada bir neçə müddəa var ki, bu, qeyri-müəyyəndir. Tutaq ki, maliyyə orqanlarının nümayəndələri. Maliyyə hüquq mühafizə orqanıdır, təhlükəsizliklə məşğuldur və yaxud da vergi, gömrük sistemində olanlar, dövlət televiziyası, dövlət mətbuat orqanlarının işçiləri. Nəzərə alsaq ki, hakimiyyətin formalaşması Azərbaycanda seçki yolu ilə həyata keçirilir, bu yolla həm partiya qaydasında, həm də fərdi qaydada namizədlər irəli sürülür, əgər partiya sədri, nümayəndəsi seçilirsə, deməli, o partiyanın ideologiyası insanlar tərəfindən dəstəklənir və ona səs verilir. Onun nümayəndəsinin hər hansı bir dövlət mətbuat orqanına rəhbərlik etməsində qəbahət nədən ibarətdir? Və yaxud da götürək ki, hakimiyyətin 2 forması var: parlamentli respublika, prezidentli respublika. Parlamentli respublikada parlament seçkiləri keçirilir, parlamentdə çoxluq təşkil edən partiya hökuməti formalaşdırır və kimi istəyirsə, təyinat verir ki, bu adam getsin; o, bitərəf, partiyanın üzvü və ya müxalifətdən ola bilər. Prezidentli respublikada Prezident seçilir, ona səlahiyyət verilir ki, bunları təyin etsin, həyata keçirsin.

Mən hesab edirəm ki, bu qanunda göstərilən müddəaların müəyyən məsələlərə, məsələn, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvlərinə nə aidiyyəti var? Siyasi partiyanın üzvü olsa, deməli, aparıb siyasi partiyaya pul verəcəklər, ya kredit ayıracaqlar? Elə müddəalar var ki, bunlar dəyişilməlidir. Hesab edirəm ki, bu sistemi də nəzərə almalıyıq.

O vaxt biz nazirliklərə, strukturlara hüquq mühafizə orqanı statusu verdik. Ziyafət müəllim də gözəl bilir, hü-

quq mühafizə orqanı statusu olanın öz anlayışı var. Yalandan biz istintaq orqanı olan hər bir təşkilata hüquq mühafizə orqanı statusu veririk. Onda biz pensiya fonduna da hüquq mühafizə orqanı statusu verməliyik, o da cərimə kəsir, müəyyən sanksiyalar verir, araşdırmalar aparır və sair. Bu yanaşma ilə biz dövlət strukturlarında, o cümlədən "Siyasi partiyalar haqqında" Qanunda sadələşdirmə işini həyata keçirməliyik. Hələ müzakirə zamanı mən o qanunla bağlı məsələni dəfələrlə burada qaldırmışam, indi yəqin ki, bunu, siyasi partiyaların hesabatlılığını payız sessiyasında təqdim edəcəyəm.

Yəni müəyyən siyasi partiyalar var ki, öz maliyyə dövriyyələri barədə aidiyyəti orqan qarşısında hesabat vermirlər. Bu, "Siyasi partiyalar haqqında" Qanunda da öz əksini tapıb. Burada qeyri-şəffaflıq ortaya çıxır. Görürsünüz ki, indi ayrı-ayrı təşkilatlar artıq öz aralarında mübarizəyə başlayıblar ki, bu qədər pul gəlib, mənimsənilib, verilməyib. Ümumilikdə, Azərbaycanda siyasi sistem haqqında pis rəy formalaşır. Ona görə hesab edirəm ki, burada hər bir siyasi partiya fəaliyyəti haqqında öz hesabatını həm ictimaiyyətə, həm də aidiyyəti strukturlara təqdim etməlidir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə.

**A.Mirzəzadə.** Təşəkkür edirəm, Oqtay müəllim. Bizə təqdim olunan qanunlar üzvü olduğum Təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində də müzakirə edilib və təklif olunan dəyişikliklər yekdilliklə dəstəklənib. Bu qanunların içərisində mən xüsusilə "Sərhəd qoşunları haqqında" və "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" qanunlarda dəyişikliklər edilməsi məsələsini qabartmaq istəyirəm. Bu gün Dövlət Sərhəd Xidməti üzərinə düşən vəzifələri yüksək səviyyədə yerinə yetirir,

dövlət sərhədlərimiz yüksək səviyyədə mühafizə olunur və tətbiq edilən yollar Azərbaycan dövlətinin nüfuzunun daim yüksəlməsinə kömək edir. Əlbəttə ki, bu qanunlardakı dəyişikliklər sərhəd xidmətinin fəaliyyətinin daha da yaxşılaşdırılmasına dəstək verəcəkdir.

Oqtay müəllim, sadəcə olaraq, bu məsələlərə aid olan və bu günlərdə cəmiyyətimizdə böyük sevinc hissi ilə qarşılanan bir xəbərə münasibətimi bildirmək istərdim. Bir neçə gün bundan əvvəl rəsmi məlumat verildi ki, Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi Ermənistan silahlı qüvvələrinin işğalından azad edilib, yəni 11 min hektar ərazi işğaldan azad edilib və Azərbaycan Silahlı Qüvvələri öz üzərinə düşən vəzifəni yerinə yetirib. Bu, sevindirici bir xəbərdir, 2 il bundan əvvəlki aprel hadisələrindən sonra Azərbaycan Silahlı Qüvvələrinin daha bir böyük qələbəsidir. Əgər aprel hadisələrində 2 min hektar ərazi işğaldan azad edilmişdisə, indi 11 min hektar ərazi geri alınıb. Kvadratkilometrə çevirəndə bu, 109 kvadratkilometr ərazidir. Dəqiq hazırlanmış hərbi plana görə cəmi 1 nəfər əsgəri şəhid verdik. Bu onu göstərir ki, Silahlı Qüvvələr bu gün Azərbaycanın ərazi bütövlüyünü təmin etmək iqtidarındadırlar.

Silahlı Qüvvələrimiz Azərbaycan dövlətçiliyinin adının daha da yüksəlməsinə öz töhfələrini verirlər. Mən Azərbaycan əsgərinə, Azərbaycan Silahlı Qüvvələrinə, onun Ali Baş Komandanı, ölkə Prezidenti cənab İlham Əliyevə öz təşəkkürümü bildirmək istəyirəm ki, Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi istiqamətində çoxlu işlər görülüb.

Günnüt kəndinin işğaldan azad edilməsi Ermənistanda siyasi bir zəlzələ effekti veribdir. Yeni hakimiyyət cəmiyyət tərəfindən ciddi tənqidə məruz qalıb. Belə ki, üzər-

lərinə götürdüyü vəzifəni, yəni Ermənistanın nəzarəti altında olan torpaqların qorunması vəzifəsini yerinə yetirməyib. Ermənistan cəmiyyəti də, yeni hökuməti də bilməlidir ki, Azərbaycan 1 kvadratmetr, hətta 1 sm ərazisinin də işğalda qalmasına heç bir zaman imkan verməyəcək. Bu gün Azərbaycanın Silahlı Qüvvələrinin yeni silahlarla təchiz edilməsi, – dünən məlumat verildi, – Belarus istehsalı olan "Polonez" taktiki raket kompleksinin Azərbaycan Silahlı Qüvvələrinə təhvil verilməsi Azərbaycanın öz suverenliyini qorumaq, ərazi bütövlüyünü təmin etmək istiqamətində ciddi iş apardığını bir daha göstərir. Azərbaycan Silahlı Qüvvələri bu gün ölkəmizin qüruru, fəxr yerimizdir. Hər bir zabitimizlə, hər bir əsgərimizlə fəxr edirik.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa.

**F.Mustafa.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Mən qısa bir qeyd edəcəyəm. Ziyafət müəllim, Siz layihəni təqdim etdiniz. Mən dəstəkləyirəm, çox yerindədir, doğrudur və Silahlı Qüvvələrdə hər hansı bir şəkildə nə ictimai təşkilatların, nə də siyasi partiyaların yaradılması, təşkilat qurulması yolverilməzdir. Silahlı Qüvvələr bizim üçün çox önəmlidir. Amma dəyişiklik etmişkən, bizim əvvəllər də qaldırdığımız bir məsələyə dəyişiklik etsəydik, hesab edirəm ki, yaxşı olardı.

Müharibənin təbliği məsələsi. Biz dəfələrlə demişik, məsələn, qeyri-hökumət təşkilatı, Qarabağ Azadlıq Təşkilatı və ya başqa təşkilat tələb edir ki, Azərbaycan müharibə yolu ilə torpaqlarını azad etməlidir, yaxud Yeni Azərbaycan Partiyasının bir üzvü, ya da bizim partiya, başqa partiya kəskin bir bəyanat verir ki, biz müharibə yolu ilə torpaqlarımızı azad etməliyik. Qanunla artıq birbaşa məsuliyyət tələb edən hallar yaranır. Bəlkə burada

ədalətsiz müharibə tələbi qoyaq? Çünki biz torpaqları işğal altında olan bir dövlətik. Ərazimizi işğaldan azad etmək üçün cəmiyyətdən müxtəlif səslər olmalıdır. Qoy, hakimiyyət desin, sülh yolu ilə edəcəyik, olsun, amma cəmiyyətdə kəskin radikal tələb səsləndirən qüvvələrin qarşısını almaq da doğru deyil. Qanunvericilik bunun qarşısını alır. O baxımdan da mən hesab edirəm ki, indi olmasa da, gələn dəfə müharibənin təbliğində ədalətli müharibə tələbi, yaxud işğal olunmuş ərazilərin azad edilməsi çağırışları istisna edilsin. Çünki burada məhdudiyyət qoyulması, məncə, siyasi partiyaların istənilən vaxt töhmət altına salınmasına, "aforoz" edilməsinə gətirib çıxara bilər. Ona görə də buna gələcəkdə baxmağınızı xahiş edərdim. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Ziyafət müəllim, qısa bir izahat verin, qurtaraq.

**Z.Əsgərov.** Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli deputat həmkarlarım! Burada 1–2 məsələ qalxdı, mən münasibət bildirmək istəyirəm. Tahir müəllimin sualı ilə bağlı. Tahir müəllim, mən Sizinlə tamamilə razıyam ki, bütün normativ hüquqi aktlar Konstitusiya və qanuna uyğunlaşdırılmalıdır. Əgər fikir verdinizsə, mən çıxışımın əvvəlində dedim ki, bu dəyişikliklər birinci növbədə edilir. Ona görə ki, biz 2016-cı il sentyabr ayının 26-da referendum keçirdik və Konstitusiyaya əlavə və dəyişikliklər etdik. O dəyişikliklərdən biri də Konstitusiyanın 9-cu maddəsinə aiddir. Əgər fikir vermisinizsə, bu maddənin əvvəlki variantında "Azərbaycan Silahlı Qüvvələri" deyiləndə ordu nəzərdə tutulurdu. Amma indi ordu Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissələrindən biridir. Ordu və digər qoşun birləşmələri Azərbaycan Silahlı Qüvvələrini təşkil edir. Yəni görün, status nə qədər dəyişdirildi

və genişləndirildi. Bu, məsələnin bir tərəfi.

İkinci bir tərəfdən, Konstitusiyaya referendum yolu ilə əlavə və dəyişikliklər edildikdən sonra cənab Prezident fərman verir və sərhəd qoşunlarının əsasnaməsini təsdiqləyir, strukturunda müəyyən dəyişikliklər edir və istər-istəməz bununla bağlı fərman verməlidir. Yəni sərhəd qoşunlarının çevik fəaliyyətini təmin etmək üçün fərman verilməlidir. Prezident özü deyə bilməz ki, biz nə vaxtsa qanun qəbul edəcəyik və bunun əsasında fərman verəcəyik. Burada söhbət qanunun fərmana uyğunlaşdırılmasından getmir, burada vəziyyət bir az başqa cürdür. Yəni Konstitusiyaya əlavələr və dəyişikliklər edilib, 9-cu maddənin statusu dəyişib, "Silahlı Qüvvələr haqqında" yeni Qanun qəbul etmişik və Prezident bunlara müvafiq olaraq fərman verib. Biz də artıq təsdiq olunmuş, hazırda Konstitusiya və qanuna uyğun qüvvədə olan fərmanın müddəalarının bir-birinə uyğunlaşması nöqteyi-nəzərindən həmin qanunlarda dəyişiklik edirik. Yəni burada mən elə bir qeyri-adi hal görmürəm. Bu, normal bir məsələdir.

Siyavuş müəllim siyasi partiyalar və qeyri-hökumət təşkilatları ilə bağlı məsələ qaldırdı. Mən digər təşkilatları deyə bilmərəm, müzakirə mövzusu deyil, amma Siyavuş müəllim, onu deyim ki, bəli, bizim hazırda olan qanunvericilik aktlarında nəzərdə tutulub ki, orduda siyasi partiyaların və qeyri-hökumət təşkilatlarının yaradılmasına yol verilmir. Amma yenə deyirəm, biz o müddəaları yazanda hələ referendum keçirib Konstitusiyanın 9-cu maddəsində dəyişiklik etməmişdik. İndi artıq söhbət bütövlükdə silahlı qüvvələrdən gedir. Ona görə də əgər biz bunu Konstitusiyada yazmışıqsa, referendum keçirib qəbul etmişiksə və buna müvafiq olaraq "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Qanun qəbul et-

mişiksə və təbii ki, bu qanunlarda da, digər qanunlarda da, dediyim "Siyasi partiyalar haqqında" və "Qeyri-hökumət təşkilatları haqqında" qanunlarda da bu məsələ öz əksini tapmalıdır. Bu, tamamilə məqsədəuyğundur.

Fazil müəllim burada məsələ qaldırdı. Fazil müəllim, 9-cu maddədə söhbət ondan gedir ki, bəli, biz sülhsevər dövlət olaraq başqa dövlətlərin ərazisinə qəsd etmək vasitəsi kimi müharibəni rədd edirik. Amma hər bir Azərbaycan vətəndaşı torpaqlarımızın azadlığı uğrunda müharibəyə çağırış edibsə, bunu heç kim qadağan etmir. Bu bizim haqqımızdır, hüququmuzdur. İstəyirsinizsə, bu gün bir də bəyan edim ki, Dağlıq Qarabağ və ona bitişik ərazilərimiz Ermənistan tərəfindən işğal olunub, əgər onlar sülh yolu ilə ərazilərimizi işğaldan azad eləməsə, Azərbaycanın haqqı var ki, Birləşmiş Millətlər Təşkilatının nizamnaməsinə və öz qanunvericiliyinə uyğun olaraq müharibə yolu ilə torpaqlarını azad etsin. Bizim işimiz haqq-ədalət işidir. Ona görə yenə deyirəm, əgər 9-cu maddəyə baxsanız, biz başqa dövlətlərin ərazisinə qəsd vasitəsi kimi müharibəni rədd edirik, amma haqq işimiz üçün, öz ərazimizin qorunması və azad edilməsi üçün buna tam hüququmuz var, bunu bizə heç kim qadağan edə bilməz. Sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Ziyafət müəllim. Xahiş edirəm, gündəliyin 6-cı məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
| --- | --- |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qəbul edildi.
Gündəliyin 7-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.
Gündəliyin 8-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.
Gündəliyin 9-cu məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.
Gündəliyin 10-cu məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.
Gündəliyin 11-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin növbəti, 12-ci məsələsi. “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Qanunda dəyişikliklər edilməsi barədə buyursun Əli Hüseynli.

**Ə.Hüseynli**. Çox sağ olun, cənab Sədr. Sizin də adını qeyd etdiyiniz qanun bu sahədə nəzarət orqanının həm səlahiyyətlərini, həm də fəaliyyət istiqamətlərini özündə ehtiva edir. Bununla yanaşı, bilirsiniz ki, bu yaxınlarda, daha dəqiq desək, 2018-ci il mayın 25-də cənab Prezi-

dentin fərmanı ilə Maliyyə Monitorinqi Xidməti publik hüquqi şəxs yaradıldı. Bu, əvvəl mövcud idi, amma indi publik hüquqi şəxs kimi, müstəqil qurum kimi fəaliyyət göstərəcək və məhz buna görə müvafiq qanuna əlavə və dəyişikliklər olunur. Dəyişikliklər də yeni yaradılan publik hüquqi şəxsin fəaliyyətini təmin etmək məqsədi daşıyır. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən**. Əgər başqa təklif yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 13-cü məsələsi gələn iclasımıza qalıb. Gündəliyin 14, 15-ci məsələləri bir zərflə daxil olub. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, eləcə də "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi haqqında qanun layihələri. Buyursun Ziyad Səmədzadə. 14-cü məsələ.

**Z.Səmədzadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Vergi Məcəlləsinin 193.3.7, 193.8-ci maddələrində aşağıdakı dəyişikliklər edilir. "10" rəqəmləri "20" rəqəmləri ilə, "14" rəqəmləri "12" rəqəmləri ilə əvəz olunur. Vergi Məcəlləsində dəyişikliklərin əsas məqsədi ölkə daxilində istehsal

olunan tütün məmulatlarına tətbiq edilən aksiz dərəcələrinin artırılmasından ibarətdir ki, bununla da istehsal olunan tütün məhsulları ilə idxal olunan tütün məhsullarına tətbiq olunan aksiz dərəcələri uyğunlaşdırılacaqdır. Millət vəkillərindən bu qanun layihəsinə səs vermələrini xahiş edərdim.

"Dövlət rüsumu haqqında" Qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi kölgə iqtisadiyyatının həcminin azaldılması və vergidən yayınma hallarının qarşısının alınması istiqamətində aparılan mübarizə tədbirləri çərçivəsində hazırlanmışdır. Araşdırmalar göstərir ki, ölkəyə idxal olunan mobil cihazların xeyli hissəsi ayrı-ayrı fiziki şəxslər tərəfindən dövlət büdcəsinə qanunla müəyyən olunmuş ödənişlər edilmədən, fərdi istehlak adı altında gətirilir və sonradan digər şəxslərə satılır. Belə şəxslərin dövlət büdcəsinə heç bir vergi ödəməməsi isə ölkəyə bu cihazları leqal şəkildə idxal edən sahibkarlar üçün bazarda əlverişsiz və qeyri-sağlam rəqabət mühitinin yaranması ilə nəticələnir. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, sahibkarlıq fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən 2017-ci il ərzində 800 min ədədə yaxın mobil cihaz rəsmi qaydada ölkəyə idxal olunmuşdur. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin məlumatına əsasən, 2017-ci il ərzində ölkədə 2,8 milyon mobil cihaz qeydiyyata alınmışdır ki, bu da rəsmi qaydada müvafiq vergilər və rüsumlar ödənilməklə idxal olunmuş mobil cihazların sayından 3,6 dəfə çoxdur. Qeyd edilən rəqəmlər onu deməyə əsas verir ki, qeyri-rəsmi bazarın ümumi bazardakı payı kifayət qədər böyükdür və bu da nəticədə iri həcmli dövriyyələrin vergilərdən yayındırılmasına, həmin sahəyə cəlb olunmuş işçilərlə qeyri-rəsmi əmək münasibətlərinin yaranmasına gətirib çıxarır.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq sağlam rəqabət mühitinin təmin edilməsi, sahibkarların fəaliyyətinin şəffaflaşdırılması məqsədi ilə ayrı-ayrı fiziki şəxslər tərəfindən ölkəyə gətirilən mobil cihazlar qeydiyyata alınarkən onları markalarından və modellərindən asılı olaraq müxtəlif məbləğlərdə dövlət rüsumunun tətbiq edilməsi təklif olunur. Ölkəyə gətirilmiş mobil cihazların aktivləşdirilməsi üçün tətbiq ediləcək rüsum dövlət büdcəsinin gəlirlərinin artmasına səbəb olacaqdır. Ona görə də millət vəkillərindən bu qanun layihəsinə də səs vermələrini xahiş edirəm.

**Sədrlik edən**. Başqa təklif yoxdursa, xahiş edirəm, gündəliyin 14-cü məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Gündəliyin 15-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

16-cı məsələ. Azərbaycan Respublikasının Əmək Mə-

cəlləsində dəyişikliklər edilməsi barədə. Buyurun, Hadi Rəcəbli.

**H.Rəcəbli**. Hörmətli Oqtay müəllim, 16-cı məsələ Əmək Məcəlləsi ilə, 17-ci məsələ sırf Təhsil Qanunu ilə bağlıdır. 16-cı məsələ Əmək Məcəlləsinə edilən dəyişikdir. Burada Əmək Məcəlləsinin 3 maddəsinə dəyişiklik edilir. Birinci, "Attestasiya olunmayan işçilər" adlı 66-cı maddəyə bir abzas əlavə olunur:

"Azərbaycan Respublikasında dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlər".

İkinci düzəliş 67-ci maddədədir. 67-ci maddəyə yeni bir yarımbənd əlavə olunur, bu da 67.2-ci bənddir:

"Azərbaycan Respublikasında dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikasiyası". Mən bunu tam oxuyub, vaxt almaq istəmirəm, yoldaşlara paylanıb, hamısının məlumatı var. Bu, yeni bir müddəadır. Burada da bir sıra məsələlər ehtiva olunub.

67.2-də dörd bölüm var. Bu dörd bölümün hər birində sertifikasiya ilə bağlı tələblər irəli sürülüb.

Üçüncü, 70-ci maddəyə edilən dəyişiklikdir. Buraya da qısaca "...dövlət ümumtəhsil müəssisələrində işləyən təhsilverənlər" fikri yenə də əlavə olunub. Beləliklə, Təhsil Qanunu ilə əlaqədar olaraq Əmək Məcəlləsində bir sıra əlavə və dəyişikliklər edirik.

17-ci maddədə isə bu məsələ daha geniş açılır. Buraya təxminən 63 dəyişiklik əlavə olunur. Mən düşünürəm ki, bu, eyni vaxtda və eyni cür müzakirə olunsa, daha faydalı olar. Bütövlükdə, mən deputat həmkarlarımı bu dəyişikliklərə səs verməyə çağırıram.

**Sədrlik edən**. Sağ olun. Fazil Mustafa.

**F.Mustafa**. Təşəkkür edirəm, Oqtay müəllim. Burada ilk dəfədir yeni "təhsilverənlər" ifadəsi verilib. Müəllim-

dən başqa kim nəzərdə tutular? Müəllim olması daha aydın deyilmi, "təhsilverənlər" ifadəsi bir qədər anlaşılmır. Ona aydınlıq gətirilərdi.

İkincisi, burada attestasiya, sertifikasiya, beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramını və başqa məsələləri müsbət dəyərləndirirəm. Hətta məktəblərdə psixoloq ştatının açılması, psixoloji xidmətin təşkilini və başqa məsələləri normal qiymətləndirirəm. Amma bizdə təhsil sisteminin bazasında böyük zəiflik var. Pedaqoji təhsilin səviyyəsi, həqiqətən də, xeyli aşağıdır və son vaxtlar bu istiqamətdə stimullaşdırma var, Təhsil Nazirliyi tərəfindən atılan müəyyən addımlar sayəsində bura yönələn insanların sayı artmağa başlayır.

Bu günlərdə siz də sosial şəbəkələrdə bir uşaq bağçasında baş verən şiddət hadisəsini izlədiniz. Bu hadisə İsraildə, Almaniyada baş versə idi, cəmiyyət yerindən oynayardı. Üstündən iki – üç gün keçib, ciddi bir açıqlama da verilmir ki, bəlkə bu, təxribatdır, bəlkə Azərbaycanda baş verməyib, amma ünvanına qədər göstərirlər. Əgər belə bir hadisə baş verirsə, demək lazımdır ki, tərbiyəçi tərəfindən uşaqlarda ciddi psixoloji sarsıntı doğuran, vəhşilik elementlərini özündə əks etdirən üsulların tətbiqi qətiyyən yolverilməzdir. Ötən dəfə də burada çıxışımda dedim ki, birinci növbədə bağçada tərbiyəçi olan adamın harada hazırlanması çox önəmlidir. Normal ailə düzəni olmayan adamların bağça, məktəb rəhbərliyinə gətirilməsi yolverilməzdir. Əgər o özü bir nəfərə tərbiyə verə bilməyibsə, ona bu boyda məktəbi necə həvalə eləmək olar?! Onlarca belə nümunə var. Axı uşaqlar bizim gələcəyimizdir, bunları özbaşına buraxa bilmərik. Biz bu qanunda dəyişiklik eləyərkən şərtləri bir az ağırlaşdırmalıyıq. Bu qurumlara götürülən insanların psixoloji

hazırlığı, hansısa testdən keçirilməsi məsələsinə baxılmalıdır. Hər adam uşaqla işləyə biləcək səviyyədə olmur.

Sizə deyim ki, Yaponiyada bütün uşaq bağçalarında müəllimlərin hamısı kişilərdir. Orada bağçaya qadın işçi götürülmür. Yəqin, yaponların öz səbəbləri var, amma ciddi araşdırma aparandan sonra belə bir qərara gəliblər ki, bağça tərbiyəsi məhz kişilərə həvalə olunmalıdır. Bəlkə biz də bu istiqamətdə sosioloji araşdırmaları ciddiyə alaraq işlər görək. Məsələn, Almaniyada bir nəfər, özü də azərbaycanlı, eyvanında uşağına hirslənmişdi. Qonşusu, sadəcə, polisə demişdi ki, yuxarıda bir az səs-küy var. Dövlət o uşağı 6 ay müddətinə qadının əlindən aldı, sonra məhkəmə yolu ilə yüz əziyyətlə uşağı ona qaytardılar, amma öhdəlik götürdü ki, bir də uşağın üstünə qışqırmayacaq. Bizdə gündəlik həyatda çığırtılar, bağırtılar, bəzən şiddət adi hallardır. Amma bağçada, – istər özəl olsun, istərsə də başqa yerlər olsun, – bunun tətbiqi yolverilməzdir. Biz bu məsələyə həssas münasibətimizi bildirməliyik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən**. Sağ olun. Azərbaycanda bağçalarda işləmək üçün texnikumlarda, eləcə də institutlarda məktəbəqədər təhsil üzrə fakültələr var. Siz deyən bir az başqa məsələdir, onun üzərində araşdırmalar gedir. Musa Quliyev.

**M.Quliyev**. Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Əmək Məcəlləsinə edilən dəyişikliklər "Təhsil haqqında" Qanuna uyğunlaşdırma məqsədini daşıyır. Heç şübhəsiz ki, biz bu dəyişikliyə səs verəcəyik, dəstəkləyəcəyik.

Eyni zamanda, hörmətli cənab Sədr, mənim 66-cı maddənin təklif olunan variantına bir təklifim var. Burada göstərilir ki, hamilə qadınların, uşağının üç yaşınadək sosial məzuniyyətdə olan qadın işçilərin attestasiyası,

yaxud sertifikasiyası keçirilmir. Amma bizim Əmək Məcəlləsində istər ata, istərsə də ana uşağının üç yaşına qədər sosial məzuniyyət götürə bilər. Ananın əmək haqqı daha yüksəkdirsə, o işləmək istəyirsə, ailə atanın sosial məzuniyyət götürməsinə qərar verir. Atanın əmək haqqı azdır, o, üç il öz hesabına sosial məzuniyyət götürür və evdə uşağına baxır. Bizim qanunda bunlar təsbit olunub. Belə olan halda isə, görünür, ataya sertifikasiyadan keçməmək izni verilmir, yalnız göstərilir ki, bu, uşağını təkbaşına böyüdən kişilərə aid edilir. Amma anası ilə, yəni həyat yoldaşı ilə birlikdə uşağını böyüdən kişilərə şamil olunmur ki, bu da Əmək Məcəlləsinin digər müddəaları ilə ziddiyyət təşkil edir. Ona görə də mən təklif edərdim ki, "uşağını təkbaşına böyüdən kişilərin" sözləri yerinə "qadınların və yaxud kişilərin" sözləri əlavə olunsun, bununla da problem öz həllini tapsın. Təşəkkür edirəm.

**Sədrlik edən**. Başqa fikir yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.37 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti, 17-ci məsələ "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyursun İsa Həbibbəyli.

**İ.Həbibbəyli,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli Oqtay müəllim, hörmətli millət vəkilləri! Bildiyiniz kimi, 2009-cu ildə qəbul olunmuş “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu uzun müddətdir ki, ölkəmizdə təhsil sisteminin hərtərəfli inkişafına, islahatların həyata keçirilməsinə tam hüquqi təminat verir. Lakin bu müddət ərzində həm dünyada, həm də ölkəmizdə təhsil sistemində bir çox dəyişikliklər baş vermişdir, yeniliklər müşahidə olunur. Diqqətinizə təqdim olunan dəyişikliklər paketi də təhsil sistemində, ölkədə və dünyada baş verən müsbət dəyişiklikləri bizim qanunvericiliyə gətirmək zərurətindən doğur. Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü ildə imzaladığı Milli təhsil strategiyasına uyğun bir çox yeniliklər məktəblərimizdə, təhsil sistemində artıq tətbiq olunur ki, bunlar da qanunvericilikdə müvafiq yerini tapmalıdır.

Təhsil qanununun 62 maddəsinə təklif edilən dəyişikliklər məhz həmin boşluqların aradan qaldırılmasına, təhsilimizin inkişafına öz töhfəsini verəcək. Gördüyünüz kimi, bu dəyişikliklər paketi 30 səhifədən ibarətdir, 62 maddəni özündə cəmləşdirir. Bunu “Təhsil haqqında” Qanuna bir növ əlavə bir qanun da adlandırmaq olar.

Mən həcmin genişliyini nəzərə alaraq sizə təqdim olunan sənəddəki dəyişiklikləri 3 qrupda birləşdirməyi məqsədəuyğun hesab eləmişəm. Birinci, redaktə və təkmilləşdirmə xarakterli dəyişikliklər. Belə dəyişikliklər, demək olar ki, bir çox maddələrdə də öz əksini tapıb. Əsas anlayışlara bir-iki söz artırmaqla, “attestasiya”, “akkreditasiya”, “akademiya”, “magistratura” kimi sözlərin anlayışı dəqiqləşdirilib.

“Təhsil sahəsində dövlət standartları” maddəsinə, eyni zamanda, 9-cu maddəyə və 19, 29, 30, 31, 37-ci maddələrin müvafiq müddəalarına da cəmi bir-iki söz artırmaqla anlayışlar dəqiq ifadə edilmiş və daha aydın şəkildə təqdim olunur. Təhsilin pillələrinə və səviyyələrinə aid 17-ci maddədə “bakalavriat”, “magistratura”, “doktorantura” sözlərinin şərhi bir qədər dəqiqləşdirilib və bu, “Ali təhsil” haqqında 22-ci maddədə də eyni şəkildə ifadə edilib.

Təhsil müəssisələrində çalışan və Azərbaycan vətəndaşı olmayan şəxslərin nisbəti məsələsinə də aydınlıq gətirilib. Təklif olunur ki, əgər təhsil müəssisələrində əcnəbi vətəndaşlığı olan və ya vətəndaşlığı olmayan şəxslər varsa, orada çalışan müəllimlərin, təhsilverənlərin əksəriyyəti Azərbaycan vətəndaşları olsun. Lakin yerli kadr yoxdursa, zərurət yaranırsa, bu nisbət dəyişilir. Məncə, bu, çox münasib bir variantdır.

Bayaq burada hörmətli Ziyafət müəllimin dediyi kimi, təklif olunan bir sıra mühüm dəyişikliklər də var ki, onları sizin diqqətinizə çatdırmağı vacib sayıram. İkinci qəbildən olan bu dəyişikliklərə “sertifikasiya” anlayışı daxildir. İndiyə qədər ümumtəhsil müəssisələrində müəllimlərin peşə səviyyəsini müyyənləşdirmək üçün attestasiya keçirilirdi. Sertifikasiya isə həm yeni anlayışdır, həm də müəllimlərin peşəkarlıq səviyyəsi ilə yanaşı, peşəyə uyğunluq səviyyəsini müəyyənləşdirməyə imkan verən bir prosedurdur. Qanunun 36-cı maddəsində sertifikasiyadan keçənlər və keçməyənlər haqqında çox dəqiq müddəalar öz əksini tapıb. Bir qədər bundan əvvəl hörmətli Hadi müəllim bu məsələyə müəyyən qədər toxundu. Mən bu barədə geniş danışmağı məqsədəuyğun hesab etmirəm.

Eyni zamanda, “Təhsil haqqında” Qanuna “Pedaqoji fəaliyyətlə məşğul olma” adlı 36-1-ci maddənin də əlavə

edilməsi təklif olunur. Burada pedaqoji fəaliyyətlə məşğul olmanın ümumi müddəaları ilə yanaşı, pedaqoji fəaliyyətlə məşğul olmaya məhdudiyyət, qadağa qoyulan hallara dair çox dəqiq müddəalar öz əksini tapmışdır və bu da həmin sahədə müəyyən tənzimləmə işlərinin aparılmasına öz layiqli töhfəsini verə bilər.

Bundan başqa, qanunun 19.1-ci maddəsi son dərəcə maraqlı bir maddədir. Bildiyiniz kimi, “Təhsil haqqında” Qanuna uyğun olaraq Azərbaycan Respublikasının məktəblərində təhsil alanlar 6 yaşından məktəbə gedə bilərlər. Lakin indiyə qədər olan qaydalara, qanunvericiliyə görə, yalnız sentyabrın 15-dək, yəni məktəb başlanana qədər 6 yaşı tamam olan uşaqlar məktəbə qəbul edilə bilirdi. Digər hallarda xüsusi istedadı, qabiliyyəti nəzərə alınaraq həmin uşaqlar müvafiq icra hakimiyyətinin müəyyən etdiyi qaydada yoxlamadan keçdikdən sonra birinci sinfə qəbul oluna bilərdilər. İndi həmin məhdudiyyət götürülür. Qanunda aydın şəkildə yazılır ki, təqvim ilinin sonuna qədər 6 yaşına çatmış uşaqların hamısı məktəbin birinci sinfinə bərabər qaydada getmək hüququna malikdirlər.

Bundan başqa, bildiyiniz kimi, “Məktəbə hazırlıq haqqında” Azərbaycan Respublikasının Qanununda məktəbə hazırlıq qruplarının fəaliyyət göstərməsinə dair müddəalar yer alıb. Məlumat üçün deyim ki, artıq 2017-ci ildən etibarən Təhsil Nazirliyi ölkəmizin məktəbəqədər təhsil müəssisələrində 5 yaşlı uşaqların məktəbəqədər hazırlıq qruplarına cəlb olunmasını təmin edir. Son məlumatlara görə, 5 yaşına çatmış uşaqların 65 faizi artıq bu hazırlıq qruplarına gedirlər. 2020-ci ilə qədər isə Təhsil Nazirliyi 5 yaşlı uşaqların 90 faizini məktəbəqədər təhsil müəssisələrindəki, yaxud təhsil müəssisələrindəki hazırlıq qruplarına cəlb etməyi bir hədəf kimi müəyyənləşdirib. Belə

olduğu halda, qanun layihəsində xüsusi istedada malik olan uşaqların yaşı çatmadığına görə, müvafiq icra hakimiyyətinin müəyyən etdiyi qaydada birinci sinfə cəlb olunması müddəasına xüsusi ehtiyac qalmır. Ona görə biz həmin maddənin ləğv olunmasını təklif edirik. Eyni zamanda, birinci sinfə gedərkən qarşıya çıxan çətinliklərdən biri də uşaqların yaşadığı ərazidəki məktəblərdə təhsil almasında yaranan problemlər idi. Ona görə həmin narazılıqları, boşluqları aradan qaldırmaq üçün ayrıca maddədə təklif edilir ki, uşaqların ibtidai siniflərə qəbulu zamanı ilk növbədə onların yaşadığı ərazidə yerləşən məktəblərə gedə bilməsi təmin olunsun. Məncə, bu da əhəmiyyətli və faydalı təkliflərdən biridir.

Bundan başqa, beynəlxalq olimpiadalarda qalib gəlmiş Azərbaycan məktəblilərinin, demək olar, əksəriyyəti Azərbaycan Respublikasının ali məktəblərinə qəbul imtahanlarında iştirak etməyib, xarici ölkələrə üz tuturlar. Bunun da əsas səbəblərindən biri ondan ibarət idi ki, mövcud qanunvericilikdə beynəlxalq olimpiadaların qaliblərinə yalnız qalib gəldiyi ixtisas üzrə Azərbaycanın ali məktəblərində müsabiqədənkənar təhsil almaq imkanı yaradılırdı. Bu zaman təhsil alanın arzusu ilə qanunvericilik ziddiyyət təşkil etdiyi üçün, demək olar ki, son illərdə beynəlxalq olimpiada qalibləri olan bir çox istedadlı gənc Azərbaycanda deyil, xarici ölkələrdə təhsil alır. Həmin o çətinliyi, boşluğu aradan qaldırmaq üçün təklif olunur ki, beynəlxalq olimpiadalarda qalib gələn şagirdlərimiz Azərbaycanın ali məktəblərində istənilən ixtisas üzrə müsabiqədənkənar təhsil almaq imkanı qazansınlar. Eyni zamanda, respublika olimpiadalarının da təhlili göstərdi ki, respublika olimpiadalarında iştirak edən, hətta üçüncü yeri tutan tələbələr 500-dən çox bal toplamaq imkanına malikdirlər.

Ona görə də ölkə üzrə respublika olimpiadalarında yüksək göstəricilər əldə edən birinci, ikinci, üçüncü yerləri qazanmış istedadlı gəncliyi də, yeni nəsli də təşviq etmək, həvəsləndirmək, stimullaşdırmaq üçün respublika olimpiadalarının qaliblərinin ölkəmizin ali məktəblərində, lakin olimpiadada qalib olduğu ixtisas üzrə müsabiqədənkənar təhsilə cəlb olunmasına şərait yaradılması ayrıca maddədə öz əksini tapır. Məncə, bu da son dərəcə böyük əhəmiyyətə malikdir. Onsuz da onların sayı çox deyil, yüksək qabiliyyətli gənclərdir və biz onları stimullaşdırmaqla, təşviq etməklə ölkəmizdə belə gənclərin sayını artırmış ola bilərik.

Başqa mühüm məsələlərdən birini də diqqətinizə çatdırmaq istəyirəm. Azərbaycanda beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil alan xeyli sayda gənc var. Yəni ölkəmizdə xarici dildə tədris aparan özəl məktəblərin sayı kifayət qədərdir. Bundan başqa, bir çox özəl ali məktəblərdə Azərbaycan qrupları ilə yanaşı, xarici dildə olan qruplar da fəaliyyət göstərir. Müşahidə olunan cəhət bundan ibarətdir ki, xüsusən xarici dillərdə təhsil verən özəl orta məktəblərin məzunları da əksər hallarda xarici ölkələrdə oxumağa meyil edirlər. Belə halda, həm bizim valyuta ehtiyatımız xaricə axır, həm də xaricdə oxuyan gənclərimizin bəzən azərbaycançılıqdan, ölkədə baş verən hadisələrdən kənarda qalmaları və bundan doğan fəsadlar da müşahidə olunur. Onları aradan qaldırmaq üçün beynəlxalq səviyyədə təhsil standartlarına uyğun təhsil verən orta məktəblərin xarici dillərdə təhsil almış məzunlarına da təhsil aldığı dildə, müvafiq icra hakimiyyətinin müəyyən etdiyi qaydada ölkəmizin ali məktəblərində müsabiqədənkənar təhsil almalarına şərait yaradılması həm pedaqoji cəhətdən, həm

dövlətçilik baxımından, həm də siyasi cəhətdən son dərəcə böyük əhəmiyyətə malikdir.

Üçüncü qrup dəyişikliklərdə biz təhsil sahəsində ödənişli xidmətlərin tənzimlənməsi, belə demək mümkünsə, sahibkarlıq elementləri olan fəaliyyətin genişləndirilməsi ilə bağlı dəyişiklikləri nəzərdə tuturuq. Əsas anlayışlarda "təhsil xidmətləri" adlı xüsusi bir anlayışın verilməsi məhz bu istiqamətdə aparılacaq fəaliyyət üçün qanunda bir açar rolunu oynayır.

Maddə 19.18-də göstərilir ki, ölkəmizdə dövlət ümumtəhsil müəssisələrində tam orta təhsil pulsuzdur. Lakin həmin o beynəlxalq səviyyəli proqramlar üzrə əlavə təhsil almaq istəyənlər ümumtəhsil məktəblərində ödənişli əsaslarla bu istiqamətdə bilik və bacarıqlar əldə edə bilərlər. Bundan başqa, bilirsiniz ki, akkreditasiyaların keçirilməsi üçün də ixtisaslar üzrə ayrı-ayrı müəssisələrdən mütəxəssislər cəlb edilirlər. Onlar bəzən işdən qalmalı olurlar. Buna vaxt sərf edilir, ona görə akkreditasiyaların aparılması işində də sahibkarlıq elementi, ödəniş elementi vardır. Bu, ancaq işin xeyrinədir. Bundan başqa, evdə uşaqların təhsili ilə məşğul olan müəllimlərin əmək haqqı dövlət tərəfindən ödənilir. Lakin dövlət proqramında nəzərdə tutulan ödənişlərdən başqa, onlara əlavə musiqi öyrətmək istəyən, əl qabiliyyətlərinə aid bilgi vermək istəyən, digər vərdişlər aşılayan, biliklər verən müəllimlərin fəaliyyətinin stimullaşdırılması da bu qanunda yeni müddəa kimi təklif olunur. Məncə, bu da böyük əhəmiyyətə malikdir.

Göründüyü kimi, redaktə xarakterli dəyişiklikləri nəzərə almasaq, təhsil qanununa təklif olunan dəyişikliklərin çoxu mahiyyətə aid dəyişikliklərdir və bunlar əhəmiyyətlidir. Ölkəmiz bundan sonra təhsil sistemində yeni

islahatlar dalğasının baş tutmasına, təkmilləşməsinə, yeni nəslin hərtərəfli inkişafına və ölkəmizin dövlətçilik maraqlarının qorunmasına təminat verə bilər. Təklif olunan dəyişikliklərə səs verməyinizi xahiş edirəm.

*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini* ***Ziyafət Əsgərov*** *sədrlik edir*

**Sədrlik edən.** Sağ olun. Vahid müəllim, sualınız var? Buyurun.

**V.Əhmədov.** Çox sağ olun, Ziyafət müəllim. İsa müəllim, Siz kifayət qədər təcrübəli adamsınız, komitə sədrisiniz, Akademiyanın vitse-prezidentisiniz və bu gün belə dəyişikliklər təklif olunur. Biz Dövlət qulluğu haqqında qanun layihəsini də eyni prizmadan qəbul etdik və insanlar müəyyən müddətdən sonra dövlət qulluğuna keçmək üçün mütləq imtahan verməlidirlər. Yəni bu, əhali arasında stresdən artıq bir şey deyil. İndi də biz guya təhsil sistemində çox ciddi islahatlar aparırıq və tələb edirik ki, müəllimlər mütləq sertifikasiyadan keçməlidirlər. Hətta elmlər namizədləri, elmlər doktorları da mütləq imtahan verib sertifikat almalıdırlar, özü də 5 il müddətinə. 5 ildən sonra o stresi bir də yaşamalı olacaqlar.

Əgər islahat budursa, əhali arasında, yəni müəllimlər, alimlər arasında stres yaratmaqdan ibarətdirsə, bu, islahat deyil. Bu sertifikatlaşdırma, ümumiyyətlə, nə ilə əlaqədardır? Nəyə görə sertifikatlaşdırma aparılmalıdır? Müəllimlər müdafiə ediblər, "elmlər namizədi" adını alıblar; müdafiə edib "elmlər doktoru" sertifikatını alıb və niyə o təzədən sertifikat almalıdır? Ümumiyyətlə, bu qanuna dəyişikliklər başa düşülən deyil. Xahiş edirəm, bu barədə

bizə məlumat verin. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sona Əliyeva. Bir azdan, ola bilsin, yenə suallar olsun, sonra, zəhmət olmasa, ümumi şəkildə cavab verərsiniz.

**S.Əliyeva.** Hörmətli Ziyafət müəllim, dəyərli həmkarlarım! Ümumilikdə, mənim təklif olunan dəyişikliklərə münasibətim çox müsbətdir və bunlar təhsil sahəsində hüquqi bazanın təkmilləşdirilməsinə, təhsilin bütün pillələri üzrə şəffaf və səmərəli fəaliyyətini qurulmasına xidmət edir. Komitədə bu dəyişikliklərin müzakirəsində bizimlə birlikdə iştirakına, həmkarlarım və mənim tərəfimdən verilən suallara, eyni zamanda, təkliflərə səbirlə və ətraflı cavab verdiyinə görə buradan Ceyhun Bayramova ayrıca təşəkkür etmək istəyirəm. Biz komitədə müzakirə zamanı bəlkə də bunu unutduq.

Mənim təklifim nədir? Bilirik ki, ölkəmizdə məktəbəqədər hazırlıq qrupları təkcə məktəbəqədər təhsil məktəblərində deyil, eyni zamanda, məktəblərdə də təşkil edirlər və Nazirlər Kabinetinin müvafiq qərarına görə bunun 2020-ci ilə qədər 98 faizədək artması gözlənilir. Hazırda bu, 65 faizə qədərdir. Yəni məktəbəqədər yaşda olan uşaqların 65 faizə qədəri məktəbə hazırlıq qruplarına cəlb olunub. Mən təklif edirəm ki, məktəbə gedən uşaqlarda olduğu kimi, məktəbə hazırlıq qruplarında da vaxt məhdudiyyəti aradan qaldırılsın. Tədris müddətinin başlanmasından təqvim ilinin sonuna qədər olan müddət nəzərdə tutulsun. Vaxt məhdudiyyəti məktəbə gedən uşaqlarla bağlı necə aradan qaldırılıbsa, eləcə də məktəbə hazırlıq qruplarına qəbul olunan uşaqlarla bağlı da aradan qaldırılsın. Bunun müvafiq hüquqi aktlarda, nizamnamələrdə nəzərə alınmasını xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hikmət Məmmədov.

**H.Məmmədov.** Çox sağ olun. Hörmətli sədarət, hörmətli millət vəkilləri! Mən düşünürəm ki, madam "Təhsil haqqında" Qanunu qəbul edirik, burada sözləri də milliləşdirməliyik. "Sertifikasiya" sözü "sertifikatlaşdırma" sözü ilə əvəz olunsa, yaxşı olar.

Burada qanunun 1-ci maddəsinin 8-ci yarımbəndində yazılır ki, "Təhsil müəssisələrində təhsil almaq hüququ verən ölkələrin". Ölkə özü cəm şəklində olduğu üçün burada cəm şəkilçisini əlavə qəbul etməyə ehtiyac yoxdur.

Başqa bir məsələ 11-ci maddə ilə bağlıdır. Burada qeyd olunur ki, "İcra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təhsilin keyfiyyət təminatının qiymətləndirilməsi". Məncə, "təhsilin keyfiyyətinin qiymətləndirilməsi" olmalıdır. Çünki təhsilin keyfiyyət təminatının qiymətləndirilməsindən danışırıqsa, bu təminata təhsil müəssisəsinə gedən yollar, təhsil, tədris müəssisəsinin həyata keçirildiyi binanın keyfiyyəti, təhsili tədris edən kadrların keyfiyyəti və sair kimi böyük bir spektr aiddir ki, biz bunu, əlbəttə, təmin edə bilmərik. Ona görə də mən düşünürəm ki, burada söhbət təhsilin keyfiyyətindən gedir.

Başqa, çox ciddi bir məsələ tədris dili ilə bağlıdır. Azərbaycanda dövlət dili Azərbaycan dilidir. Biz də yazırıq ki, Azərbaycanda digər dillərdə tədris aparıla bilər. Bax, bu digər dillər hansılardır? Bu məni çox düşündürür və hesab edirəm ki, çox təhlükəli bir şeydir. Digər dillər nə deməkdir? Bura digər dünya dilləri yazsaq, başa düşülər ki, 5 əsas dil var, tutaq ki, ispan dili, ingilis dili, rus dili, fransız dili, çin dili. Lap icazə verək ki, o dillərdə də tədris aparılsın. Ancaq "digər dillər" dedikdə, dünyada 2 mindən çox dil var, Azərbaycanda bu dillərin hamısındamı tədris aparılacaq? Biz bunu nəyə görə yazırıq? Mən, sadəcə, bilmək istəyirəm ki, bu nə deməkdir.

Ayrı, çox mühüm və təhlükəli bir məsələ var. Düşünürəm ki, buna da yenidən baxmaq və ümumiyyətlə, qanundan çıxarmaq lazımdır. 15-ci maddənin 2-ci bəndində qeyd olunur: "Təsisçiləri əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər olan təhsil müəssisələri". Demək, belə çıxır ki, biz bu şəxslərə icazə veririk ki, Azərbaycanda təhsil müəssisəsi yaratsınlar. Bax, bu nəyə lazımdır? Milli Məclisdə çox hörmət etdiyim hüquqşünaslarımız var və bilirlər ki, Azərbaycan vətəndaşı olmayan şəxslərin Azərbaycan dövləti qarşısında heç bir hüquqi öhdəliyi, heç bir vəzifəsi yoxdur. Bunlar nə üçün Azərbaycanda təhsil müəssisəsi açacaqlar? Demək, bunların məqsədləri var. Ən müxtəlif məqsədlər ola bilər. Belə bir termin var: "Qeyri-ərazi müstəmləkəçiliyi". Bax, burada söhbət ondan gedir ki, ölkə ərazi baxımından işğal olunmur, amma qeyri-ərazi baxımından işğal olunur. Yəni insanların, ölkə vətəndaşlarının beyni işğal olunur. Mən düşünürəm ki, əgər vətəndaşlığı olmayan şəxslər Azərbaycanda bu cür təhsil müəssisələri açacaqlarsa, nəticə etibarı ilə biz qlobal imperializmin qeyri-ərazi müstəmləkəçiliyinə məruz qalacağıq. Mən xahiş edirəm ki, bu məsələ, ümumiyyətlə, çıxarılsın və onlara icazə verilməsin. Bu, çox ciddi məsələdir. Əgər bunun altında başqa bir hikmət varsa, onda xahiş edirəm ki, hörmətli İsa müəllim izah versin. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən**. Hikmət müəllim, çox sağ olun, təşəkkür edirəm. Yəqin ki, qalan suallara hörmətli akademikimiz cavab verəcək. Amma mən Sizə bir şey deyim. Azərbaycanda yaşayan və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan dövləti qarşısında Konstitusiya ilə və digər qanunlarla müəyyən edilmiş hallarda və qaydada hüquqları da var,

öhdəlikləri də var. Xahiş edirəm, bu məsələni deyəndə bir az ehtiyatlı olun. İndi əgər təkid edən yoxdursa, mən İsa müəllimə söz verim. Bizim tənəffüsə iki dəqiqəmiz var.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yaxşı. Siyavuş müəllim, buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli Ziyafət müəllim. İlk növbədə, mən istəyirəm İsa müəllimi təbrik edəm. Bilirsiniz ki, İsa müəllim bu yaxınlarda Milli Elmlər Akademiyasında keçirilən seçkilərdə yenidən birinci vitse-prezident seçilibdir. Bütövlükdə kollektivə, akademiyanın rəhbərliyinə, bütün elmi katiblərə, vitse-prezidentlərə uğurlar arzulayaq. Arzu edək ki, bizim elmimizi daha da inkişaf etdirsinlər, irəli aparsınlar. Son illərdə biz bunun şahidi olmuşuq. Güman edirəm ki, bu proses davam etdiriləcək.

İsa müəllim "Təhsil haqqında" Qanuna məktəbəqədər təhsillə, peşə məktəbləri ilə bağlı bir sıra dəyişikliklər təqdim edib. Bunlar müzakirə edilibdir və səmərəsini hiss edirik. Lakin mənim xatirimdədir, Ziyafət müəllim, Siz də şahidsiniz ki, "Təhsil haqqında" Qanun qəbul olunana qədər onilliklər keçdi və bunun nəticəsi olaraq hələ bu gün də 62 dəyişiklik edirik, sabah buna bir 102 dəyişiklik də edəcəyik. Mənə elə gəlir ki, İsa müəllimin komitəsi "Təhsil haqqında" Qanunu yenidən işləməlidir.

Mən xatırlayıram ki, "Təhsil haqqında" Qanun qəbul olunanda xalqın marağından başqa bütün tərəflərin, yəni rektorların, nazirliyin, ayrı-ayrı strukturların və sair maraqları nəzərə alındı və hər qanundan, hər sistemdən, hər dövrdən bir müddəa ora daxil edildi və "Təhsil haqqında" Qanunda ümumi bir "sıyıq" yarandı. Bunun da nəticəsidir ki, məhz təhsildə olan müəyyən məsələlərlə bağlı bəzi problemlər var. Tutaq ki, bir maddədə göstərilir ki, mək-

təbəqədər təhsil almayan şəxslər ümumi orta məktəbə daxil ola bilməzlər. Məktəbəqədər təhsil müəssisələri uşaqların 20 faizini əhatə edir. Əgər belə müəssisə yoxdursa, uşaq məktəbəqədər təhsili necə alsın ki, sonra ümumi orta məktəbə daxil olsun və birinci sinifdə oxumağa başlasın? Yəni bəzi məsələlər var. Düzdür, Nazirlər Kabineti öz sərəncamı ilə buna müəyyən müddət verdi. Amma bununla yanaşı, əgər şərait tam təmin olunmayıbsa, biz bu prosesi necə həyata keçirə bilərik?

Eyni zamanda, aspirantura, doktorantura, magistratura, bakalavriat var. Bunlardan biri seçilməli, müəyyənləşdirilməlidir. Fəlsəfə üzrə doktor, doktorantura və sair sahələr yaratmışıq. Yaxud da, diplomlar verilir. İndi kim isə hansısa universitetin doktoru, professoru ola bilər. Buna bir şəhadətnamə veririk, deyirik ki, sən bütün Azərbaycanın professorusan. İndi kənd təsərrüfatı üzrə müdafiə edən Bakı Dövlət Universitetinə gəlib desin ki, mən doktor kimi, professor kimi fəaliyyət göstərirəm. Biz bir sistemi götürürüksə, bu sistem əsasında fəaliyyət qurmalıyıq. Yoxsa sosializmdən və kapitalizmdən bir az götürək, arada kim nə fikirləşsə, onu tətbiq edək, qanun tamam başqa istiqamətə yönəlsin.

Mən bir məsələyə də xüsusi toxunmaq istəyirəm, – xahiş edirəm, – İsa müəllim gələn iclaslarda Milli Məclisə bununla bağlı bir məlumat təqdim etsə, çox gözəl olar. Cənab Prezidentin sərəncamı ilə xaricdə təhsillə bağlı addımlar atılıb və 3 mindən artıq insan xaricdə təhsil alıb. Müxtəlif, ən tanınmış, ən aparıcı universitetlərə gediblər, daxil olublar. Onlardan neçə faizi qayıdıb gəlib və bu gün xalqın xidmətindədir? Məsələn, tibbi qurtaran Türkiyədə və ya başqa yerlərdədir. O, dövlətin pulu hesabına oxuyubdur. İndi isə deyir ki, burada əmək haqqı aşağıdır,

Memorialda, ya da Amerikan xəstəxanasında işləyir ki, 2 min, 3 min, 5 min, 10 min əmək haqqı alsın. Sən bu xalqın vergisi hesabına oxumusan axı, sənin təhsil haqqını bu xalqın, dövlətin vəsaiti ödəyibdir. Sən gəlib bu dövlətdə fəaliyyət göstərməlisən. Müəyyən müqavilə bağlanmalıdır, 10 il işlə, xidmət göstər, ondan sonra azadsan, hara istəyirsən, gedə bilərsən. Yaxud da mühəndislik, kənd təsərrüfatı sahələrində, başqa sahələrdə oxuyanlardan kimlər qayıdıbdır? Bəs onlara bu vəsait niyə verilirdi? Təhsil alıblar, niyə gəlib bu təhsili öz xalqının inkişafına, rifahına sərf etmirlər? O baxımdan, hesab edirəm, əgər belə bir proqram tətbiq olunsa, biz bunu təkmilləşdirib göndərməliyik ki, o insanlarla şəxsi müqavilə bağlansın, onlara sərf edilən vəsait, sərmayə öz xalqının rifahı naminə səfərbər edilsin. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Saat 4-ə qədər fasilə.

***( FASİLƏDƏN SONRA)***

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***Oqtay Əsədov** sədrlik edir*

**Sədrlik edən.** Müzakirələri davam etdiririk. Qənirə Paşayeva.

**Q.Paşayeva.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, media mənsubları! Mən də müzakirə olunan bu sənədi dəstəkləyəcəyəm. Burada bir çox önəmli və vacib məqamlar öz əksini tapıb. Amma düşünürəm ki, bəzi məsələlərlə bağlı dəqiqləşdirmələrin aparılması üçün hörmətli komitə sədrimizin aydınlıq gətirməsi çox vacibdir. Təbii ki, ən çox dəstəklədiyimiz məsələlərdən biri aylarla

danışılan bu mövzunun öz əksini tapmasıdır. Təhsil müəssisələrində psixoloji xidmətin təşkil edilməsi məsələsinin həll olunması çox vacibdir. Özəlliklə, statistik rəqəmlər əsasında uşaqlar arasında nevroz, aqressiya hallarının, intihar kimi meyillərin artması və sair bu xidmətin nə qədər vacib olduğunu bir daha ortaya qoyur. Amma mənə elə gəlir ki, bu, sadəcə uşaqlar üçün deyil, əslində məktəbin bütün kollektivi üçün vacib məsələdir. Bir az öncə Fazil müəllim də bunu vurğuladı. Ötən gündən sosial mediada, demək olar ki, bütün cəmiyyətin diqqəti yönələn məsələ bundan ibarətdir ki, əslində bir hadisə nə qədər böyük işlərə kölgə sala bilir. Özəl bir bağçada baş verən hadisədən sonra ailələrin reaksiyasına baxırıq. Dövlət bağçalarına uşaqlarını qoyan ailələr "Görəsən, orada durum nə vəziyyətdədir?" deyə sorğu edirlər. O kadrlara baxanda dəhşətə gəldik ki, bu şəxsin normal insan psixologiyası ola bilməz. O, bu vəzifədə, ümumiyyətlə, necə işləyib? Ona görə bütün təhsil müəssisələrində, təhsilin bütün pillələrində psixoloji xidmətin təşkil olunması bu layihədə öz əksini tapır. Bunun qısa zamanda reallaşması çox vacib məsələdir.

Mən ən vacib məsələlərdən olan bir mövzuya toxunmaq istəyirəm. İsa müəllim bir az öncə bu məsələyə açıqlama gətirdi. Bu, çox müzakirə olunurdu. Beynəlxalq fənn olimpiadalarının qaliblərinin ali məktəblərə müsabiqədənkənar qəbul edilməsi məsələsi ilə bağlı burada vurğulandı ki, bu, uşaqları motivasiya etmək üçün vacibdir və sair. Sonra respublika fənn olimpiadasının qaliblərinə də bu imkanların verilməsi. Biz ali məktəbə testdən əvvəl daxil olmuşuq. Yadımdadır, bizim dövrümüzdə olimpiadalara gedirdik. O zaman hər hansı bir olimpiadanın qalibinə, məsələn, kimya olimpiadasının qalibinə deyirdilər ki, biz

sənin digər imtahanları vermədən imtahandan keçmənə dəstək olarıq, amma kimyanı, doğrudan da, qazandığını sübut etməlisən. Yəni o zaman universitetə bir imtahanla daxil olmaq imkanı verirdilər. Amma həmin o fəndən ən yüksək balı toplamalıydın, çünki deyərdilər ki, sən respublika olimpiadasının qalibisənsə, kimyadan necə 3 ala bilərsən? Deməli, olimpiadanın qalibi adını doğrulda bilmirsən. Mənə elə gəlir ki, respublika fənn olimpiadasının qaliblərinin də tamamilə müsabiqədənkənar qəbul olunması məsələsi bir az müzakirə olunmalıdır. İndi İsa müəllim faktları deyər ki, bizim bu addımları atmaqda səbəbimiz odur ki, bu qədər imkan yaradırıq, onlar tamamilə müsabiqədənkənar daxil olsunlar. Amma 26.5-2-ci maddə bir daha ayrı-seçkilik yaratmaqdır:

"Beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş şərtlər yerinə yetirilməklə, təhsil aldıqları dildə tədris olunan ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunurlar". Yəni beynəlxalq olimpiada qaliblərini anladıq, onlar o qədər uğurlara imza atıblar, respublika fənn olimpiadasının qalibləridilər. Amma tədris müəssisəsində oxuyanların hamısına bu haqların verilməsi doğrudurmu? Axı, hamı beynəlxalq səviyyədə uğurlara imza atan, o dərəcədə istedadlı gəncdirmi ki, biz onların hamısına bu şansı verək? Bu, digər məktəblərlə müqayisədə nə qədər doğru olardı? Mən istərdim ki, İsa müəllim aydınlıq gətirsin. Bəlkə bizim bilmədiyimiz faktlar var? Bu məsələ sabah cəmiyyətdə fərqli bir yanaşmanı ortaya qoya bilərmi? Çünki bu, hər halda çox da birmənalı qarşılanacaq məsələ deyil.

Bir də ən vacib məsələ 18-ci maddə ilə bağlıdır:

“Məktəbə gələn uşaqlar məktəbəqədər təhsildən keçməlidirlər”. Yəni biz uşaqlar üçün bu məcburiyyəti qoymuşuq. Amma sonra maddə 18.6-da nəzərdə tutulur ki, “məktəbəqədər yaşlı uşaqları evdə tərbiyə edən ailələr üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müvafiq qaydada metodiki və diaqnostik məsləhət və əlaqələndirmə xidməti təşkil edilir”. Bu məsələni həm öhdəlik kimi qoyuruq ki, məktəbə gələnlər bu sistemdən keçməlidir, həm də deyirik ki, kim evində bunu edirsə, biz gedib onlara metodiki və diaqnostik məsləhət verməliyik. O zaman digər qanunlarımızla bunun arasında bir ziddiyyət ortaya çıxmayacaqmı? Yəni bu necə olacaq? Çünki bu, təxminən o deməkdir ki, kimsə uşağını məktəbəqədər müəssisəyə verməyib, evində tərbiyə edirsə, müvafiq icra hakimiyyəti ona müvafiq qaydada metodiki və diaqnostik məsləhət və əlaqələndirmə xidməti təşkil etməlidir. İstəyirdim ki, bu suallara aydınlıq gətirilsin.

Təbii ki, biz çox məsələləri dəstəkləyirik. Özəlliklə, 6 yaşı tamam olmamış uşaqların məktəbin 1-ci sinfinə qəbul edilməməsi məsələsi var idi. Bunun aradan qaldırılması, əgər bir uşağın istedadı varsa, o, müvafiq müsabiqələrdə özünü doğruldarsa, onun daha erkən yaşda məktəbə getmək haqqının tanınması və ya ilin sonunda 6 yaşı tamam olarsa, 1–2–3 ay güzəşt edilməsi kimi məsələlərin öz həllini tapması vacibdir. Biz dəstəkləyəcəyik. Amma İsa müəllimin bu 2 önəmli məsələyə münasibətini bilmək vacibdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Qənirə xanım, Siz əvvəl bir baxın, görün ki, bu məsələlər neçə nəfərə aid ola bilər? Deyəsən, beynəlxalq olimpiadalarda 23 nəfərdir, yerli olimpiadalarda da 230 nəfər. Yəni söhbət nədən gedir? Əgər kimya üzrə olimpiada qalibidirsə, siz deyənin tərsi

olar, o, kimyadan imtahan vermir və qalanlarından imtahan verib girə bilər. Amma Siz deyirsiniz, o olimpiada çempionudursa, deməli, gərək kimyadan mütləq imtahan versin, bunu sübut etsin. Bir dəfə sübut edib də. Yəqin İsa müəllim bunlara geniş izahat verər. Aqil Abbas.

**A.Abbas.** Təşəkkür edirəm, Oqtay müəllim. Siyavuş müəllimə təşəkkür edirəm ki, təhsil qanunları ilə bağlı çox ciddi məsələləri səsləndirdi. Mənim bircə sözüm var. Qanuna səs verəcəyik. Amma məni incidən bir məsələ var ki, desəm öldürməyəcəklər, amma deməsəm də bir az pis olaram. Birincisi, vaxtilə “mənfur” sovet təhsil sistemi var idi. Burada oturanların 90 faizi, eləcə də Oqtay müəllim, Siz də o təhsil sistemində oxumusunuz. Həmin “mənfur” sovet təhsil sistemində oxuyan Xudu Məmmədov 34 yaşında dəqiq elmlər üzrə doktor idi və İngiltərədə ingilis dilində mühazirə oxuyurdu. Heç uzağa getmirəm, Yusif Məmmədəliyevi, Cəlal Allahverdiyevi, Arif Babayevi demirəm. Söhbət fizik Arif Babayevdən gedir, elə bilərlər müğənnidən, xanəndədən danışıram. Həmin “mənfur” sovet təhsil sistemində Əhliman müəllim 1970-ci ildə ali məktəbi qurtarıb və 1977-ci ildə elmlər namizədi, sonra da elmlər doktoru olub. Rafael müəllim 1977-də qurtarıb, 1979-cu ildən elmlər namizədidir. Başqalarını deyək: Bəxtiyar müəllimin adını çəkə bilərik, burada Gövhər xanım var, həmin İsa müəllimin özü, Səməd müəllim 24 yaşından elmlər namizədidir. Onlar hamısı sovet dövründə oxuyublar. Nə qədər alim adı çəkə bilərik.

Sonra Bolonya sistemi tətbiq olundu. Çox gözəl, Allah işlərini avand etsin. Ondan sonra da təhsil haqqında qanunlar hər il dəyişir, qəbul edilir, əlavələr olunur. Siyavuş müəllim də bayaq qeyd etdi.

İndi bir nəfər mənə bir Əhliman Əmiraslanovun, ya

Fərəməz müəllimin, ya da Abel Məhərrəmovun, Misir Mərdanovun adını çəksin. Bu gündən danışıram, heç geriyə getmirəm. Daha Yusif Məmmədəliyevi demirəm, o, dahidir. Bu təhsil sisteminin başına o qədər oyun açırlar ki, ortada nə təhsil var, nə də 26 ildə bir nəfər Xudu Məmmədov, ya da Yusif Məmmədəliyev yetişdirən sistem. Bunu qoyduq qırağa. Özləri bilər.

Amma məni bir şey maraqlandırır. Oqtay müəllim, Sizdən artıq dərəcədə xahiş edirəm, orta məktəbə 1 sentyabrda gedirdik, 25 mayda da son zəng olurdu. İndi orta məktəblərdə dərslər 15 sentyabrda başlayır. Olsun. Bəs, 15 iyun nə deməkdir? Bizə istirahət vermisiniz, indi növbədənkənar gəlirik, 1-ci sinifdən 11-ci sinfə qədər oxuyanların dərsləri qurtarır, 15 iyuna qədər bunları məktəbə niyə "süründürürlər?" Bu nəyə lazımdır? İsa müəllim, bu məsələni qoyun. Xudu Məmmədov 1 sentyabrda dərsə gedib? 15 sentyabrda gedənlərdən hələ bir nəfər də Fərəməz Maqsudov və ya siz çıxmamısınız. Bu nə deməkdir? Uşaqlar yüklənir.

İkinci də, bütün qəzetlər yazır, bütün ictimaiyyət, valideynlər deyir ki, 1-ci sinfə gedən uşağın çantasının çəkisi 6 kiloqram 800 qramdır. Bunlar ağırlıqqaldıran idmançı yetişdirəcəklər? Belə şey olarmı? Biz də oxumuşuq. 3 dənə kitabımız, 2 dənə dəftərimiz olardı. Oqtay müəllim, çox xahiş edirəm, burada bizim hörmətli İsa müəllim oturub, bu məsələni qaldırın ki, bu nə deməkdir?

Dərslər nəyə görə sentyabrın 15-də başlayır? 1 sentyabr – bilik günü, yaxşı, ruslara görə imiş, olsun. Amma 15 iyun nə deməkdir? Uşaqlara bu yayın istisində niyə əzab verirlər? Nəyi öyrədirlər? Dərslər qurtarıb, məktəbə gedib-gəlirlər. Çox xahiş edirəm, Oqtay müəllim, Siz də alim ailəsindənsiniz. Bu məsələni qaldırsınlar ki, yoluna qoyulsun.

Bir də, 1-ci sinif şagirdləri məktəbə ona görə dədəsi ilə, ya nənəsi ilə, ya anası ilə gedir ki, 7 kiloqramlıq çantanı o uşaqlara versən, belləri qırılacaq. Mənim sözüm bu idi. Xahiş edirəm, Oqtay müəllim, İsa müəllim buradadır, komitədə bu məsələ ilə məşğul olsun. Məktəblilərin dərs ləvazimatı ilə yüklənməsi, bir də 15 iyun məsələsini yığışdırsınlar. İndi yeni nazir gəlib, Allah işini avand etsin. Bəlkə deyəcək ki, dərslərin vaxtını iyunun 30-na qədər uzadaq. Deməli, elə də olacaq? Təhsil nazirlərin, ya kimlərinsə sözü ilə olmamalıdır ki... Bu boyda akademiya, elmi tədqiqat institutları var. Burada da təxminən 30–40 alim var, özü də tanınmış, Azərbaycan elminə töhfələr vermiş alimlərdir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Yəqin İsa müəllim indi Sizə cavab verəcək. 15 iyun məsələsi 15 sentyabr məsələsinin bir tərəfidir. Sentyabrın 1-dən sentyabrın 15-nə, yəni 15 gün qabağa çəkilib. Yəqin ki, bu, təhsil proqramına aid məsələdir. O ki qaldı alimlərin məsələsinə, alimlər həmişə olub bizdə, yenə də var. Yəqin cavan alimləri hələ yaxşı tanımırsınız. Səsləri bir azdan çıxacaq. Ona görə narahat olmayın. Elşad Həsənov.

**E.Həsənov.** Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Bu gün müzakirə etdiyimiz "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər həm say, həm də məzmun baxımından əsaslı xarakter daşıyır. Təklif edilən bu dəyişikliklər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında nəzərdə tutulan hədəflərə nail olunması və müasir təhsil sisteminin formalaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi ilə əlaqədar normativ hüquqi bazanın təkmilləşdiril-

məsi məqsədi daşıyır. Bir sözlə, təhsil sahəsində davamlı islahatlara ehtiyac var və bu islahatlar təhsilimizi keyfiyyətcə yeni səviyyəyə çıxarmaq üçün həyata keçirilir. Keyfiyyətli təhsil cəmiyyətin tərəqqisinə təkan verən əsas amillərdən biridir. Dəyişikliklərə gəlincə, onların bəzilərinə dair qısaca olaraq öz fikirlərimi söyləmək istərdim.

Qanuna düzəlişlərlə yanaşı, yeni maddələr də əlavə olunur. Onlardan biri də 14.20-ci maddədir. Burada söhbət təhsil müəssisələrində psixoloji xidmətin təşkilindən gedir. Psixoloji xidmətin təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Zənnimcə, bu əlavə indiki dövrdə kifayət qədər aktualdır. Məlum olduğu kimi, son zamanlar imtahanlar ərəfəsində şagird, abituriyent və tələbələrin stres keçirdiyi barədə mediada məlumatlar yayılır. Bu cür hallar sırf psixoloji amildən qaynaqlanır və təhsil ocağında psixoloji xidmətin təşkili bu halların qarşısını almağa yardım edəcək.

Qanun layihəsində diqqət çəkən digər dəyişiklik, başqa bir əlavə ibtidai təhsil yaşı ilə bağlı olan 19.11-ci maddədir. Təklif olunan əlavəyə görə, valideynlərin müraciəti ilə hər təqvim ilinin sonunadək 6 yaşı tamam olan uşaqlar məktəbə qəbul edilirlər. Zənnimcə, bu, çox mühüm bir əlavədir. Belə ki,  artıq təhsil ilinin əvvəlinə qədər 6 yaşı tamam olmayan, lakin təqvim ilinin sonunadək 6 yaşı tamam olan uşaqlar barədə uzun zaman davam etmiş mübahisələrə son qoyulacaq.

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununda təklif edilən digər dəyişiklik pedaqoji fəaliyyətlə məşğul olmaqla əlaqədardır. Burada hansı şəxslərin pedaqoji fəaliyyətlə məşğul ola biləcəyi və ya hansı şəxslərin məşğul ola bilməyəcəyi də təsbit edilib. Müvafiq maddədə bu kateqoriyaya aid edilən şəxslər dəqiq sadalanır.

“Təhsil haqqında” Azərbaycan Respublikası Qanununda təklif olunan digər dəyişikliklər bu istiqamətdə islahatlara münbit zəmin yaratmaq və təhsilin keyfiyyətini təmin etmək məqsədi daşıyır. Bütün bunları sadalamaqla bu gün müzakirə etdiyimiz layihəni təkmilləşdirilmiş və bütün yenilikləri nəzərə alan dolğun bir sənəd adlandırmaq olar. Bu təşəbbüsün Azərbaycan təhsilinin inkişafına yeni töhfə verəcəyinə inanıram. Bütün bunları nəzərə alaraq, həmkarlarımdan bu qanun layihəsini dəstəkləməyi xahiş edirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Asim Mollazadə

**A.Mollazadə.** Çox sağ olun, cənab Sədr. Hörmətli millət vəkilləri, Azərbaycan Prezidenti təhsilinin inkişafı üzrə Dövlət Strategiyasını müəyyənləşdirdikdən sonra ölkədə təhsil sahəsində bir sıra müsbət dəyişikliklər və inkişaf göz qabağındadır. Bu strategiyanı həyata keçirmək üçün, təbii ki, qanunvericilik bazasında da müvafiq dəyişikliklər zəruridir. Təklif olunan dəyişikliklərin əksəriyyəti məhz buna xidmət edir. Mən redaktə xarakterli dəyişikliklərə toxunmayacağam. Amma prinsipial olaraq sertifikatlaşdırma məsələsini müsbət bir addım kimi qiymətləndirirəm. Bu gün bizim orta məktəblərdə tədris prosesini daha da təkmilləşdirmək üçün bunu etməliyik. Mənə elə gəlir ki, bu istiqamətdə 5 illik müddət də düzgün seçilib. 5 il ərzində müəyyən yeniliklər baş verir və bu yeniliklərə hazır olmaq üçün müəllimlərin səviyyəsinə nəzarət edilməlidir. Onun üçün mən bu təklifi müsbət qiymətləndirirəm.

Bununla yanaşı, uşaqların yaşı 6-dan çox olanda valideynlər üçün problemlər yaradılırdı. 6 yaş 3 aylıq uşağı, ya da 6 yaş 8 aylıq uşağı məktəbə qəbul etmirdilər. Mənə elə gəlir ki, biz bu dəyişikliklərlə bir sıra xoşagəlməz məqamlardan qurtuluruq, eyni zamanda, valideynlərin

problemlərinin həllini tapırıq. Bu, çox müsbət haldır. Lakin bir şeyi xatırlatmaq istəyirəm ki, Azərbaycanda tələbə qəbulunda belə qərar verilmişdi və bu, cəmiyyət tərəfindən müsbət qəbul edilmişdi.

Hörmətli Aqil müəllim sovet təhsil sistemini çox tərifləyirdi. Amma bizim universitetlərə qəbul sahəsində çoxsaylı xoşagəlməz və korrupsiya ilə bağlı hallar var idi. Bunu Azərbaycanda hamı bilir. Məhz ona görə də tələbə qəbulu imkan verdi ki, bir sıra aztəminatlı ailələrin istedadlı uşaqları universitetlərə, ali təhsil müəssisələrinə daxil olmaq imkanı qazansınlar. Bu, çox müsbət bir prosesdir. Kimin ki təhsilini ödəməyə imkanı var, onların uşaqları həmişə oxumaq üçün şans qazana bilərlər. Amma aztəminatlı ailələrin ödənişsiz ali təhsil almaları, mənə elə gəlir ki, Azərbaycan dövlətinin xalqımız üçün verdiyi çox mühüm bir qərardır. Bu qərardan yan keçməyi düzgün hesab eləmirəm.

Oqtay müəllim də bunu qeyd etdi, beynəlxalq olimpiadaların 23–26 qalibi var. Bəlkə bu istisna normal olardı. Yerli respublika səviyyəli olimpiadalar 200 rəqəmi ilə məhdudlaşmayacaq. Müvafiq icra orqanı bu olimpiadaların sayını artıracaq və görəcəyik ki, artıq minə yaxın uşaq var, deyəcəklər ki, artıq ikinci, üçüncü yeri alan da gəlsin. Bu qərarı mən düzgün hesab etmirəm və ona görə də bu bəndi çıxarmağa ehtiyac var. Qənirə xanım qeyd etdi, mən istərdim, beynəlxalq səviyyədə akkreditasiya məsələsinə də yenidən baxaq. Bu məsələni dəyişikliklər paketindən çıxarsaq, daha düzgün olardı. Ümumiyyətlə, hesab edirəm, "Təhsil haqqında" Qanunu təkmilləşdirməyə yönələn təkliflər verilib və bu təkliflər paketini dediyim istisnalarla qəbul etmək düzgün olardı.

Mən bir şeyi də xatırlatmaq istərdim. Aqil müəllim

hörmətli insanların adlarını çəkdi, o şəxslərin əksəriyyəti böyük imperiyanın ən əsas universitetlərinin və elmi mərkəzlərinin məzunları idi. Onlar, çox təəssüf ki, Azərbaycanda deyil, məhz imperiyanın ən əsas elmi mərkəzlərində yetişmişdilər. Çox istərdim ki, bu mərkəzlər Azərbaycan müstəqil dövlətində daha da yetişsin və güclənsin. Bunun üçün biz təhsil sistemində müvafiq islahatları həyata keçirməliyik və Azərbaycan elmini gücləndirməliyik. Çox sağ olun.

**Sədrlik edən**. Çox sağ olun. Asim müəllim, mən Sizinlə bir məsələ ilə bağlı razı deyiləm. Sözünüzdən belə çıxır, gəlin, Azərbaycanda olimpiada sistemini ləğv eləyək, o bizə nə verəcək? Olimpiadada iştirak edənləri həvəsləndirmək üçün nə etməlisən? Heç 1 faiz təşkil eləmir. Bu insanlara xaricdə ixtisas verilir, insanları hazırlayırlar. Kimya üzrə mütəxəssisdir, bəlkə bu adam böyük kimyaçı olacaq? Olimpiadada qalib gəlir, niyə kənarda qoymalıyıq? Niyə beynəlxalq olimpiadanı qəbul edirik, özümüzə inamı itiririk? Yəqin İsa müəllim bunlara izahat verəcək. Çingiz Qənizadə.

**Ç.Qənizadə**. Cənab Sədr, mən də bu qanunu hazırlayanlara təşəkkür etmək istəyirəm, xeyli zəhmət çəkiblər, amma, təbii ki, burada millət vəkillərinin bir çoxunun bu məsələ ilə bağlı müəyyən təklifləri var. Mən də qeyd etmək istəyirəm ki, xüsusilə "Ümumi təhsil" bölümündə, 19-cu maddədə təqvim ilinin sonuna qədər 6 yaşlı uşaqların məktəbə götürülməsi təqdirəlayiq haldır. Çünki məhz bu məsələ ilə bağlı çoxlu neqativ, xoşagəlməz hallar baş verirdi, valideynlər əziyyət çəkirdi, müxtəlif yollarla yarım ay, bir ay məsələsinə görə kimlərinsə qapısını döyürdü. Bunu alqışlamaq lazımdır.

Bir şeyi qeyd etmək istəyirəm. "Təhsil prosesinin işti-

rakçıları" adlı 31-ci maddədə tərbiyəçilər də təhsil prosesinin iştirakçıları sırasındadırlar. Elə yeri gəlmişkən, qeyd edim ki, burada "tyutorlar" ifadəsi mənə çatmadı, bilmirəm, bunun Azərbaycan dilinə nə aidiyyəti var, o da təhsil prosesinin iştirakçıları sırasında gedir.

Mən tərbiyəçilərlə bağlı xüsusi qeyd etmək istəyirəm. Dünən sosial şəbəkədə, yəqin ki, hamımız bağçada tərbiyəçi tərəfindən uşaqlara şiddət göstərilməsinə, döyülməsinə, fiziki zorakılıq göstərilməsinə baxdıq. Maraqlı olan budur ki, bu günə qədər Təhsil Nazirliyinin bir açıqlaması var və qeyd edir ki, bu bağçanın bizə nə səlahiyyət baxımından, nə də rəsmi şəkildə bağlılığı yoxdur. Deməli, özəl bağçalarda kimi istəyirsən, işə götürmək olar, amma dövlət orqanlarının bura nəzarəti yoxdur. Bu, bir boşluqdur, bunu doldurmalıyıq. İnsanlar pul verir, övladlarını etibar edir, biz orada nə baş verdiyini gördük. 5 gündə azı 15–20 nəfər körpə uşağın döyülməsi, cəzalandırılması faktı var idi. Ona görə biz bununla bağlı mütləq müəyyən standartlar qəbul etməliyik. Mən bilmirəm, bu, "Təhsil haqqında" Qanuna uyğundursa və tərbiyəçi də təhsil prosesinin iştirakçısıdırsa, o zaman biz bağçada da tərbiyəçilərin fəaliyyətini hansısa bir qanunla tənzimləməliyik.

Başqa bir şeyi deyim. Xüsusilə hüquqi məsələlərdir. 36-1-ci maddədə pedaqoji fəaliyyətlə məşğul olma qeyd olunur. Məhz 36-1.1-ci maddədə yazılır: "...müvafiq ixtisas üzrə pedaqoji təhsilə malik olanlar, həmçinin müvafiq ixtisas üzrə pedaqoji təhsili olmayan ali təhsilli mütəxəssislər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada pedaqoji fəaliyyətlə məşğul ola bilərlər". Bu nə deməkdir? Biri elektrik, digəri avtomobil mühəndisidir, hansısa müvafiq icra hakimiyyəti ona pedaqoji fəaliyyətlə məşğul olmaq üçün icazə verəcək. Biz nə yara-

dırıq? Kimlərəsə iş yeri və ya kimləri isə hansısa yollarla işə qəbul etmək üçün özümüzə şans yaradırıq? Bu, müvafiq icra hakimiyyəti orqanına lazım olan bənddir. Bayaq qeyd olundu ki, təhsillə bağlı qanunda biz daha çox xalqı düşünməliyik. Yəni insanlar pedaqoji fəaliyyətlə məşğul olmaq üçün təhsil alırlar, pedaqoji institutları, ali məktəbləri bitirirlər. Amma burada, məhz 36-1.1-də deyilir ki, pedaqoji təhsili olmayanlar da müvafiq icra hakimiyyətinin razılığı ilə bununla məşğul ola bilərlər. Mən bunun qəti əleyhinəyəm.

Digər bir maddədə, 36-1.2.1-də qeyd olunur ki, "məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilənlər". Çox düzgündür. Bu, ikinci cəza növüdür, məhkəmə hökm çıxararkən əlavə cəza növü kimi insanlara hansısa fəaliyyət növü ilə məşğul olmağı qadağan eləyə bilər və bunların pedaqoji fəaliyyətlə məşğul olması qadağandır. Amma onun ardınca 36-1.2.2-də yazılır ki, "ağır, xüsusilə ağır cinayət törətməsinə görə məhkumluğu üstündən götürülməmiş və ya ödənilməmiş şəxslər". Əvvəla, məhkumluq Cinayət Məcəlləsinin 83-cü maddəsindədir, orada "üstündən götürülmüş" ifadəsi yoxdur. Yazılıb ki, "ödənilmiş və məhkumluğu götürülmüş". Yəni "üstündən" sözü artıqdır. Ümumiyyətlə, mən qeyd etmək istəyirəm ki, bu maddənin özü artıqdır. Tutaq ki, bir şəxsin pedaqoji təhsili olub, hansısa bir idarəyə, müəssisəyə göndəriblər. Mənimsəmə ilə bağlı ağır cinayət törədib. Bunun ikinci cəza növü, yəni pedaqoji fəaliyyətlə məşğul olmasının qadağan edilməsi barədə məhkəmə hökmü də yoxdur. 5–6 il keçib, niyə gedib sıravi müəllim işləməsin? Mən, ümumiyyətlə, bu maddənin götürülməsini, yaxud götürülməyəcəksə, ən azı "üstündən götürülməsi" sözünün çıxarılmasını və 83-cü

maddədə yazıldığı kimi “məhkumluğun ödənilməsi və ya götürülməsi” kimi qeyd olunmasını istəyərdim.

Yeri gəlmişkən, bir şeyi də qeyd edim. Keçən dəfə də hansısa qanunun müzakirəsində dedim, ümumiyyətlə, istəyirəm, həmkarlarım da bilsin, Cinayət Məcəlləsinin “Məhkumluq” adlanan 83.6-cı maddəsində birbaşa göstəriş var: “Məhkumluğun ödənilməsi və ya götürülməsi məhkumluqla bağlı olan bütün hüquqi nəticələri ləğv edir”. Yəni insan ömrü boyu boyunduruqda gəzə bilməz. Qanun deyir ki, əməlin olub, məhkumluğu çəkmisən, artıq azadsan. Amma pedaqoji fəaliyyətə nə ehtiyac var, xüsusi xidmət orqanı deyil, məxfi məlumatlara malik deyil, yenə də ağır olan və ya olmayan cinayətlər olsa və sair. Mən bunların da götürülməsinin tərəfdarıyam və hesab edirəm, bunlara baxmaq lazımdır.

Ümumiyyətlə, “Təhsil haqqında” Qanuna, təbii ki, ehtiyac var. Bu Qanun mükəmməl olmalı, bəlkə də yenidən işlənilməlidir. İsa müəllimin rəhbərliyi ilə burada çalışan insanlar tərəfindən çox əziyyət çəkilib.

Xaricdə təhsil alıb gəlmiş şəxslərin dövlət qulluğuna qəbulu ilə bağlı, yenə deyim ki, dövlət orqanları tərəfindən, yəni dövlət tərəfindən göndərilmiş şəxslər təhsil alıb gəldikdən sonra imtahansız işə qəbul olunurlar, şəxsi vəsaitləri hesabına xaricdə təhsil alıb gələnlər isə imtahan verirlər. Burada ədalətlilik prinsipi bir balaca pozulub. Biz hələ bilmirik ki, dövlətin göndərdiyi insanlar, yaxud öz vəsaitləri hesabına oxuyanlar orada necə təhsil alıblar. Mənə müraciət olub ki, orta məktəbi də, ali məktəbi də xaricdə bitirib, amma dövlət tərəfindən getməyibsə, bu gün o, Azərbaycanda işlə təmin oluna bilmir. Bunlara gələcəkdə baxmağa ehtiyac var. Təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun. Məlahət İbrahimqızı.

**M.İbrahimqızı**. Çox sağ olun, cənab Sədr, təşəkkür edirəm. Mən də öz fikirlərimi ulu öndərimizin təhsillə bağlı dediyi sözlərlə ifadə etmək istəyirəm ki, həqiqətən də, təhsil millətin gələcəyidir. Bu gün biz təhsillə bağlı hansısa qanunu müzakirə edəndə, həqiqətən, ona milli məsələ kimi yanaşırıq. Bu mənada biz, Siyavuş müəllimin dediyi kimi, hər bir dəyişikliyə, düzəlişə, təklifə xalqın marağından, millətin gələcəyi baxımından yanaşmalıyıq. Mənim də burada səslənən bəzi məsələlərlə bağlı fikirlərim var.

İlk olaraq onu demək istəyirəm ki, "Təhsil haqqında" Qanunumuz, ümumiyyətlə, təhsillə bağlı nə qədər qanunlarımız var. Onların hamısı Təhsil Məcəlləsi formasında yenidən hazırlansa, daha məqsədəuyğun olar. Çünki biz ötən dövr ərzində təhsildə o qədər böyük nailiyyətlər əldə etmişik və eyni zamanda, o qədər inkişaf var ki, bir çox məsələlər bu standarta uyğun gəlmir. Bayaq olimpiada ilə bağlı Qənirə xanım da, bəzi digər həmkarlarım da fikirlərini səsləndirdilər. Bu yaxınlarda, daha doğrusu, bir neçə ay bundan qabaq "Çağ öyretim" şirkətinin olimpiadada nailiyyətləri ilə bağlı statistika məlumatı verilmişdi. Məlum olmuşdu ki, dünyanın bütün ölkələr arasında bu şirkət, bu təhsil sistemi olimpiadada qazanılan nailiyyətlərinə görə ən birinci yerdədir. Sonra məlum olmuşdu və araşdırmanın nəticəsi kimi verilmişdi ki, həmin beynəlxalq olimpiya komitəsi məhz o şirkətin özünün, yəni onun baş qərargahının qurduğu şirkətdir. Çünki dünyada Birləşmiş Millətlər Təşkilatının və ya hansısa təşkilatın qəbul etdiyi "olimpiada komitəsi" deyilən, hansısa bir qurum yoxdur. BMT-nin təhsillə bağlı yeganə qurumu YUNESKO-dur, onu da hamı tanıyır. Yəni bu mənada olimpiadada əldə edilən nailiyyətlərə görə kiminsə qəbul

imtahanından azad olunması, hesab edirəm ki, o qədər də məqsədə xidmət etmiş olmayacaq. Sovet vaxtında olimpiadada yer tutanların qazandığı bal güzəşt kimi qəbul olunurdu. Amma tamamilə azad olunma məsələsi yox idi. Bu mənada olimpiada məsələsinə yenidən baxmağı xahiş edirəm. Avropa ölkələrində – Avstriyada, Almaniyada, Fransada və ya Amerikada bu cür nümunələr yoxdursa, belə çətin zamanda, yeni keçid dövründə, yeni təhsilimizdə böyük uğurlar qazanmağa doğru getdiyimiz bir vaxtda yenidən hansısa barmaq yeri, əl yeri qoymaq, hesab edirəm ki, o qədər də yaxşı olmazdı.

Bu yaxınlarda Nəsimi rayonunda təhsillə bağlı keçirilən tədbirdə bizim hörmətli millət vəkilimiz Hikmət müəllim də iştirak edirdi, təhsil işçiləri şəxsən mənə şagirdlərin məktəbə telefon gətirməsi ilə bağlı müraciət etdilər. Çünki Avropada da, Türkiyədə də uşaqlara telefondan istifadə ilə bağlı ciddi qadağalar var və məktəblilərdən telefonlar alınır, xüsusi operator otağı var və oradan uşaqlar valideynlərlə təmasda ola bilirlər. Bu gün şagirdlər internetdən yaşlarına uyğun olmayan hədsiz və lazımsız informasiyalar əldə edirlər. Onların arasında, hətta Rusiyanın özündə belə çox ciddi intihar hadisələri və digər neqativ hallar artıb. Ona görə gələcəkdə bu məsələ də təhsil qanununda öz əksini tapsa, daha yaxşı olar.

Nəhayət, axırıncı təklifim birinci sinfə qəbulla bağlıdır. Hər məktəbin özünün bir qaydası var. Uşağın 6–7 yaşı varsa, məktəbə getməlidir, işə getməməlidir. Amma hər məktəbin özünün Təhsil Nazirliyinin standartından kənar standartı var. Adını çəkmək istəmirəm, mən özüm şəxsən o direktorla da danışdım, birinci sinfə daxil olan uşaqlara elə qəribə suallar verir ki, “Sən doğulduğun ay hansı fəslə düşürdü?” 6 yaşında uşaq bəlkə də o haqda düşünmür,

validedeyn də belə bir sual veriləcəyini gözləmir. Ona görə bu məsələlərə həssaslıqla yanaşmalıyıq. Elə olmasın ki, düzəlişlərimiz, dəyişikliklərimiz qanundan daha çox olsun. Belə dəyişikliklərin müzakirəsində ölkəmizin ən tanınmış təhsil işçiləri, təhsil ekspertləri, təhsil təşkilatları da iştirak etsə idi, fikirlərini desə idi, yaxşı olardı. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən**. Məlahət xanım, yaxşı ki, mənimlə birgə deputat olmusunuz. Bu təhsil qanununu 15 il qəbul edə bilmirdilər. İndi birtəhər bu qanunu qəbul elədik, yenidən düzəlişlər edək? Hər şeyi təzədən işləmək olmur axı. Onda gəlin, Cinayət Məcəlləsini, o biri məcəllələri də yenidən işləməyə başlayaq. Elşən Musayev.

**E.Musayev**. Təşəkkür edirəm. Cənab Sədr, hörmətli millət vəkilləri, hörmətli media mənsubları! İlk öncə, cənab Sədr, Sizin bir az öncə söylədiyiniz fikrə mən də dəstək vermək istəyirəm. Həqiqətən, təhsil qanunu 15 ildə o qədər müzakirə edilib, bəzən o qədər təftiş olunub ki, bəlkə də ona görə biz danışarkən müəyyən qədər haşiyə çıxmalı oluruq və hərə öz ürəyindəkini deyir, çünki deyilməli sözlər, doğrudan, çoxdur. Amma ulu öndər Heydər Əliyev də, cənab Prezident İlham Əliyev də hər zaman vurğulayıblar ki, Azərbaycanın ən böyük sərvəti məhz əqli sərvətdir, yəni təhsilli gənclərdir, təhsilli insanlardır. Biz son təyinatlarda da gördük ki, məhz Azərbaycanın təhsil bölümünə üstünlük verdilər və hətta Nazirlər Kabinetində ən təhsilli insanlar təmsil olundular.

Mən, əslində çıxış etməyəcəkdim. Çıxışımın səbəbi çox dəyərli həmkarım Aqil Abbasın söylədikləri oldu. Çünki o, mənim üçün də maraqlı olan məqamlara toxundu. Yəqin ki, Milli Məclisdə çox az sayda insan var ki, onun övladı azyaşlı olsun, ibtidai sinfə getsin. Mən də həmin

kateqoriyadanam, ona görə Aqil müəllim danışarkən sanki mənim həyatımdan da bəhs etdi. Bir daha təkrar etmək istəyirəm, bəlkə predmetdən uzaq danışıram, amma mən bunları səsləndirməliyəm. Bu gün təhsil bazasında, əsasən də, ibtidai siniflərlə bağlı çox böyük dəyişikliyə ehtiyac var. Yuxarı siniflərlə bağlı xüsusi irad bildirmək istəmirəm. Mən, həqiqətən, hər gün öz övladımın çantasını məktəbə özüm aparıram, çünki əks halda, onun üçün xüsusi adam tutmaq lazımdır ki, çantanı aparsın, düşürsün, yaxud da maşına qədər götürsün. Bu, çox ağır bir prosesdir. İldən-ilə əlavə dərsliklərin saylı artır. Bunları kim təyin edir, bilinmir. DİM-in ayrı, Təhsil Nazirliyinin ayrı dərsliyi var, xüsusi, özəl, ayrı dərsliklər var. Mən belə başa düşürəm ki, kimin bu dərsliklərə rəy verən müəyyən insanlara çıxışı varsa, müəlliflik edib kitab yazır, sonradan məktəb direktorları ilə danışıb həmin kitabları məktəblərə paylayır.

Biz uzun müddət fond pullarından danışırdıq və təhsil naziri də dəfələrlə deyib ki, fond pulu yığışdırılıb. Amma biz bunun şahidi deyilik. Mən bir valideyn kimi demək istəyirəm ki, fond pulları bu gün qalır, əsasən də, Azərbaycanın şəhər məktəblərində yığılır. Buna nəzarət eləyən kimdir? Biz qanun qəbul ediriksə və bu qanunlara riayət olunmayacaqsa, o zaman niyə səsimizi qaldırmırıq? Bir çox problemlər var, onları, sadəcə, səsləndirmək istəmirəm.

Sizə bir fakt deyim. Mən öz fikirlərimi, ümumiyyətlə, çalışmışam ki, parlamentdə çox səsləndirməyim, məhdud bir dairədə müzakirə eləyim. Elə bura gəlməmişdən öncə təhsil nazirinin müavininə zəng vurdum, heç biri cavab vermədi, halbuki iradlarımı bu parlament tribunasından deyil, onlara şəxsən demək istəyirdim.

Son olaraq bir məsələyə toxunmaq istəyirəm və sizdən çox-çox üzr istəyirəm ki, 30–40 saniyəlik yenə də pred-

metdən kənara çıxacağam. Dünən sosial şəbəkələrdəki məsələ, əslində təhsil məsələsi ilə bilavasitə əlaqəlidir. Özəl bağçalarla bağlı olan bu problem yaşanmalıydı, bu, gözlənilirdi. Çünki bu gün məhz özəl bağçalarda, – söhbət dövlət bağçalarından getmir, – çox ciddi bir plansızlıq var. Tədris planını kim yazır, qiymət siyasətini kim müəyyənləşdirir, işçilər işə hansı üsulla, necə, nə formatda götürülür, onların əmək haqqı necə hesablanır, uşaqların qidasına kim nəzarət edir, heç kimin xəbəri yoxdur. Heç bir valideynə özəl bağçalarda qəbz verilmir və beləliklə, həm də vergidən yayınma olur. 2 min manata özəl bağçalar var, amma müəllimlərə 250 manat maaş verirlər. Bəlkə bu, aqressiya yaradan psixoloji məqamlardan biridir. Mənim şəxsi düşüncəm ondan ibarətdir ki, Təhsil Nazirliyinin bazasında nəzarət, əlaqələndirmə olmalı idi. İcra hakimiyyətinin tabeliyinə veriləndən sonra təhsildə bu bağ, bu əlaqələndirmə itdi. Uşaq bağçaları tamam ayrı bir sahəyə düşdü. Yəqin o səbəbdəndir ki, bu gün, ümumiyyətlə, məktəb direktoru ilə, institut rektoru ilə danışmaq bağça direktorunu tapmaqdan daha asandır. Yəqin ki, deputat həmkarlarım da mənə dəstək verərlər ki, bu gün ən çətin məsələ bağça direktoru ilə əlaqə saxlamaqdır. Bu gün naziri tapmaq daha asan məsələdir, nəinki bağça direktorunu.

Mən dünən sosial şəbəkədə yayılan məsələ ilə bağlı son fikrimi söyləmək istəyirəm. Məncə, belə müəllimlər və tərbiyəçilər düşünülmədən həbs olunmalıdır. Çünki Azərbaycan uşağı, Azərbaycan gənci bizim ən kövrək, ən yaralı yerimizdir. Bir az predmetdən çıxdığım üçün sizdən bir daha çox-çox üzr istəyirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Predmetdən bir az çıxmadın, çox çıxdın. Amma indi söhbət nədən gedir? Tək sənə aid deyil,

ümumiyyətlə, hərdən burada, Milli Məclisdə çıxış edəndə, deyirik, hər şeyi qanunla tənzimləyək. İndi biri deyir ki, şagird telefonla məktəbə gəlir, telefona da qanun çıxarmalıyıq, çantası ağırdı, ona da qanun çıxarmalıyıq. İcra strukturları, nazirlər, bizdən 10 dəfə böyük təşkilatlar var. Bu, onların işidir. Biz hər şeyi qanunla tənzimləməli deyilik. Çərçivə qanunu qəbul etmişik, o çərçivə qanunu əsasında nazirliklər öz qərarlarını verməlidirlər. Niyə biz hər şeyi gərək qanun çərçivəsinə salaq? Bir az düzgün yanaşma deyil. Bizim qəbul etdiyimiz bütün qanunlar, – bəlkə mən səhv edirəm, Şəmsəddin müəllim, – çərçivə qanunu deyildi? Yox, misal üçün deyirəm də...

**Ş.Hacıyev.** Nizamnaməsi var, daxili nizam-intizam qaydaları var, onunla tənzimlənməlidir.

**Sədrlik edən.** Biz o nizamnamələrə artıq başqa cür baxmalıyıq. Nəyə görə? Çünki, bax, indi çox adam deyir ki, uşağı birinci sinfə qəbul edəndə sorğu-sual, "çək-çevir" edirlər. Bizdə məktəb təhsili icbari deyil? Nə ixtiyarları var ki, uşağı məktəbə götürməsinlər? Yəni bu qaydalar var, mən o məsələ ilə razıyam ki, bəli, uşaq bağçaları təhsil müəssisəsi sayılırsa, bunlar Təhsil Nazirliyinin tərkibində olmalıdırlar. O bölünmədən sonra orada problemlər yaranıb. Ancaq biz deyirik ki, nə qədər mümkündür, uşaq bağçaları açılsın. Açılsın, onlara nəzarət qaydası, tədris proqramları, məsələləri yaranmalıdır, o qaydalar əsasında işləməlidirlər. Biz onu qanun şəklində verə bilmərik axı. Buyursun İsa müəllim.

**İ.Həbibbəyli.** Sağ olun, hörmətli Oqtay müəllim. Mən "Təhsil haqqında" Qanuna dəyişikliyin bu qədər geniş müzakirə edilməsini çox təbii sayıram. Çünki bu, millətimizin, son nəticədə dövlətimizin inkişafı ilə bağlı olan çox aktual məsələdir, eyni zamanda, hər bir valideynin həm

şəxsi, həm də bir vətəndaş olaraq cəmiyyət qarşısında məsuliyyəti ilə əlaqədar olan ciddi bir prosesdir. Hər kəsin də buna reaksiya verməsi təkcə şəxsi mənafedən deyil, ümumi mənafelərdən doğan haldır. Ona görə mən bu iradları və təkliflərimi söyləyən bütün deputat həmkarlarıma minnətdarlığımı bildirirəm.

Bir neçə məsələ barədə fikirlərimi demək istəyirəm. Birinci, deputat həmkarlarımın bir çoxunun çıxışlarında sertifikatlaşdırma ilə bağlı iradlar, tənqidi qeydlər səsləndi. İlk növbədə demək istəyirəm ki, düzdür, sertifikatlaşdırma terminoloji olaraq yeni səslənir. Amma bundan əvvəl ümumtəhsil məktəblərində attestasiya ilə bağlı təhsil qanununda müddəa var idi. Attestasiya ilə bağlı həmin müddəanı burada sertifikatlaşdırma əvəz edir. Dünyanın çox az ölkəsini tapmaq olar ki, orada təhsilə nəzarət etmək, keyfiyyəti müəyyən etmək üçün attestasiyalar keçirilməsin. Bunun əksini çox geridə qalmış ölkələr də görmək olar. Dünyada o ölkələr inkişaf edib ki, orada təhsilə daim nəzarət var və müəyyən olunmuş qaydada attestasiyalar keçirilir. Bu, ancaq keyfiyyəti, məsuliyyəti artırmağa, məktəbi yeniliklərə, inkişafa kökləməyə xidmət edir. Bunlar olmadan çox böyük arxayınçılıq meydana gələ bilər və öz üzərində işləmə prosesi, demək olar ki, unudular, son nəticədə məktəb də, bizim yeni nəsil də itirə bilər.

Başa düşürəm, deputat həmkarlarım burada sui-istifadə hallarını, bunun alt qatını da düşünürlər. Mən hesab edirəm ki, belə hallara qarşı mübarizə aparmaq cəmiyyətimizin borcudur. Bu cür hallar dünya təhsil sistemində olan, bizim təhsil sistemində də olması keyfiyyətə, qarşıda duran hədəflərə doğru işə kömək edən sertifikatlaşdırmanı aradan qaldırmağa əsas vermir. Bir məsələni də demək

istəyirəm ki, burada sertifikatlaşdırmadan nə qədər adamın azad edildiyi müxtəlif kateqoriyalar üzrə göstərilib. Təxminən belə demək olar ki, müəllimlərin 20 faizinin hər il mərhələ-mərhələ sertifikatlaşdırmadan keçməsi nəzərdə tutulur. Bu, ancaq məsuliyyətə, keyfiyyətə xidmət edir. Mən də o fikirdəyəm ki, burada obyektivliyi təmin etmək üçün, əlbəttə, xüsusi diqqət lazımdır. Sertifikatlaşdırma yalnız orta ümumtəhsil məktəblərinə aiddir. Doğrudur, qanun layihəsində yazılıb ki, "ümumtəhsil müəssisələrində". Buradakı "ümumi" sözü təhsilin bütün pillələrinə aid deyil, "ümumi təhsil anlayışı" ənənəvi, indiyə qədər bizim bildiyimiz orta təhsil anlayışına aiddir. Ona görə də sertifikatlaşdırmanın elmlər doktorlarına, elmlər namizədlərinə şamil edilməsi haqqında düşünmək qətiyyən obyektiv deyildir, bu, orta məktəbə aiddir.

Respublika olimpiadaları haqqında deyim. Burada hamı dedi, bizim ölkəmizdə test üsuluna böyük ehtiram yaranıb. Həqiqətən, bu, cəmiyyətimizin böyük nailiyyətidir. Sovet hakimiyyəti dövründə, böhran illərində ölkəmizdə respublika olimpiadaları uzun müddət təşkil edilmirdi. Son on ilə yaxın müddətdə respublika olimpiadalarının keçirilməsinə yüksək səviyyədə diqqət yetirilir və bu dövrdə intensiv keçirilən respublika olimpiadalarına cəmiyyətimizdə şübhəli bir münasibət hiss olunmayıb, sosial şəbəkədən tutmuş kulislərə qədər belə söhbət getməyib. Bizim düşüncəmizdə qalan sovet təhsil sistemindəki olimpiadalar haqqında təsəvvürlərdir. Mən də başa düşürəm və hesab edirəm ki, bu gün olimpiadaları keçirən adamlar prosesin şəffaf, obyektiv olmasına xüsusi diqqət yetirməlidirlər. Amma bu cür təsadüfi halları nəzərə alıb, olimpiadaların nəticələrinin, ümumiyyətlə, qəbulda nəzərə alınmaması haqqında düşünmək özü də tamamilə yanlışdır.

Burada “Çağ öyretim” şirkətinin adı çəkildi. O bizim ölkəmizdə ləğv olunub, dünyada da nüfuzunu itirib, onun meyarları bizim üçün heç nə vəd etmir. Respublika olimpiadaları isə tələbələri təhsilə həvəsləndirməyə, stimullaşdırmağa, onların maraqlarını artırmağa, rəqabət mühiti yaratmağa yönəlib və bu yolla yeni nəslin inkişafına xidmət edir və həmin olimpiadalarda birinci, ikinci, üçüncü yerləri tutanlar 600-dən çox bal toplaya bilmək qabiliyyətinə malik gənclərdir.

İkinci, son illərin statistikası göstərir ki, respublika olimpiadalarının qalibləri ali məktəblərə test üsulu ilə qəbul olunur və böyük əksəriyyəti ali məktəbləri fərqlənmə ilə qurtarırlar. Onların təhsil göstəriciləri digərlərindən yüksəkdir. Bu, respublika olimpiadalarına marağı, onların səviyyəsinə inamı artıran bir göstəricidir. Hesab edirəm ki, respublika olimpiadaları qaliblərinin də ali məktəblərə müsabiqədənkənar qəbul olunmasına inam test imtahanlarına olan inam qədər olmalıdır. Bunu əvvəlcədən şübhə altına almaq bu istiqamətdə aparılacaq işlərin tendensiyası ilə heç də bir-birini tamamlamır.

Beynəlxalq proqramlarla əlaqədar təhsil alanların müsabiqədənkənar qəbul olunması haqqında. Əvvəla, beynəlxalq proqramlarla xarici dillərdə ölkəmizdə təhsil alanların bu günə qədər heç biri ölkəmizdə imtahanda iştirak etməyib. Bu gün də onların yarıdan çoxu xaricdə təhsil almaq arzusundadır. Biz onlara şərait yaratmaq istəyirik ki, xaricdən ölkəmizə dönsünlər. Ölkəmizdə onların da sayı çox deyil, dövlət orta məktəblərində, demək olar ki, yoxdur, özəl ali məktəblərin də 20 faizində belə gənclər var. Biz istəyirik ki, xüsusi təchizatı, yüksək səviyyəli pedaqoji kadrları olan, yüksək təhsil göstəricilərinə görə özəl məktəb statusu qazanan və nisbətən inkişaf etmiş

müəssisələrdə oxuyan tələbələrimizin xaricə axını dayansın. Biz bu günə qədər onları müsabiqədənkənar qəbul etsək də, o tələbələr geri gəlmək istəmirdilər. Çünki burada onlara təklif edəcəyimiz təhsil şəraiti yox idi. Bu gün isə ölkəmizdə ana dilində, dövlət dilində tədrislə yanaşı, xarici dillərdə də yüksək standartlara cavab verən ali təhsil mühiti yaradılır. ADA Universitetini, fransız məktəbini, ali məktəblərdə xarici dillərdəki fakültələri misal çəkmək istəyirəm. Həmin o beynəlxalq proqramlarla oxuyan və məzun olan gənclər artıq ölkəmizdəki bu mühiti görəndən sonra buradakı təhsilə dönüş etmək istəyirlər, amma onların təhsil proqramı ilə Dövlət İmtahan Mərkəzinin imtahan sualları eyni deyil. Biz onları bu yaşda etməsək, o axın yenə xaricə gedəcək. Bunların hamısı həmin məktəblərdə yüksək səviyyəli təhsil alıblar. Onların laboratoriyası da, maddi-texniki bazası da, pedaqoji mühiti də özəl statusa malik olub. Biz o potensialı əlimizdən verməməliyik. Orada çox az faiz təşkil edən həmin potensialın ölkəmizdə qalmağında maraqlı olmalıyıq. Bu, təkcə valyuta ehtiyatlarının ölkəmizdə qalması deyil, bizim milli maraqlarımıza da, dövlətçilik maraqlarımıza da uyğun gəlir ki, gənclər ölkəmizdə qalsınlar. Məncə, bu güzəştlər bir mərhələ üçün çox yerindədir, çox faydalıdır.

Bu gün burada təklif olunan layihədə tədris dilinin ancaq düzəlişə aid olan ikinci hissəsi yazılıb. 7-ci maddənin birinci hissəsində yazılır ki, tədris dili ölkəmizdə dövlət dili olan Azərbaycan dildir. Bu, mütləqdir, lakin valideynlərin arzusu ilə və təhsil müəssisəsinin imkanı ilə tədris dünyanın bütün ölkələrində olduğu kimi, bizim ölkəmizdə də digər dillərdə aparıla bilər. Düzdür, “digər dillərdə” sözünə bəlkə aydınlıq gətirməyə ehtiyac var, amma məncə, yoxdur. Çünki bütün dünyada da heç o xırda

xalqların dilində oxuyan yoxdur. Əgər "digər dillər" deyilirsə, burada BMT-nin qəbul etdiyi dillərin də heç hamısı yox, ingilis, rus, fransız, alman dilləridir. Bunlardan kənara çıxmaq olmur. Heç ərəb dilli məktəb tapmaq da çox çətindir. İspan dili dünya dilidir, dünyada o dildə oxumaq istəyən çox azdır. Bu o deməkdir ki, elə BMT dilləri səviyyəsində olan dillərdə təhsil ala bilərlər. Hətta o da əlavə olunub ki, – hesab edirəm, çox zəruridir, – bu dillərdə təhsil alanlar da Azərbaycan dili, Azərbaycan tarixi, Azərbaycan coğrafiyası dərslərini mütləq keçməlidirlər. Bu da qanunda öz əksini tapıb.

Mən də təsisçilərin əcnəbi olmasının tərəfdarı deyiləm. Hətta əgər xatırlayırsınızsa, bundan əvvəlki "Məktəbəqədər təhsil haqqında" Qanunda deputat həmkarlarım ilə bu barədə mübahisə etdik. Son nəticədə biz məktəbəqədər təhsil müəssisələrində əcnəbilərin təsisçi olmasının qarşısını aldıq. Belə bir maddə orada öz əksini tapmayıb. Amma əcnəbilərin ölkəmizdə təhsil almaq hüququ vardır, xarici ölkələrdə, səfirliklərdə işləyən, ticarətlə məşğul olan yüzlərlə, minlərlə azərbaycanlı da, onların övladları da xaricdə təhsil alırlar, onların içərisində az da olsa vətəndaşlığı olmayan, yaxud əcnəbilər sırasından təsisçi qismində adamlar vardır. Bu, beynəlxalq normadır. Müvafiq icra hakimiyyəti orqanları da əcnəbilərin təsisçi olmasında çox da maraqlı deyildirlər. Amma qanun bir gün üçün, bir hal üçün nəzərdə tutulmayıb. Şübhəsiz ki, belə hallar çox deyil, mümkün qədər az olacaqdır. Amma belə hallar baş verərsə, biz hesab edirik ki, o zaman Azərbaycan dövləti qarşısında hüquqi məsuliyyəti olan bu cür adamlar mütləq dövlətimizin qanunlarına əməl etmək şərti ilə bu hüquqlardan istifadə edə bilərlər.

**Sədrlik edən.** İsa müəllim, üzr istəyirəm. Bu məsələ

artıq saat yarımdır müzakirə edilir. Siz qanunu təqdim etmisiniz, mən dedim, bəzi suallara cavab vermək lazımdır. Təzədən qanunu təqdim etməyin, xahiş edirəm, biz az qısa, 5 dəqiqə qalıb.

**İ.Həbibbəyli.** Sentyabrın 15-dən iyunun 15-dək olan təhsil müddəti 36 həftədir, 36 həftəni keçmir. O zaman sentyabrın 1-də başlayırdı, mayın 25-də qurtarırdı, indi üzərinə 15 gün gəlib, həftələrin sayı artmayıb, əksinə, fənlərin sayı bir az çoxalıb. Təhsil aldığımız illərlə müqayisədə, təkcə bizim deyil, inkişaf etmiş ölkələrin hamısının təhsil həyatına, yeni zamanın, müasir dövrün diktə etdiyi yeni fənlər daxil olub. Dərsliklər, proqramın ağırlığı – bunlar ayrı məsələdir. Amma həyat bilgisi kimi elə vacib fənlər var ki, onları bütün dünya oxuyur. Biz bunlara qarşı çıxa bilmərik, burada vaxt dəyişib, amma həftələrin sayı dəyişməyib.

Ümumiyyətlə, təhsillə, imkanımızla bağlı qaldırılan məsələlər faydalı mövzulardır. Şübhəsiz ki, bu yeniliklərin heç biri dərhal, asan, eyni ilə qəbul olunmur, yeniliklərə müxtəlif rakurslardan baxılır. Mən çox arzu edirəm ki, bunu icra edən qurumlar obyektivliyi təmin etsinlər və inanıram ki, iş bu istiqamətdə gedəcəkdir.

**Sədrlik edən.** Oldu, sağ olun. Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.59 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 18-ci məsələ Azərbaycan Respublikasının Ağsu, Astara, Goranboy, Göygöl, Xaçmaz, Xızı, Qazax, Quba, Qusar, Masallı, Oğuz, Saatlı, Samux, Şəmkir və Yevlax rayonlarının bəzi ərazi vahidlərinin adlarının dəyişidirilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədədir. Buyursun Arif Rəhimzadə.

**A.Rəhimzadə,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Sağ olun, cənab Sədr. Hörmətli həmkarlar, müzakirənizə təqdim olunan bu layihədə 15 rayonun 25 yaşayış məntəqəsinin adlarının dəyişdirilməsi nəzərdə tutulur. Düzəlişlər 3 istiqamətdə aparılıbdır. Birinci istiqamət – tarixi adların bərpası. Bu məqsədlə sovet dövründə dövlət məmurlarının, dövlət xadimlərinin adına olan yaşayış məntəqələrinin adının əvəzinə tarixi adlar bərpa olunubdur. İkinci istiqamət yaşayış məntəqələrinin əhalisinin milli tərkibinin dəyişdirilməsi ilə əlaqədardır və üçüncü düzəliş – rus dili transkripsiyasında yazılan yaşayış məntəqələrinin adları dəyişdirilir.

Misal üçün, Astara rayonunda "Kamışovka" adlı bir yaşayış məntəqəsi var. "Qamışoba", ya "Qamışlı" adı daha uyğundur. Təkrar edirəm, 25 yaşayış məntəqəsinin adları dəyişdirilir. Sənədlər "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Qanunun tələblərinə tamamilə uyğun hazırlanıb, yerlərdə Toponimiya komissiyası tərəfindən müzakirə olunub, baxılıb və sizin müzakirənizə verilir. Eyni zamanda, "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Qanunun tələbinə uyğun 13 kənd inzibati ərazi dairəsinin də adı dəyişdiriləcəkdir. O yaşayış məntəqəsi inzibati ərazi dairəsi hesab olunur, onun adı dəyişdiriləndə avtomatik inzibati ərazi dairəsinin adı da ona uyğunlaşdırılır. Sağ olun.

*Azərbaycan Respublikası  Milli Məclisi Sədrinin birinci müavini* ***Ziyafət Əsgərov*** *sədrlik edir*

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, əgər etiraz etməsəniz,  5 dəqiqəyə keçək. Çünki qarşıda qanun layihələri var. Etiraz yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yox, yazılanlar var, çıxış etmək istəyənlər var, təkid edirlər. Fazil Mustafa, buyurun.

**F.Mustafa**. Çox sağ olun, Ziyafət müəllim. Biz Sizin konstruktiv təklifinizi  dəstəkləyirik, bu məsələ ilə bağlı 5 dəqiqə normaldır.

Çox hörmətli Arif müəllim tarixi adların bərpası ilə bağlı məlumat verdi. Mənə Şəmkir rayonundan çox sayda insanların imzası ilə müraciətlər daxil olub. Burada Qasım İsmayılov kənd inzibati ərazi dairəsinin "Alabaşlı kəndi" adlandırılması məsələsi qoyulub.  60-cı illərdə bu kənd "Qasım İsmayılov" adlanıb, amma ondan da əvvəl Alabaşlı kəndi olub. Bizdə Alabaşlının fərqli bir anlayışı verilir. Amma bu, əslində hansısa zooloji anlayış kimi qəbul edilməməlidir. Bu kənd Azərbaycanda hələ İslam dini yayılmağa  başladığı dövrdən mövcud olub. Hətta Alabaşlı adı 1905-ci ildə Dəllər–Alabaşlı üsyanından bəhs edən deyilən tarix kitabında var.  Mircəlal Paşayevin əsərində bu kənd haqqında müəyyən epizodlar var. Kənd əhalisi də bu məsələdə öz rəyinin alınmamasını bildirir və tarixi adının qaytarılmasını deyir. Ona görə bu cür məsələlərdə bir az həssas davranmaq, yerli əhalinin bu adlara münasibətini öyrənmək lazımdır. Məsələn, mən "Dəvəçi" adının "Şabran" adlandırılmasının əleyhinə idim, çünki Dəvəçi xalis türk ifadəsidir. Bu cür adların saxlanması bizim üçün çox normaldır.  Bunu başqa cür izah etmək də

mümkün olmur. Amma burada tarixi şəxsiyyətlərlə bağlı yanaşmada, mən düzgün hesab edirəm ki, Qasım İsmayılov adı dəyişilməlidir. Bilirsiniz, müstəqillik əleyhinə çalışan, siyasi fəaliyyət göstərən insanların adlarının Azərbaycanda bu gün yaşaması doğru deyil. Məsələn, bir yazıçının, ictimai xadimin hansısa fəaliyyəti olubsa, sovet dövründə Azərbaycana xidmət edibsə, onun unudulmasının tərəfdarı deyiləm, ona qiymət verməliyik. Neyləsin ki, o dövrdə doğulub, xalqına bağlı olub, müəyyən məsələlərdə yaxşı işlər görüb. Amma o adamlar ki, bilavasitə müstəqilliyə qarşı çıxış ediblər, onların adlarının bu formada yaşaması doğru deyil.

Bir də burada multikulturalizm nöqteyi-nəzərindən bəzi məsələlərə bir az həssas yanaşmamız lazımdır. Məsələn, Azərbaycanda molokan icmalarına mənsub olan kəndlər var. Ola bilsin, Azərbaycan dilinin qaydalarına uyğun müəyyən məsələləri düzəltmək mümkündür. Məsələn, "Qamışoba" məsələsində doğru izahdır, təfsirdir və düzgün dəyişib. Amma Mixaylovka, Alekseyevka və başqa kəndlər molokan kəndləridir. Yelenendorf kəndini "Göygöl" adlandırdıq. Əslində məqsədimiz o kəndə almanların marağını artırmaq deyil, kimsə gəlib bizdən torpaq almayacaq. Erməni mənşəli sözləri götürə bilərik, amma qalan bu kimi məsələlərin bu qədər kütləvi şəkildə dəyişməsi, məncə, doğru deyil. O kəndlərin adları tarixi keçmişlə bağlıdır. Məncə, bu adların da o aspektdən müəyyən dərəcədə qorunub saxlanması lazımdır. Elə adlar var ki, – məsələn, "Krasnıy Xutor", – dəyişilməlidir, mənasız bir addır. Amma hansısa şəxs adı ilə bağlıdırsa və ya hansısa siyasi-ideoloji adla əlaqəli deyilsə, onlara toxunmağı doğru hesab etmirəm. Deyək ki, orada həmin millətdən olan insanlar yaşamasa, belə adın coğrafi məkan olaraq qalması sabah multikulturalizm siyasətimizin göstəricisi

kimi bir neçə kənddə, bir neçə yerdə bizim dövlət marağımız baxımından, dövlətin təbliğatı baxımından da faydalı olar. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən**. Sağ olun. Rafael Hüseynov.

**R.Hüseynov**. Müzakirə etdiyimiz qanun layihəsi cəmi iki səhifə olsa da çəki etibarı ilə kifayət qədər ağırdır, çünki hər bir yer adı millətin tərcümeyi-halı, tarixi, taleyi ilə bağlıdır. Bu səbəbdən belə məsələlərdə son dərəcə həssas yanaşmalar olmalıdır. Ona görə də mən düşünürəm ki, gələcəkdə bu qəbil məsələlərin yalnız son nəticəsi müzakirəyə təqdim edilməsin, hər bir dəyişikliklə əlaqədar müvafiq arayışlar, izahlar, təsdiqedici sənədlər də ortaya qoyulsun ki, fikir bölüşərkən, mülahizələr irəli sürərkən daha dəqiq ola bilək, çünki insanlar yer adlarını ixtiyari şəkildə dəyişə bilirlər. Gəncənin adı Abbasabad, Yelizavetpol, Kirovabad da olub, amma Gəncə yaşayıb və tarix boyu özünü təsdiq edib.

Fikrimi bir-bir, bəndlər üzrə söyləyəcəyəm. Başqa məsələ ilə bağlı qənaətimi bəri başdan bildirmək istəyirəm. Təkcə qəsəbələrin, kəndlərin, rayonların, şəhərlərin adları deyil, böyük şəhərlərimizin, xüsusilə paytaxtın küçələrinin də adı coğrafiyadır, tarixdir. Onlara da dəqiq yanaşmaq lazımdır və bu gün onların adlanması, təsdiqlənməsi məsələsi ilə bağlı konkret mexanizm yoxdur. Hələ mən Azərbaycanın başqa şəhərlərini demirəm, məhz Bakı şəhərinin, ən azı paytaxtın küçələrinin, prospektlərinin adlarının qoyulması və dəyişdirilməsi məsələsi, düşünürəm ki, mütləq Milli Məclisdə hər dəfə təsdiq edilməlidir. Çox müsbət haldır ki, qanun layihəsində adlar dəyişdirilir. Səmədağa Ağamalıoğlu adına kənd olub, qəsəbə olub, dəyişdirilib, Əli Bayramov, Əliheydər Qarayev adları dəyişdirilir.

Birincisi, təəccüb doğuran odur ki, niyə indi dəyiş-

dirilir? Azərbaycanın müstəqilliyindən nə qədər zaman keçir və bu insanların tarixdəki yeri də, izi də hər kəsə bəllidir. Ona görə belə məsələlərdə çoxləngimək olmaz. Amma digər tərəfdən mən bu gün Azərbaycanın və Bakının küçələrinə həmin adların işığında baxıram. Bakının küçələrindən mən hər gün keçib işə gəlirəm, görürəm ki, Əli Bayramovun və ya Qasım İsmayılovun yaşadığı mənzilin üstündə onun xatirə lövhəsi vurulub, yazılıb ki, Azərbaycanda sosializmin qurulması uğrunda mübarizədə müsavat cəlladları tərəfindən vəhşicəsinə qətlə yetirilmiş mübariz, mərd insan. O lövhələr qala bilər, onları hansısa muzeylərdə saxlamaq lazımdır ki, tarixin yadigarı kimi qalsın. Amma artıq bizim dünyagörüşümüz, həyat fəlsəfəmiz, quruluşumuz dəyişilibsə, istiqlal içərisində yaşayan bir məmləkətiksə, bu bizim coğrafiyamızda, yəni təkcə ərazi coğrafiyasında, rayonların, kəndlərin adlarında deyil, şəhərimizdə də əks olunmalıdır. Ona görə düşünürəm ki, gələcəkdə ən azı paytaxtın küçələrinin adlarının dəyişdirilməsi və təsdiqi məsələsi mütləq Milli Məclisdə konkret olaraq hər dəfə təsdiq edilməlidir.

İndi 15 rayon üzrə bəndlərdəki dəyişikliklərə keçirəm. Bunların böyük əksəriyyəti, əlbəttə, təqdirəlayiqdir, zərurətdən irəli gəlir. Amma hər hansı dəyişikliyi eləyəndə istənilən məsələyə kompleks halda yanaşmaq lazımdır. Məsələn, Astara rayonu üzrə Kakalos kənd inzibati ərazi dairəsi tərkibindəki “Qamışovka” kəndi “Qamışoba” kəndi adlandırılsın. Çox yaxşıdır, Azərbaycan dilinin ahəng qanununa da uyğun gəlir, səslənməsi də poetikdir. Amma “Kakalos” nədir, niyə “Kakalos” qalmalıdır? Mən fars dilini də bilirəm, qədim və bir çox müasir İran dialektlərindən də xəbərdaram, talış dilini də anlayıram. “Kakalos” sözünün talış dilində mənası yoxdur. Bəzi yozum-

lar var ki, bu, “ev” deməkdir, “los”un ayrı bir mənası var, amma hər halda “Kakalos” sözü səslənişi də, mənası da müsbət olmayan bir ifadədir. Düşünürəm ki, “Qamışovka” “Qamışoba” olarsa, gərək məsələ konkret qoyulaydı və birdəfəlik “Kakalos” da dəyişilə idi. Çünki nə səslənmə, nə də tarixi nöqteyi-nəzərdən yükü, çəkisi, əhəmiyyəti olan bir yer deyil, dəyişilməlidir. Bu qəbil məsələlərə, zənnimcə, əhatəli yanaşmaq lazımdır. Bu gün birini dəyişib, 5 ay sonra digərini ortaya çıxarmağa ehtiyac yoxdur.

Digər tərəfdən burada bır sıra adlar var, baxan kimi bilirik ki, tarixi simalardır. Qasım İsmayılov, bilirik, kimdir. Vaxtı ilə Xanlar rayonunun adının dəyişdirilməsi məsələsini qaldırmışdım, o zaman etiraz edənlər var idi. Təklif eləmişdim, “Göygöl” oldu, təklif eləmişdim ki, “xan” da qalsın, “Cavadxan” olsun, heç olmasa.

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***Oqtay Əsədov*** *sədrlik edir*

**Sədrlik edən**. 5 dəqiqəni keçmişik, yəqin yadınızdan çıxıb. 1 dəqiqə mikrofonu verin.

**R.Hüseynov.** Çox təşəkkür edirəm. Əgər “Xanlar” adı Xanlar Səfərəliyevlə bağlıdırsa, əlbəttə, dəyişək. Amma digər halda məsələyə başqa şəkildə yanaşılmalıdır.

Bundan əlavə, bir məsələni də deməyi vacib sayıram ki, bəzi adları dəyişib başqası ilə əvəz edərkən, məsələn, “Lüksemburq” əvəzinə “Köbər”, yaxud da “Çobankərə” adını gətirmək istəyirik. Bunların estetikasına, tarix nöqteyi-nəzərindən dəqiqliyinə mütləq riayət eləməliyik, o cümlədən də “Lüksemburq” kimi adları qeyd edərkən. Əgər bu, Roza Lüksemburqla bağlıdırsa, bəli, dəyişilməli-

dir. Amma hər hansı bir şəkildə bu ad zamanında "Lüksemburq" şəhəri ilə bağlı verilibsə, bu, qalmalıdır. Çünki gələcəkdə Azərbaycanın xarici əlaqələri nöqteyi-nəzərindən belə adlardan yararlana bilərik. Təşəkkür edirəm.

**Sədrlik edən**. Siyavuş Novruzov. Siyahı get-gedə artır, bizim hələ 6 məsələmiz var. Yəqin siz 4 dənə növbədənkənar sessiya keçirmək istəyirsiniz.

**S.Novruzov**. Təşəkkür edirəm, Oqtay müəllim. Mən də bu dəyişikliklərə baxıram. Müəyyən dəyişikliklər lazımdır, zəruridir. Amma bu, dəyişiklik etmək xatirinə olmamalıdır. Burada elə şeylər var ki, təbii ki, əvəz edilməlidir, amma eləsi var ki, necə deyərlər, üzrü günahından betər olur. Yəni elə ad verirlər ki, köhnə adı bundan daha yaxşıdır. Bunu hər cür, hərtərəfli yozmaq, hər məsələyə münasibət bildirmək olar. Məsələn, "Qırmızı Samux". Məgər "qırmızı" sovet hökuməti ilə bağlıdır? Bayrağımızda da qırmızı var, Türkiyənin də bayrağı qıpqırmızıdır. Qırmızı pisdirsə, bayrağımıza niyə daxil eləmişik, niyə qırmızını Şura ilə bağlayırıq? Qanın da rəngi qırmızıdır. Burada hansısa sovet ifadəsi işlənirsə, dərhal bunu çıxaraq.

Rafael müəllim də qeyd elədi, Roza Lüksemburqun tarixdə xidmətləri çox böyükdür. Bir kənd də onun adını daşısa, nə olar? Onun əvəzinə "Köbər" kəndi adlansa, nə isə dəyişir? Burada həmkarlarım da qeyd etdi, ərazinin tarixi adı var, sonra dəyişilib, yenə tarixi adı qaytarılıb. Misal üçün, Gəncə şəhərinin adı neçə dəfə dəyişildi, sonra öz adını aldı. Məsələn, Xanlar rayonunun adını dəyişdik. Bu rayonu salan almandır, adını da verib. Burada yaşayış massivi olmayıb, onlar buraya köçüb gəlib. Dəyişiriksə, onların adını dəyişək. Oraya "Göygöl" adının verilməsinin nə mənası var idi? Bir şeyi dəyişəndə, gərək baxaq, görək bu, hansı formada həyata keçirilir. Yaxud da səhra-

da, çöldə molokan icmasının nümayəndələri kənd salıb, sürgünə gəlib. Bu, onun kəndidir, adını da o qoyub. Dağdan, bağdan gələn 5 adam da fikirləşir ki, yox, bu, rus adı, yaxud molokan adıdır, dəyişək. Niyə dəyişməliyik ki? Məsələn, Mixaylovkadan qabaq o ərazi örüş sahəsi olub, adı varsa, yaza bilərik, yoxdursa, bu adam səhraya köçüb və orada cənnət yaradıbsa, bu adı niyə qoymuruq?

Mən hesab edirəm ki, burada verilən adların çoxuna dəyişiklik edilməyə də bilər. Məsələn, "Muxtariyyət". Bunu "Qədimqala" qoymaqla biz nə qazanırıq? Məgər "Muxtariyyət" sovet sözüdür? Türkiyədə muxtar vəzifəsi var, Naxçıvan Muxtar Respublikasında "muxtariyyət" sözü var, biz bunu dəyişək? Yaxud da sovet hökuməti ilə bağlı olan adlar var. Burada Aqil müəllim çox yaxşı sözlər söylədi, Sovet təhsil sistemindən, sosial təminat, təlim-tərbiyə sistemindən və sair danışdı. Burada canını qoyub işləyən insan olub, təhsil sahəsinə 20–30 il rəhbərlik eləyib, onun da adını hansısa kənd daşıyırsa, bu adı dəyişib hansısa qaçaq-quldurun, yaxud camaatı talayanın adını qoymaqla biz nəyi dəyişirik? Töycü yığanın adını qoyursunuz, təhsil verənin adı oradan çıxarılır ki, o, sovet dövründə yaşayıb. Quruluş bu idi, yaşayıb da... Yaxud adamı olmadığına görə, Şəhriyarın adına bir küçə yoxdur. Çox böyük Azərbaycan şairidir.

Oqtay müəllim, mən bu məsələni qaldıracaqdım. Şah İsmayıl Xətai bizim dövlətin qurucusudur. Şah İsmayıl Xətainin heykəlini aparıb iki yolun ortasına qoyublar, xarici bir vətəndaş orada şəkil çəkdirmək istəsə, avtomobil qəzasına düşə bilər. Bu şəxsiyyət 1 milyon kvadrat-kilometr ərazisi olan bir dövlət qurub, onun haqqında bütün beynəlxalq aləm fikir söyləyir, biz bunu göstərməliyik. Ən böyük bağlarımızın birində, bağın ortasında

qaçaq Koroğluya heykəl qoymuşuq, Şah İsmayılın heykəli isə iki yolun ortasındadır. Bunların hamısını götür-qoy etmək, tariximizə hörmətlə yanaşmaq lazımdır.

**Sədrlik edən**. Birinci, Koroğlu qaçaq Koroğlu deyil, eposlara da sataşma.

Mən hesab edirəm ki, belə getsə, biz bu məsələni çox müzakirə edəcəyik. Xahiş edirəm, əgər təkid edən yoxdursa, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.19 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi. Sağ olun.

Növbəti məsələ. "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layhəsi haqqında. Buyursun Ülvi Quliyev.

**Ü.Quliyev,** *Milli Məclisin Gənclər və idman komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli millət vəkilləri! Nəzərinizə çatdırım ki, "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Qanunu biz 2016-cı ilin noyabr ayında qəbul elədik və bu qanun qısa bir müddətdə cənab Prezident tərəfindən imzalanaraq qüvvəyə mindi. Elə həmin dövrdən də Azərbaycanda Milli Antidopinq Agentliyi yaradıldı. Bu agentlik

artıq iki ilə yaxındır ki, fəaliyyət göstərir və Dünya Antidopinq Agentliyi ilə çox sıx əməkdaşlıq edir.

Biz Dünya Antidopinq Agentliyinin tövsiyələrini nəzərə alaraq Milli Antidopinq Agentliyinin vəzifələrini bu qanun layihəsində genişləndiririk və yeni bir maddə əlavə edirik. Maddə 7.0.12-1. – “idmanda dopinqdən istifadənin qarşısının alınması, habelə qadağan olunmuş dopinq vasitələrinin qanunsuz dövriyyəsində iştirak edən şəxslər barədə məlumat almaq məqsədi ilə müvafiq icra hakimiyyəti orqanları ilə əməkdaşlıq etmək, o cümlədən məlumat mübadiləsini həyata keçirmək”. Təbii ki, bunu Dünya Antidopinq Agentliyi tövsiyə etmişdir. Burada əsas məqsəd ondan ibarətdir ki, Milli Antidopinq Agentliyinin vəzifələri genişləndirilir və bu qurum müvafiq icra hakimiyyəti orqanları ilə əməkdaşlıq edir, məlumat mübadiləsini həyata keçirir. Düşünürəm ki, biz bu dəyişikliyi qəbul etsək, bu sahədə mübarizəyə yeni bir mexanizm kimi səmərə, effekt veriləcək. Ona görə bu layihəyə dəstək olmağınızı xahiş edirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən**. Çox sağ olun. Başqa təklif yoxdursa, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.21 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti, 20-ci məsələ. “Bədən tərbiyəsi və idman haq-

qında" Qanunda dəyişiklik edilməsi barədə. Buyursun Ülvi Quliyev.

**Ü.Quliyev**. Təşəkkür edirəm, Oqtay müəllim. Bu layihə də bundan əvvəl qəbul etdiyimiz layihə ilə sıx bağlıdır. "Bədən tərbiyəsi və idman haqqında" Qanunu biz "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Qanuna uyğunlaşdırırıq. Burada, əsasən, 8-ci maddədə biz bədən tərbiyəsi və idman subyektlərinə milli antidopinq qurumunu, intizam qurumunu, apellyasiya və terapevtik istifadəyə icazə qurumlarını əlavə edirik. Bu qanuna uyğunlaşdıraraq bədən tərbiyəsi və idman subyekti kimi Milli Antidopinq Agentliyini və onun strukturunu qəbul edirik.

Baza qanununda II fəsil, əsasən, Milli Antidopinq Agentliyinə həsr olunub. Ona görə "Biz bədən tərbiyəsi və idman haqqında" Qanuna yeni bir maddə əlavə edirik:

12-1-ci maddə: "Milli antidopinq qurumu idmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumdur". Bununla yanaşı, biz bura digər bir əlavə də edirik:

12-1.2-ci maddə: "Milli antidopinq qurumu öz fəaliyyətini bu Qanun, "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu, Ümumdünya Antidopinq Məcəlləsi, beynəlxalq standartlar, habelə onun vəzifələrini və hüquqlarını müəyyən edən digər normativ hüquqi aktlar, qaydalar və Nizamnaməsi əsasında həyata keçirir".

Digər uyğunlaşdırma. "Bədən tərbiyəsi və idman haqqında" Qanunun 42-ci, 43-cü maddələrinə əlavə edirik. 42-ci maddədə idmançıların, 43-cü maddədə isə məşqçilərin Milli Antidopinq Qurumunun təsdiq etdiyi antidopinq

qaydalarına riayət etməyi nəzərdə tutulur. Biz bununla da "Bədən tərbiyəsi və idman haqqında" Qanunu baza qanununa tam uyğunlaşdırırıq. Diqqətinizə görə minnətdaram. Bu layihəyə də dəstək olmağınızı sizdən xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Başqa təklif yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.24 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 21-ci məsələ. Məşğulluq haqqında Azərbaycan Respublikası qanunun layihəsi, ikinci oxunuş. Buyursun Hadi Rəcəbli.

**H.Rəcəbli.** Hörmətli cənab Sədr, hörmətli deputat həmkarlarım! Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının ölkəmizdə apardığı genişmiqyaslı, sistemli sosial-iqtisadi siyasətin mahiyyətində Azərbaycan vətəndaşı, onun həyat səviyyəsinin yüksəldilməsi ideyası, məqsədi durur. Son illər orta və kiçik sahibkarlığın inkişafı, özünüməşğulluq institutunun formalaşması, qəbul olunan qanun, fərman və sərəncamlar bu məqsədə, əhalinin daha çox işlə təmin olunması məramına xidmət edir. Məhz bu baxımdan, komitəyə daxil olmuş Məşğulluq haqqında Azərbaycan Respublikası qanununun layihəsi aprel ayının 24-də birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirələrdən sonra ikinci oxunuşa tövsiyə edilmişdir.

Daha sonra ikinci oxunuş üçün qanun layihəsi aprel və may aylarında komitə iclaslarında geniş müzakirə olunmuşdur. Bu iclaslarda hörmətli həmkarlarım Rauf Əliyev, Musa Quliyev, Jalə Əliyeva, Araz Əlizadə, Elmira Axundova, İlham Məmmədov, Sevinc Hüseynova, habelə dəvət olunan əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İdris müəllim, rəsmi nümayəndələr çıxış edərək əsaslı və konstruktiv təkliflərlə layihəni bir az da zənginləşdirmişlər.

Beləliklə, müzakirələr zamanı verilən təkliflər və tutarlı dəlillər qanunvericilik təşəbbüsü subyekti ilə məsləhətləşmədən sonra sizə təqdim olunan qanun layihəsində öz əksini tapmışdır. Ən geniş və mahiyyətcə samballı dəyişiklik, layihənin əsas mütərəqqi yeniliyi qeyri-formal məşğulluğa dair 3 maddədən ibarət ayrıca bir fəslin layihəyə daxil edilməsidir. Onu da diqqətinizə çatdırmaq istərdim ki, zaman-zaman bu fikirlər komitə iclaslarında və plenar iclaslarda millət vəkilləri tərəfindən və cəmiyyətdə ayrı-ayrı qruplar tərəfindən dəfələrlə səsləndirilmişdir.

Həqiqətən də, dünyanın hər yerində olduğu kimi bizdə də qeyri-formal məşğulluq mövcuddur, nə edəsən ki, eyni zamanda, qaçılmazdır. Nəticədə qeyri-formal məşğulluq çoxsaylı əmək mübahisələri ilə müşayiət olunur, ölkə iqtisadiyyatına və əhalinin sosial rifah halına mənfi təsir göstərir, ona sarsıdıcı zərbə vurur. Ən əsası isə qeyri-formal məşğulluq, ilk növbədə, dövlətçiliyin təməl prinsiplərinə, xüsusən də qanun qarşısında hər kəsin bərabər məsuliyyət daşıması prinsipinə ziddir.

Son statistik göstəricilərə görə, Azərbaycanda qeydiyyatsız işləyənlərin ümumi sayı təxminən 1 milyon 200 min adam təşkil edir. Bu tipli məşğulluq vergi, sosial sığorta və digər məcburi ödənişlərin həyata keçirilməməsinə

səbəb olmaqla, nəticədə dövlət büdcəsində böyük itkilər yaradır, işçiləri cari və gələcək sosial təminat hüquqlarından məhrum edir. Bu sektorda işçilər təhlükəli iş yerlərində və normalaşdırılmamış iş rejimində çalışır, əməyin mühafizəsi qaydalarından kənarda qalır, minimum əmək haqqı məbləğindən də aşağı ödəniş alır, məzuniyyət və müavinət haqlarından məhrum olurlar. Qeyri-formal məşğulluq daha çox qadınlara, aztəminatlı ailələrə, gənclərə və miqrantlara mənfi təsir göstərir. Möhtərəm Prezidentimizin bununla bağlı bir neçə fərman və sərəncamı olub, xüsusi komissiya yaradılıb. Buna baxmayaraq, burada problemlər davam edir.

Təqdirəlayiq haldır ki, bu gün biz sizinlə birgə qanunvericiliyimizdə bu hüquqi normaları təsbit edirik. Beləliklə, yeni V fəslin 30-cu maddəsi qeyri-formal məşğulluğun müəyyənləşdirilməsi prosedurunu, 31-ci maddəsi qeyri-formal məşğulluğa nəzarəti, vahid elektron informasiya ehtiyatının yaradılması mexanizmini, 32-ci maddə isə qeyri-formal məşğulluq sahəsində maarifləndirmə tədbirlərini nəzərdə tutur.

Hörmətli deputat həmkarlarım,"Qeyri-formal məşğulluq" adlanan V fəslin qanun layihəsinə əlavə olunması sizə paylanan layihəyə iki yeni anlayışın daxil edilməsini zəruriləşdirmişdir. Bunlar 1.1.12-ci və 1.1.13-cü maddələrdir.

1.1.12-ci maddədə belə deyilir: "Qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində nəzarəti həyata keçirən orqanlar", açılış sizdə var.

1.1.13-cü maddədə isə "nəzarət tədbirləri" anlayışı verilib – bunun da açılışı var, tanış ola bilərsiniz.

"Münasib iş" adlanan 6.1-ci maddəyə "ictimai" sözü əlavə edilir. Belə ki, taksi də nəqliyyat növü sayıldığından

“nəqliyyatla” sözünün əvvəlinə “ictimai” sözü əlavə edilmişdir, çünki gələcəkdə bu maddənin tətbiqində qeyri-müəyyənliyin həll edilməsi baxımından “ictimai nəqliyyatdan istifadə” fikri daha düzgün olardı.

Başqa bir dəyişiklik. 25-ci maddəyə “uşaqlara” sözündən sonra “gənclərə” sözü əlavə edilmişdir. Belə ki, bu maddə indi belə oxunacaqdır: “Sosial iş yerlərinin təşkili zamanı əlillərə və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara”, burada, eyni zamanda, “gənclərə” sözü işlədilir.

“İşaxtaran və işsiz şəxslərin sosial təminatları” adlanan 28-ci maddəyə də düzəliş edilmişdir. 28.1.8-ci maddədən mötərizədəki “və hava nəqliyyatı” ifadəsi çıxarılmışdır. Bu ifadə ona görə çıxarılıb ki, bu gün bizdə Naxçıvanla əlaqə bilavasitə hava yolu vasitəsi ilədir. O da qanunda öz əksini tapır. Layihədə habelə bir neçə texniki əlavə və dəyişikliklər də edilmişdir.

Əziz deputat həmkarlarım, sizi bu qanun layihəsinə ikinci oxunuşda səs verməyə çağırıram. Hesab edirəm ki, bununla biz ölkəmizdə əhalinin məşğulluq imkanlarının genişləndirilməsi yolu ilə vətəndaşların qabiliyyətinə uyğun sərbəst surətdə fəaliyyət növü, peşə və iş yeri seçmək hüququnun reallaşdırılmasına yaxından kömək etmiş olacağıq. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Bu, qanun layihəsinin ikinci oxunuşudur. Ona görə də ilk növbədə, bunu əsas kimi qəbul edək, əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.32 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Sağ olun, əsas kimi təsdiq etdik.

**Sədrlik edən.** Müzakirələrə ehtiyac yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda qanun layihəsi 6 fəsil, 37 maddədən ibarətdir. 3 fəsil – 3 fəsil səsə qoyaq. Buyurun. I, II, III fəsillərə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.33 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

IV, V, VI fəsillərə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.33 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyaq. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.34 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İkinci oxunuşda daha bir qanun layihəmiz var. Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında qanun layihəsi, ikinci oxunuş. Əli müəllim, buyurun

**Ə.Hüseynli.** Çox sağ olun, cənab Sədr. Hörmətli millət vəkilləri, xatırlayırsınızsa, biz birinci oxunuşda bu məsələni geniş müzakirə etdik. Bizim komitədə də Daxili İşlər Nazirliyinin müvafiq nümayəndələrinin iştirakı ilə bir təqdimat olmuşdu. Bu layihə ona görə əhəmiyyətlidir ki, söhbət genetik məlumatlar əsasında insan şəxsiyyətinin eyniləşdirilməsindən gedir. Qanun bu məqsədlə qəbul olunur. Belə bir eyniləşdirmənin aparılması uçün Azərbaycanın daxili işlər orqanlarında ən müasir laboratoriya fəaliyyət göstərir. Bu, cinayətkarlığın qarşısının alınması, itkin düşmüş şəxslərin müəyyən olunması ilə bağlı bir çox məsələlərdə ciddi əhəmiyyət kəsb edir.

Qeyd etmək istəyirəm ki, birinci oxunuş zamanı millət vəkilləri dəstəkləmişdilər, xüsusi təklifləri olmamışdı. Yeganə olaraq, işçi qrupuna məcburi dövlət daktiloskopik qeydiyyatının həcminin genişləndirilməsi ilə bağlı təklif daxil olmuşdu. Biz isə belə qərara gəldik ki, ilk növbədə qanunun qəbul olunması, qüvvəyə minməsi vacibdir. Bəlkə də gələcəkdə məcburi dövlət daktiloskopiyasının ge-

nişləndirilməsi məsələsini biz yenidən müzakirə edə bilərik. Hörmətli millət vəkilləri, odur ki, ikinci oxunuşda layihəyə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Əgər başqa təklif yoxdursa, xahiş edirəm, ikinci oxunuşdur, ilk növbədə əsas kimi qəbul edilməsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 17.36 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

4 fəsildir. 2 fəsil – 2 fəsil. Birinci 2 fəslə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.36 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

III, IV fəsillərə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.37 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Nəhayət, qanun layihəsinə ikinci oxunuşda bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.37 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Qanun layihəsi ikinci oxunuşda qəbul olundu.

Nəhayət, bugünkü gündəliyin sonuncu məsələsi. Uşaqların zərərli informasiyadan qorunması haqqında qanun layihəsi barədə. Buyursun Aqiyə Naxçıvanlı.

**A.Naxçıvanlı,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli deputat həmkarlarım, media nümayəndələri! Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qanunvericilik təşəbbüsü ilə 2018-ci il martın 6-da Milli Məclisə Uşaqların zərərli informasiyadan qorunması haqqında Azərbaycan Respublikası qanununun layihəsini təqdim etmişdir. Cənab Prezident tərəfindən təqdim olunan bu qanun layihəsi sosial sifarişin nəticəsidir. Uşaqların sağlamlığına və inkişafına ziyan vuran informasiyadan qorunması ilə

bağlı məsələlərin qanunvericilik aktlarında təsbit olunmasına çox böyük ehtiyac var idi. Ölkəmizdə uşaqlara qarşı zorakılıq hallarının aradan qaldırılması, pis vərdişlərdən, uşaqların erkən nikahdan, cinsi istismardan və sui-istifadədən müdafiə olunması məqsədi ilə qanunvericiliyin təkmilləşdirilməsi, uşaqlara valideynlərin, müəllimlərin nəzarəti, ümumilikdə ictimai və dövlət nəzarəti gücləndirilməlidir.

Prezident İlham Əliyevin qara qızıl kapitalını insan kapitalına çevirməkyə dair bəyanatları onu deməyə əsas verir ki, vətəndaşlarımız, xüsusilə uşaqlar, yeniyetmələr və gənclər arasında fiziki sağlamlıq, sağlam düşüncə, elm və təhsilin inkişafı prioritet iş olmalıdır. Məhz bu baxımdan, uşaq hüquqlarının qorunması ilə bağlı qanunvericilik aktları mütəmadi olaraq təkmilləşir və zamanın tələbinə uyğunlaşdırılır. Uşaqların sağlamlığına və inkişafına ziyan vuran informasiyadan qorunması ilə bağlı ilk qanunvericilik təşəbbüsü də cənab Prezident tərəfindən gəlmişdir. Belə ki, cənab Prezident İlham Əliyevin 2016-cı il 29 aprel tarixli sərəncamı əsasında qanunvericilik təşəbbüsü ilə Milli Məclisdə "Telekommunikasiya haqqında" və "Uşaq hüquqları haqqında" qanunlarda dəyişikliklər edilərək uşaqların sağlamlığına və inkişafına ziyan vuran informasiyalardan qorunması ilə bağlı müddəalar öz əksini tapmışdır. Prezident İlham Əliyevin 2016-cı il 1 iyun tarixli sərəncamı ilə isə Uşaqların sağlamlığına və inkişafına ziyan vuran informasiyadan qorunması haqqında qanun layihəsinin hazırlanması ilə bağlı hökumətə tapşırıq verilmişdir. Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi olaraq biz də cənab Prezidentin təşəbbüsünə qoşularaq qanun layihəsinin hazırlanmasında yaxından iştirak etmişik.

Müasir dövrdə informasiya texnologiyalarının sürətli və sərhədsiz inkişafının  mənfi təsirləri heç də az olmur. Ona görə də bu cür hallar qanunvericiliyin təkmilləşdirilməsi yolu ilə mütəmadi tənzimlənməlidir. Məhz bu baxımdan cənab Prezidentin qanunvericilik təşəbbüsü ilə parlamentə təqdim etdiyi Uşaqların zərərli informasiyadan qorunması haqqında Azərbaycan Respublikası qanununun layihəsi təqdirəlayiqdir və buna görə  də hamımızın adından Prezidentimizə təşəkkürümüzü bildiririk.

Bu qanun Azərbaycan Respublikasının Konstitusiyasına, "Uşaq hüquqları haqqında", "İctimai televiziya və radio yayımı haqqında", "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası qanunlarına, Uşaq hüquqları Bəyannaməsinə, uşaq hüquqlarına dair konvensiyalara və digər beynəlxalq hüquq normalarına uyğun olaraq hazırlanmış və Azərbaycan Respublikasında uşaqların hüquqlarının və azadlıqlarının, sağlamlığının və inkişafının qorunması, onların mənəviyyatına, psixi, fiziki, sosial inkişafına ziyan vuran informasiya məhsullarından müdafiə olunması sahəsində dövlət orqanlarının, hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir.

Qanun layihəsi 5 fəsil, 19 maddədən ibarətdir. 1-ci fəsil 4 maddə, 48 bənddən ibarətdir. Qanun layihəsinin 1-ci maddəsi qanunda işlədilən əsas anlayışların mənasını ifadə edir, 2-ci maddəsi isə uşaqların zərərli informasiyadan qorunması haqqında Azərbaycan qanunvericiliyinin digər normativ hüquqi aktlara uyğunluğunu və qanunun tətbiq dairəsini göstərir. 3-cü maddədə uşaqların zərərli informasiyadan qorunması sahəsində əsas prinsiplər, 4-cü maddədə isə uşaqlar üçün zərərli informasiyanın növləri əks olunmuşdur. Mən deyərdim ki, "Əsas anlayışlar" çox qısa, başa düşülən və məzmunlu yazılmışdır.

Uşaqların zərərli informasiyadan qorunması haqqında Azərbaycan Respublikası qanunu layihəsinin 2-ci fəslində informasiya məhsullarının yaşa görə təsnifatlaşdırılması öz əksini tapmışdır. 2-ci fəsil 2 maddə, 18 bənddən ibarətdir. Qanun layihəsinin bu maddələrində, yəni 2-ci fəslin 5-ci və 6-cı maddələrində uşaqlar üçün nəzərdə tutulan informasiya məhsullarının həmin qanunun 7-ci maddəsinə uyğun olaraq təsnifatlaşdırıldığı göstərilir. Qanun layihəsində informasiya məhsullarının yaşa görə təsnifatının həyata keçirilməsi yolları xüsusi ardıcıllıqla qeyd edilir və yaş qrupuna aid olan uşaqların normaya uyğun psixi inkişafının xüsusiyyətləri nəzərə alınaraq aparılır.

Qanun layihəsinin 3-cü fəsli 6 maddə, 34 bənddən ibarətdir. Qanun layihəsinin bu maddələrində, yəni 7, 8, 9, 10, 11 və 12-ci maddələrində informasiya məhsulunun işarələnməsi, informasiya məhsulunun işarələnməsi xüsusiyyətləri, informasiya məhsulunun televiziya və radio yayımı vasitəsi ilə yayımlanmasına aid tələblər, informasiya məhsullarının telekommunikasiya şəbəkələri vasitəsi ilə yayımlanmasının xüsusiyyətləri, uşaqlar üçün nəzərdə tutulan informasiya məhsullarının dövriyyəsinə aid tələblər, uşaqlar üçün qadağan olunmuş informasiya məhsullarının dövriyyəsinə dair əlavə tələblər öz əksini tapmışdır.

Qanun layihəsinin 4-cü fəsli 4 maddə, 3 bənddən ibarətdir. Qanun layihəsinin bu maddələrində, yəni 13, 14, 15 və 16-cı maddələrində uşaqların sağlamlığına və inkişafına ziyan vuran informasiya məhsullarının ekspertizasına aid tələblər öz əksini tapmışdır. Belə ki, qanun layihəsinin 4-cü fəsli bütövlükdə uşaqların sağlamlığına zərər vuran informasiya məhsulunun ekspertizasının aparılması qaydasına, ekspert rəyinə və informasiya məhsulunun ekspertizasının hüquqi nəticələrinə həsr olunmuşdur.

Qanun layihəsinin 5-ci fəsli isə 3 maddədən ibarətdir. Həmin 17, 18 və 19-cu maddələrdə qanunun yekun müddəaları öz əksini tapıb. Yekun müddəalarda bu qanunun pozulmasına görə məsuliyyət, qanunun icrası ilə bağlı dövlət nəzarəti və qanunun qüvvəyə minmə tarixi qeyd olunub. Cənab Prezidentin imzası ilə parlamentə təqdim edilən qanunun qəbul olunduqdan sonra 2020-ci il yanvarın 1-dən qüvvəyə minməsi nəzərdə tutulur. Qanun layihəsi Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsində və İnsan hüquqları komitəsində müzakirə olunaraq yekdilliklə bəyənilib, Milli Məclisin iclasına tövsiyə edilmişdir.

Hörmətli millət vəkilləri, çalışdım ki, qısa da olsa qanun layihəsi barədə məlumat verim. Qanun layihəsi ilə ətraflı tanış olmaq üçün sizin əvvəlcədən imkanınız var idi. Bu qanun dövlətimizin gələcəyi olan uşaqların həm fiziki, həm də mənəvi sağlamlığının qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Ona görə də sizdən xahiş edirəm ki, qanun layihəsinin qəbul olunmasına səs verəsiniz. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli millət vəkilləri, baxıram, 7 nəfər millət vəkili yazılıb. Bir şeyi yada salmaq istəyirəm. Gördünüz ki, bundan qabaq iki qanun layihəsinin ikinci oxunuşunda bir nəfər çıxış edən olmadı. Bunun səbəbi nə idi? Çünki hamı birinci oxunuşda ikinci oxunuş kimi çıxış etmişdi. Ona görə ikinci oxunuşda çıxış edən olmadı.

Konseptual nə deməkdir? Konseptual o qanun layihəsinə münasibət bildirməkdir, yəni sən bunu qəbul edirsən, ya yox, bu düzgündür, ya yox? Amma biz başlamışıq, birinci oxunuşda qanuna şərh veririk. Ona görə yazılan həmkarlardan xahiş edirəm, qanun layihəsinə konseptual

münasibət bildirsinlər, indi vaxtımız azdır. Musa Quliyev buyursun.

**M.Quliyev.** Çox sağ olun, hörmətli Oqtay müəllim. Hesab edirəm ki, bu, lazımlı qanundur və bütün millət vəkilləri bu qanunu dəstəkləyəcək, səs verəcək. O ki qaldı qanunun konsepsiyasına, bəli, biz bunu dəstəkləyirik. Amma mən hesab edirəm ki, qanunun konsepsiyası bir qədər fokusdan kənara çıxıb. Fikrimcə, bu qanunda uşaqları, əsasən, internet saytlarında və sosial şəbəkələrdə zərərli təsirlərdən, zərərli informasiyadan qorumağa daha çox üstünlük verilməlidir. Amma qanun layihəsində daha çox teleradio-kommunikasiya və kino verilişlərində olan təhlükələrdən qorunmağa üstünlük verilir. Açıq danışaq, indi uşaqlar radioya qulaq asır? Televizora isə çox nadir hallarda baxırlar. Hazırda bütün dünyada uşaqların həyatının böyük hissəsini qəsb edən kompüterdir, smartfon telefonlardır. Ona görə də bu gün onların dostu da, köməkçisi də, məsləhətçisi də, hətta müəllimi də kompüterdir. Bu mənada hesab edirəm ki, biz qanunun ikinci oxunuşuna hazırlaşanda xüsusi bir fəsildə uşaqların internet saytlarında və sosial şəbəkələrdə yayılan zərərli informasiyadan qorunması ilə bağlı xüsusi müddəalar əlavə etsək, daha yaxşı olardı. Burada hüquqi normalar, texniki təhlükəsizlik tədbirləri və sosial normalar öz əksini tapmalıdır. Hüquqi normalara əsasən zərərli informasiya yayan şəbəkələrin bloklanması nəzərdə tutulmalı, bu cür internet provayderlərin məsuliyyəti müəyyənləşdirilməlidir. Təhsil müəssisələrinə isə xüsusi göstəriş verilməlidir ki, onlar öz internet şəbəkələrinə xüsusi süzgəclər yerləşdirsin ki, uşaqlar üçün zərərli informasiya ora daxil olmasın. Texniki tədbirlərdə yaxşı olar ki, bütün evlərdə valideyn nəzarəti sisteminin, rusca “родительский контроль”

deyilən bir sistemin “Wifi” sisteminə qoşulmasını qanunla tənzimləyək.

Sosial normalara, şübhəsiz ki, uşağın asudə vaxtının düzgün təşkili, fəal komanda oyunlarına cəlb olunması, idman zallarından və hovuzlarından pulsuz istifadə edilməsi və sair məsələlər daxil olmalıdır. Çünki biz uşağın marağını harasa yönəltməliyik. Əgər biz o marağı təmin etməyəcəyiksə, uşaq, təbii ki, həmin zərərli informasiyadan daha da asılı qalacaqdır.

Vaxtın darlığını nəzərə alaraq çox geniş danışmıram. İkinci oxunuşda, Allah qoysa, fikirlərimizi ətraflı deyərik. Bu layihəyə səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Qənirə Paşayeva.

**Q.Paşayeva.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Mən də hörmətli Aqiyə xanım başda olmaqla, bütün komitəni təbrik edirəm. Çox önəmli bir qanun layihəsi müzakirəyə çıxarılıb. Çox vacib qanun layihəsidir və biz hamımız bunu dəstəkləyirik. Mən Musa müəllimin dediyi fikirləri dəstəkləyərək bir sıra əlavələri də söyləməklə fikirlərin bu qanun layihəsində öz əksini tapmasının vacibliyini vurğulayıram. Musa müəllimin vurğuladığı kimi, bu gün bütün insanları əsas narahat edən uşaqlara bu materialların internet resurslarından daha geniş şəkildə yayılması məsələsidir. Ailələrin, valideynlərin, müəllimlərin bu qanun layihəsinin müzakirəyə çıxarılacağını bildikləri üçün səsləndirdikləri bəzi məsələləri vurğulayaraq, onlara da layihədə diqqət yetirilməsini xahiş edəcəyəm.

Birincisi, biz qanunlarımızda, qanunvericiliyimizdə məktəblərə çox yaxın ərazilərdə tütün məhsullarının satışının qadağan olunması məsələsini nəzərdə tutmuşuq. Ailələr də, müəllimlər də bunu deyir ki, dərsarası fasilələr çox qısa olur. İnternet-kafelər, demək olar ki, məktəbləri

tamamilə əhatəyə alıb, məktəblərin bütün yaxın çevrələri internet kafelərlə doludur. O internet kafelərdə də filtrasiya, demək olar ki, yox səviyyəsindədir. Yəni uşaqlar fasilələrdə də, dərslərdən sonra da o internet kafelərə gedirlər, onların istənilən materiallara baxmaq imkanı olur. Ailələr, eləcə də müəllimlər buna yetəri qədər nəzarət edə bilmirlər. İnternet kafelərin məktəblərin ərazisinə həddindən artıq yaxın olması və ən vacibi, bu internet kafelərdə filtrasiya məsələsini ciddi şəkildə qanunvericiliyə salmalıyıq. Kiçik yaşlı uşaqlar arasında yayılması qadağan olan məhsulların həmin internet-kafelərdə filtrasiyası məsələsini diqqətdə saxlamalıyıq.

İkincisi, kamera nəzarəti məsələsini də burada qoymalıyıq ki, kiçik yaşlı uşaqlar nə ilə məşğul olur, bir nəzarət olunsun. Bu məsələlərin də orada öz əksini tapması lazımdır. Uşaqların daha çox, belə deyək, nəzarətdən çıxdığı məkanlar var. Burada bu məsələləri diqqətdə saxlayaq.

Digər bir məsələ – məhsulların işarələnərək şəbəkələrə yerləşdirilməsi məsələsi qanunvericilikdə öz əksini tapır. Biz anlayırıq, vətəndaş artıq satışa çıxarılmış məhsulu alıbsa, bu qanunun geriyə dönüşü ola bilməz. Amma şəbəkələrdə bunu dəyişmək çox asandır. Yəni əgər bu məhsul şəbəkədə yerləşdirilibsə belə, sonradan onun üzərinə o işarələnmənin qoyulması mümkün ola bilər. Bu məsuliyyəti uzaqlaşdırmayaq, bu məsuliyyəti qoyaq. Çünki əsas məhsullar şəbəkələrdədir.

Burada Musa müəllimin də dediyi kimi, uşaqların radioya qulaq asmaq səviyyəsi çox aşağıdır. Televiziyalar var, amma onlar da internet şəbəkələri, internet resursları qədər güclü deyil, uşaqlar daha çox bu məkandadırlar.

Digər bir vacib məqamı da deyib bu məsələni

bitirəcəyəm. Burada istisna olunan məqamlardan biri canlı efirdə yayımlanan televiziya verilişləri, informasiya və əyləncə proqramlarıdır. Məncə, əyləncə proqramlarını istisna etməməliyik. Məsələn, sadəcə, son 15 gündə sosial mediaya baxaq. Sosial mediada uşaqlar üçün qadağan olunan bütün ifadələrin, söyüşlərin, jarqonların hamısının yayıldığı yer əyləncə proqramlarıdır. Televiziya əyləncə proqramlarında, elə sosial mediada da bu halların nə qədər təkrarlandığını, sadəcə son 15 günə baxmaq yetərlidir ki, görə bilək. Ona görə də mənə elə gəlir ki, əyləncə proqramları üzərində də bu nəzarət mexanizmlərinin gücləndirilməsi lazımdır ki, onlar özü də bu məsuliyyətin ciddi şəkildə fərqində olsunlar. Təşəkkür edirəm.

Bir də xahiş edəcəkdim ki, qanunda maarifləndirmə ilə bağlı bir hissə yoxdur. Amma zərərli informasiya ilə bağlı həm təhsil müəssisələrində, həm də mətbuatda və mediada uşaqların üzərinə məsuliyyət qoymaqla, maarifləndirmə məsələsinə qanun layihəsində geniş yer verməyimiz, ayırmağımız yaxşı olardı.

**Sədrlik edən.** Sağ olun. Valeh Ələsgərov.

**V.Ələsgərov.** Oqtay müəllim, müdaxiləmə görə üzr istəyirəm. Bayaq Siz dediniz ki, bu qanun konseptual nöqteyi-nəzərdən qəbul olunur, yoxsa yox. Hörmətli Musa müəllimin, hörmətli Qənirə xanımın dedikləri məsələlər konseptual nöqteyi-nəzərdən bu qanunda nəzərdə tutulubdur. Bu konsepsiyanı daha da genişləndirmək, dəqiqləşdirmək lazımdırsa, mənim fikrimcə, bu, ikinci oxunuşun predmetidir. İkinci oxunuşda, Musa müəllimin özünün də dediyi kimi, təkliflər, fikirlər söylənə bilər, amma konseptual olaraq bu qanun yüksək səviyyədə hazırlanıb və mənim fikrimcə, birinci oxunuşda qəbul oluna bilər. Təklif edirəm, səs verək, qəbul edək. Bütün detallara ikinci

oxunuşda baxaq.

**Sədrlik edən.** Siyahıya yazılan həmkarlardan təkid edən var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, birinci oxunuşda qanun layihəsinə konseptual münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.57 dəq.) |
|---|---|
| Lehinə | 82 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Sağ olun, qəbul edildi.

Növbəti iclasın vaxtı xəbər veriləcək. Sağ olun.